# UNEC Ekspert

#01 (01) APREL 2016

## 50 İXRAC POTENSİALI

AZƏRBAYCANIN QEYRİ-NEFT SEKTORUNDA İXRAC POTENSİALINDAN İSTİFADƏNİN TƏNZİMLƏNMƏSİ

## NEYRO İQTİSADİYYAT

İQTİSADİ QƏRARLARIN QƏBUL EDİLMƏSİNİN BİOLOJİ ƏSASLARI

SƏHİFƏ 40

## NEFTİN

QİYMƏTİ NİYƏ DÜŞÜB?

SƏHİFƏ 44

## POST-NEFT

DÖVRÜNÜN MONETAR SİYASƏTİ

SƏHİFƏ 18

## MALİYYƏ

DEFLYASİYA, STAQFLASİYA İNFLYASİYA VƏ DEVALVASİYA: SƏBƏB VƏ NƏTİCƏLƏR

SƏHİFƏ 20

## MARKETİNQ

MARKETİNQİN MÜASİR PROBLEMLƏRİ

SƏHİFƏ 70

eksklüziv 100% məqalələr



"Biz Azərbaycanın sosial-iqtisadi inkişafını bilavasitə sahibkarlıqla, onun inkişafı ilə bağlayırıq və sahibkarlığın inkişaf etdirilməsi üçün bundan sonra lazım olan tədbirlərin həyata keçirilməsi ilə məşğul olacağıq".

**Heydər Əliyev**



"Şaxələndirmə, qeyri-neft sektorunun inkişafı, biznes mühitinin yaxşılaşdırılması, xarici investisiyaların cəlb edilməsi, süni əngəllərin aradan qaldırılması, inhisarçılığa qarşı mübarizə - bütün bu amillər bizim iqtisadi inkişafımızı təmin edəcək".

**İlham Əliyev**

# Mündəricat

#01 (01) MART 2016

6 **AZƏRBAYCAN RESPUBLİKASINDA MİLLİ İQTİSADİYYATIN FORMALAŞMASI VƏ İNKİŞAFI**

Dünyada 2 mindən çox millət və xalq var, ancaq heç də bu millət və xalqların hamısının milli dövləti yoxdur, cəmi 200-dən bir az çox dövlətlər var. Tarixdə müxtəlif dövrlərdə Azərbaycan xalqının özünün dövləti olmuşdur.

7 **AZƏRBAYCANIN ƏSAS TİCARƏT TƏRƏFDAŞLARI**

Bu kiçik elmi məqalədə Azərbaycanın xarici ticarət siyasəti, xarici ticarət göstəriciləri, əsas ticarət tərəfdaşları, idxal və ixrac istiqamətləri, idxal və ixracatda əsas mallar və onların dinamikası göstərilib. Həmçinin bu məqalədə, xarici ticarətdə yeni hədəflər və perspektivlər qeyd edilib.

14 **GİZLİ İQTİSADİYYAT ÜZRƏ HÖKUMƏT SİYASƏTİ NECƏ QURULMALIDIR?**

İqtisadi ədəbiyyatlarda gizli iqtisadiyyat anlayışı ilə bağlı bir-birindən ciddi şəkildə fərqlənən çoxsaylı yanaşmalar mövcuddur. Həmin fərqli yanaşmalardan irəli gələrək, onun kəmiyyət qiymətləndirməsi, səbəbləri, təsirləri və həlli yolları haqqında irəli sürülən fikirlər də fərqlənir.

**İqtisadiyyatın Dubay modeli**

Post-sənaye dövrünə sıçrayış və ya böyük Meqafan



**Neftin qiyməti**

2002-ci ildə barreli 20 dollar səviyyəsində olan neft qiymətləri 2008-ci il 11 iyul



36

**Dayanıqlı iqtisadi inkişaf strategiyasının formalaşmasında standartlaşdırmanın və sertifikatlaşdırmanın rolu**

REDAKSİYA HEYƏTİ

# Unecekspert jurnalı

Azərbaycan Dövlət İqtisad Universiteti



13

tarixində 147 dollara çataraq tarixin ən yüksək qiymətinə yüksəlmişdi.

**niyə düşüb?**

42



18

Beynəlxalq münasibətlərdə "düşmən və qəhraman" obrazları ilə oyunlar, yaxud niyə hərdən timsahlar uça bilir

**BAŞ REDAKTOR**
prof. Ədalət Muradov

MƏSUL KATİB
i.ü.f.d. Anar Rzayev

TƏRTİBATÇI
Zaur Əzizov

KORREKTOR
Sadiq Qarayev

REDAKSİYANIN ÜNVANI
AZ 1000, Bakı, Azərbaycan,
İstiqlaliyyət küçəsi 6.
Tel.: 012 437 10 86
www.unec.edu.az
expert@unec.edu.az

TİRAJ: 500

QEYDİYYAT NÖMRƏSİ
#4026

25 **İNVESTİSİYA MƏQSƏDLİ VERGİ KREDİTİ**
İnvestisiya məqsədli vergi kreditinin tədbiqi, innovasiyalı və ixracyönümlü istehsalı stimullaşdıra bilər.

27 **TİCARƏT İQTİSADİYYATIN İNDİKATORU KİMİ**
Müstəqİllİk qazanandan sonra Azər-baycanın İqtisadi həyatında ticarət sahəsi ən intensiv inkişafa malik olan sahələrindən biri olmuşdur.

67 **BİZNESDƏ İNSAN AMİLİ**
Yer üzündə bütün maddi və mənəvi mədəniyyətin, ictimai formaların yaradıcısı və müəyyənedicisi insandır.

65 **MENECMENT**
Qloballaşma postindnstrial dövrə yeni çalarlar verir. Qeyri-müəyyənlik və gözlənilməyən dəyişikliklər artır və ildırım sürəti ilə çoxlu sayda ölkələrə yayılır.

# Bu sayımızın Ekspertləri





## Baş redaktordan

**Hörmətli oxucular,**

Neftin bir barrelinin dünya bazar qiymətinin 2014-cü ilin iyun ayında 115 ABŞ dollarından, hazırda artıq 40 dollardanda aşağı düşməsi neft ixrac edən ölkələri bir sıra yeni çağırışlarla üz-üzə qoyur. Neftin Azərbaycan iqtisadiyyatında rolunu nəzərə alaraq iqtisadiyyatının diversifikasiyası istiqamətində həyata keçirilmiş tədbirlərin nəticəsində ölkə iqtisadiyyatı dinamik inkişaf etmiş, ÜDM son 10 ildə 3 dəfədən çox artmışdır. Bütün bunlar ölkəmizin gələcəkdə də dayanıqlı iqtisadi inkişafını təmin edəcək və əsas istiqamətləri "AZƏRBAYCAN 2020: GƏLƏCƏYƏ BAXIŞ" İnkişaf Konsepsiyasında əks olunmuş İlham Əliyev strategiyasının nəticəsidir.

Neftsiz iqtisadi inkişaf modeli gündəlikdə duran əsas məsələlərdəndir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 8 avqust 2015-ci il tarixində Siyəzən rayonunda yeni turizm obyektinin açılışındakı nitqində neftin dünya bazarlarında kəskin ucuzlaşmasına toxunaraq qeyd etmişdir ki, "Biz nefti və qazı bir kənara qoymalı, ümumiyyətlə, onları unutmalıyıq. Və gün gələcək ki, neftin qiyməti bizim üçün heç bir əhəmiyyət kəsb etməyəcək".

Azərbaycanın post-neft iqtisadiyyatının formalaşdırılması tapşırığı iqtisadçılar qarşısında ciddi vəzifələr qoyur.

Qeyd edilənləri nəzərə alaraq Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) "UNEC Ekspert" jurnalını təsis etmişdir. Jurnalın missiyası iqtisadçı alimlərin və ekspertlərin ən aktual iqtisadi məsələlərə dair fikirlərini dərc edərək geniş ictimayyətin diqqətinə çatdırmaqdır.

Jurnalda iqtisadi proseslərin ekspert icmalı təqdim ediləcək müxtəlif iqtisadi məsələlərə aid müvafiq ekspertlərin rəy və təklifləri dərc olunacaq.

Oxucular Azərbaycanda elə bir unikal intellektual meydançaya çıxış əldə edəcəklər ki, orada iqtisadiyyatın və biznesin aktual məsələlərinə ölkənin aparıcı iqtisadçı alimləri öz münasibətini bildərəcək və təkliflərini irəli sürəcəklər.

Jurnalın hər sayı UNEC-in Diskurs.az virtual iqtisadi forumunda işıqlandırılacaq ki, UNEC-in ekspertləri ilə əks əlaqə təmin edilsin və oxucular maraq kəsb edən məsələlərə dair onlara sual və sorğularını unvanlaya bilsinlər.

UNEC Ekspert jurnalının ilk sayını sizə təqdim edirik.

Azərbaycan Dövlət İqtisad Universitetinin
rektoru, professor Ədalət Muradov

# Azərbaycan Respul

# Milli iqtisad

# formalaşması və inkişafı

DÜNYADA 2 MİNDƏN ÇOX MİLLƏT VƏ XALQ VAR, ANCAQ HEÇDƏ BU MİLLƏT VƏ XALQLARIN HAMISNIN MİLLİ DÖVLƏTİ YOXDUR, CƏMİ 200-DƏN BİR AZ ÇOX DÖVLƏTLƏR VAR. TARİXDƏ MÜXTƏLİF DÖVRLƏRDƏ AZƏRBAYCAN XALQININ ÖZÜNÜN DÖVLƏTİ OLMUŞDUR.



Bu möhtəşəm dövlətlərdən biri də ərazisi bir mln. kvadrat kilometrdən çox olan Səfəvilər dövləti idi. XIX əsrin 20-30-cu illərində Azərbaycan İran və Rusiya tərəfindən ikiyə bölünmüşdür. Araz çayının sağ sahili, İranın sol sahili isə Rusiyanın müstəmləkəsi olmuşdur. 1918-ci ilin aprelində Şərqdə ilk demokratik cümhuriyyət olan Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Cəmi 23 ay yaşamasına baxmayaraq (1918-ci ilin may ayından 1920-ci ilin aprelinə qədər) xalqımız milli müstəqilliyin dadını bir daha bildi. Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ilin aprelində Sovet Rusiyasının hərbi müdaxiləsi nəticəsində süquta uğradı. 18 oktyabr 1991-ci ildə müstəqilliyimiz bərpa olundu. Ərazimiz 86,6 min. kv. kilometrdir, əhalimiz isə 9,5 mln. nəfərdən çoxdur.

Doğrudur, havadarlarının dəstəyi ilə ərazimizin bir hissəsi (20%-i) erməni işğalçıları tərəfindən zəbt edilmişdir. Azərbaycan xalqı inanır ki, qısa bir müddətdə Ali Baş Komandan, Prezident İ.H.Əliyevin çevik siysəti nəticəsində güclənən milli iqtisadiyyatımız milli ordumuzun köməyi ilə ərazilərimizi erməni işğalçılarından azad etməyə əlverişli şərait yaradacaq.

Müstəqillik illərimizin ilk illərindən müstəqil milli iqtisadiyyatımızı formalaşdırmağa başlamışıq.

İqtisadiyyat nədir, o necə olurki milli iqtisadiyyata çevrilir.

İqtisadiyyat bütövlükdə cəmiyyətin, ayrılıqda isə insanın normal həyat fəaliyyəti üçün lazım olan maddi nemətləri yaradan həlledici sahədir. Yəni insanların birgə və fərdi fəaliyyətinin elə sahəsidir ki, orada yaşayışın zəruri şərtləri yaradılır və istifadə edilir.

Milli iqtisadiyyat beynəlxalq iqtisadiyyatla qarşılıqlı əlaqə və asılılıqda olan, ayrı-ayrı ölkələrin inzibati sərhədləri üzrə, təbii-coğrafi, sosial-iqtisadi və texniki-texnoloji fərqlərə görə bölünən müstəqil təsərrüfat sistemidir. Sadə dildə desək, milli sərhədlərin hüdudları daxilində mövcud olan təsərrüfat əlaqələrinin məcmusudur. Hər bir ölkənin milli iqtisadiyyatı ümumdünya iqtisadiyyatının bir hissəsini təşkil edir.

Hər bir xalq içərisində yaşayıb işlədiyi milli iqtisadiyyatın məzmununu, mahiyyətini, xarakterik cəhətlərini, inkişaf qanunauyğunluqlarını dərindən bilməlidir ki, onun formalaş-

# blikasında liyyatın





ması prosesində fəal iştirak edə bilsin. Bunun üçün ilk növbədə milli iqtisadiyyat haqqında aydın təsəvvürə malik olmaq lazımdır.

Milli iqtisadiyyat müəyyən xalqa, millətə məxsus olub onun mənafelərini ifadə edən, hüdudları dövlət sərhədləri ilə məhdudlaşan, özünün maddi-texniki əsası, münasibətlər sistemi, təsərrüfat mexanizmi və idarəetmə strukturları olan sosial-iqtisadi orqanizmdir. Lakin o öz mahiyyətinə görə sırf milli ola bilməz və başqa ölkələrdə artıq mövcud olan iqtisadi sistemlərdən birinin modelinə uyğun olmaqla yanaşı, özünün spesifikliyi və milli dəyərləri ilə fərqlənir. Azərbaycan Respublikasında milli iqtisadiyyatın formalaşdırılmasına sovet dönəmindən miras qalmış "qıtlıq" iqtisadiyyatı şəraitində başlanılmışdır. Sosializmdə mülkiyyətə "özgəninki" münasibəti "qıtlıq" iqtisadiyyatının yaranmasının əsas səbəbi olmuşdur.

**<< önəmli**

**ULU ÖNDƏR H.Ə.ƏLİYEVİN DÜNYANIN APARICI NEFT ŞİRKƏTLƏRİNİ AZƏRBAYCAN NEFT SƏNAYE MÜƏSSİSƏLƏRİ İLƏ BİRGƏ İŞLƏMƏLƏRƏ CƏLB ETMƏSİ NƏTİCƏSİNDƏ ÖLKƏ İQTİSADİYYATINA QOYULAN KÜLLİ MİQDARDA İNVESTİSİYA MİLLİ İQTİSADİYYATIN FRMALAŞMASINDA ƏVƏZSİZ ROL OYNAMIŞDIR.**

Ən zəruri yaşayış vasitələrinin (çörək, yağ, ət, ət məhsulları və sair zəruri məhsullar) çox ciddi çatışmazlığı müşahidə olunurdu. İqtisadiyyatın bütün sahələrində, o cümlədən də kənd təsərrüfatında aparılan uğurlu islahatlar nəticəsində nəinki çörək qıtlığı (2014-cü ildə ölkəmizdə 2,5 mln.ton taxıl istehsal olunmuşdur), bütövlükdə ərzaq təhlükəsi aradan qalxmış, əsas ərzaq məhsullarına olan tələbatın əhəmiyyətli hissəi (80%-i) daxili istehsal hesabına ödənilir.

Milli iqtisadiyyatın formalaşdırılmasında müstəqilliyin mühüm atributlarından biri olan milli valyutanın dövriyyəyə buraxılması da əhəmiyyətli rol oynamışdır. Milli iqtisadiyyatın inkişaf səviyyəsinə uyğun olaraq milli valyutamız inkişaf edib və möhkəmlənmişdir. Milli valyutamız İranda, Ukraynada, Gürcüstanda məhdud miqdarda da olsa, bu ölkələrin valyutalarına dəyişilir.

Ulu öndər H.Ə.Əliyevin dünyanın aparıcı neft şirkətlərini Azərbaycan neft sənaye müəssisələri ilə birgə işləmələrə cəlb etməsi (neft kontraktları) nəticəsində ölkə




iqtisadiyyatına qoyulan külli miqdarda investisiya (2015-ci ilə Azərbaycan iqtisadiyyatına 200 mlrd. ABŞ dolları civarında daxili və xarici mənbələrdən investisiya qoyulmuşdur) milli iqtisadiyyatın formalaşmasında əvəzsiz rol oynamışdır.

Milli iqtisadiyyatın formalaşdırılması və inkişafının səciyyəvi cəhətlərindən biri də keçid dövrünün başa çatmasıdır.

Artıq birmənalı şəkildə demək olar ki, Azərbaycan iqtisadiyyatında bazar iqtisadiyyatının məzmun və mahiyyətini özündə əks etdirən azad sahibkarlıq istisnasız olaraq bütövlükdə qərarlaşmışdır. İqtisadiyyatın bütün sahələrində bazar münasibətlərinin formalaşması ölkə iqtisadiyyatında keçid dövrünün başa çatmasını səciyyələndirən başlıca cəhətlərdən biri hesab olunmalıdır. Artıq ÜDM-in 83%-i bazar prinsipləri ilə fəaliyyət göstərən özəl bölmədə istehsal olunur və bazar vasitəsilə reallaşır.

Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatmasını səciyyələndirən başlıca cəhətlərdən biri də bazar mexanizmi elementlərinin səmərəli fəaliyyətidir. Təsərrüfat subyektləri iqtisadi maraqlarına uyğun tərəf müqabili seçir, resursların istehsal sahələri arasında bölgüsündə qiymət mexanizmi müəyyənedici rol oynayır. Tələbin təklifi stimullaşdırılması yolu ilə iqtisadi inkişafın sabit artım tempi təmin edilir. Rəqabət ona tab gətirməyənləri iflasa uğramaq təhlükəsi yaratdığından təsərrüfat subyektlərini bütün zəruri tədbirləri, əməyin və istehsalın təşkilinin mütərəqqi formalarının tətbiqinə, elmi texniki tərəqqinin nailiyyətlərindən geniş istifadəyə məcbur edir. ÜDM-in böhran anına qədərki səviyyəyə çatması da keçid döv-



Azərbaycan Respublikasında milli iqtisadiyyatın formalaşdırılmasına sovet dönəmindən miras qalmış “qıtlıq” iqtisadiyyatı şəraitində başlanılmışdır. Sosializmdə mülkiyyətə ”özgəninki” münasibəti “qıtlıq” iqtisadiyyatının yaranmasının əsas səbəbi olmuşdur.

Mülkiyyətin “özgəninkiləşməsi” nəticə etibarilə mülkiyyətdən israfçılıqla istifadəyə “qıtlıq” iqtisadiyyatının yaranmasına səbəb olan başlıca amillərdən biri kimi çıxış edir.





# << manat

## MİLLİ VALYUTAMIZ İRANDA, UKRAYNADA, GÜRCÜSTANDA MƏHDUD MİQDARDA DA OLSA, BU ÖLKƏLƏRİN VALYUTALARINA DƏYİŞİLİR.

rünün başa çatmasını səciyyələndirən başlıca cəhətlərdən hesab olunur.

Birmənalı şəkildə demək olar ki, milli sahibkarlığın normal fəaliyyətini təmin edən start kapitalının formalaşdırılması da keçid dövrünün başa çatmasında az əhəmiyyətli rol oynamamışdır. Son illərdə ölkə iqtisadiyyatına sərmayə qoyuluşu bu sahədə tam aydınlıq yaratmağa imkan verir. Belə ki 2015-ci ildə ölkə iqtisadiyyatına qoyulan 27 mlrd. dollara yaxın sərmayənin təxminən 70%-ə yaxını milli kapitalın payına düşür.



Azərbaycanda keçid dövrünün başa çatması ilə milli iqtisadiyyatın formalaşması yeni mərhələyə daxil olmuşdur.

Artıq Azərbaycan investisiya idxal edən ölkədən investisiya ixrac edən olkəyə çevrilmişdir.Gürcüstan, Türkiyə, Moldova, Ukrayna, İsveçrə və digər ölkələrdə Azərbaycan kapitalı ilə fəaliyyət göstərən müəssisələr var.

Yeni qaz yataqlarının kəşfi Azərbaycanın Avropa ölkələrinin əsas qaz təchizatçılarından birinə çevrilməsinə əlverişli şərait yaratmışdır. Hal-hazırda qaz ehtiyatlarımız 2,6 mlrd. kub. metr qiymətləndirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd edir ki, şaxələndirilmiş qaz kəmərlərinin çəkilişi (TANAP, TAP) Azərbaycanın milli iqtisadiyyatını inkişaf etdirməklə yanaşı, onun dünya iqtisadiyyatına inteqrasiyasını sürətləndirəcək.

Milli iqtisadiyyatın formalaşması nəticəsində ÜDM-in sabit artım tempi müşahidə olunur. ÜDM-in sabit artım tempi 2015-ci ilin III rübündə də müşahidə olunmuşdur, bütövlükdə iqtisadiyyatda artım tempi 4%, qeyri-neft sektorunda isə 7% təşkil etmişdir. 2016-cı ilin sonuna respublikamızda ÜDM istehsalının təxminən 58,5 mlrd. manat səviyyəsində proqnozlaşdırılır.

Bütün bu arqumentlər bir daha göstərir ki, xalqımızın milli mənafeyinin reallaşmasına əlverişli şərait yaradan milli iqtisadiyyatımız formalaşdırılmışdır.

i.e.d., prof. Ümüdvar Əliyev

# Azərbaycanın əsas ticarət tərəfdaşları

Dünya ölkələrinin iqtisadi inkişaf tarixi onu göstərir ki, xarici ticarət siyasəti müxtəlif tarixi dövrlərdə fərqli məzmun daşımaqla, həmin dövrün konkret xüsusiyyətlərindən və bunların əsasında formalaşan situasiyadan asılı olmuşdur. Xarici ticarət fəaliyyəti, əsasən ya müstəqil, ya da iri şirkətlərin tərkibində firma və s. təsərrüfat vahidləri səviyyəsində həyata keçirilir. Beynəlxalq praktikada firmanın istehlakçılarla iqtisadi münasibətləri məhz ticarət fəaliyyəti vasitəsilə reallaşdırır.

Azərbaycanın xarici ticarət siyasəti bütövlükdə ölkənin iqtisadi təhlükəsizlik sisteminin əsas tərkib hissələrindən biri olmaqla, ilk növbədə, milli rəqabət üstünlüklərinin formalaşması və inkişafına əsaslanmışdır. Azərbaycanın müstəqilliyi qazandıqdan sonra mövcud iqtisadi gərginlik şəraitində, demək olar ki, xarici siyasət böhran durumunda idi. Beləliklə, 1994-cü ildə "Əsrin müqaviləsi"ndən sonra artıq nəinki iqtisadiyyat, eləcə də xarici ticarət sektoru canlamağa başladı. Artıq 2000-ci illərə qədər olan dövrdə Azərbaycan iqtisadiyyatının müxtəlif sektorlarında islahatlar dərinləşmiş, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması məqsədilə bir sıra işlər görülmüşdü.

2005-ci ildən isə Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə Azərbaycan neftinin dünya bazarına çıxması ilə Azərbaycanın xarici ticarətində, ixracatında yeni bir mərhələ başladı.

2015-ci ilin yanvar-noyabr aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 162 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 109 ölkəyə məhsul ixrac olunmuş, 145 ölkədən idxal olunmuşdur. Ticarət dövriyyəsinin 9,6 faizi MDB üzvü dövlətləri, 48,5 faizi Avropa İttifaqı ölkələri, 41,9 faizi isə dünyanın digər ölkələrinin payına düşmüşdür. 2015-ci ilin on bir ayı ərzində xarici ticarət dövriyyəsinin həcmi statistik məlumatlara əsasən 23575,6 milyon ABŞ dolları, o cümlədən ixracın həcmi 15379,4 milyon dollar, idxalın həcmi 8196,2 milyon dollar təşkil etmiş, nəticədə 7183,2 milyon dollarlıq müsbət xarici ticarət saldosu yaranmışdır.

Cədvəl 1-ə əsasən Azərbaycanın əsas ticarət tərəfdaşlarının siyahısı verilmişdir. Belə ki cədvəldən də aydın göründüyü kimi, İtaliya Azərbaycanın əsas tərəfdaşları siyahısında təxminən 3 milyard ABŞ dollarına yaxın ticarət dövriyyəsi ilə ilk yeri tutur. Ümumiyyətlə, İtaliya son 4 ildir ki, Azərbaycanın əsas ticarət tərəfdaşları siyahısında ilk yeri tutur. Bu xarici ticarət əlaqələri eynilə ölkələrarası ikitərəfli əlaqələrin inkişaf dinamikasına da təsir edir. İtaliya 2015-ci ildə ümumi ticarət dövriyyəsində 13.77% paya sahibdir.

Cədvəl 2-də qeyd edildiyi kimi, ixrac edilmiş məhsulların ümumi həcmində xam neft, neft məhsulları, təbii qaz, meyvə-tərəvəz, şəkər, idxal olunmuş məhsulların həcmində isə maşın, mexanizm, elektrik aparatları, avadanlıqlar, qara metallar və onlardan hazırlanan məmulatlar, nəqliyyat vasitələri və onların hissələri, ərzaq məhsulları, tütün və tütün məmulatları, əczaçılıq məhsullarının xüsusi çəkisi üstünlük təşkil etmişdir.

Azərbaycanın neft ixrac edən ölkə olaraq öz ixracatında neft və neft məhsullarının əsas və böyük paya sahib olması gözlənilən idi. Lakin bununla belə son illər Azərbaycan hökuməti ixracatda neft sektorun-



# xülasə

BU KİÇİK ELMİ MƏQALƏDƏ AZƏRBAYCANIN XARİCİ TİCARƏT SİYASƏTİ, XARİCİ TİCARƏT GÖSTƏRİCİLƏRİ, ƏSAS TİCARƏT TƏRƏFDAŞLARI, İDXAL VƏ İXRAC İSTİQAMƏTLƏRİ, İDXAL VƏ İXRACATDA ƏSAS MALLAR VƏ ONLARIN DİNAMİKA GÖSTƏRİLİB. HƏMÇİNİN BU MƏQALƏDƏ, XARİCİ TİCARƏTDƏ YENİ HƏDƏFLƏR VƏ PERSPEKTİVLƏR QEYD EDİLİB.



dan asılılığını azaltmaq istiqamətində bir sıra işlər görür. Əlbəttə ki, neft ixracatçısı olan ölkə üçün bu halı qənaətbəxş saymaq olsa da belə, yenə də ixracatın dolayısı ila qeyri-neft sektorunun diversifikasiya məsələsi daima gündəmdədir. Bu məsələnin vacibliyi məhz neftdən asılılığı azaltmağa və ixracatda qeyri-neft sektorunun payının çoxalmasına yönəlir. Son zamanlardakı dünya neft bazarındakı neftin qiymətindəki dalğalanmalar bir daha neft ixrac edən ölkələr üçün neftdən asılılığın nə qədər təhlükəli olduğunu göstərdi. Təsadüfi deyil ki, 2014-cü ilin III rübündən başlayan neft qiymətlərindəki eniş ölkəmizə də neft gəlirləri ilə yanaşı həm də ixracdan gələn gəlirlərin də azalmasına səbəb oldu.

2015-ci ilin müvafiq dövrü üçün idxalın statistikasına nəzərən maşın, mexanizm, elektrik aparatları, avadanlıqlar və onların hissələri, nəqliyyat vasitələri və onların hissələri, qara metallar ümumi idxalda xüsusi paya sahibdir. İdxaldakı əsas malların statistikası bir daha qeyri-neft sektorunun diversifikasiyasının zəruriliyini ortaya çıxardır. İdxalın ümumi həcminin 58,4 faizini avtomobil, 25 faizini dəmiryolu, 10 faizini hava, 6,5 faizini dəniz nəqliyyatı, 0,1 faizini isə stasionar nəqletmə vasitələri ilə idxal olunmuş məhsulların dəyəri təşkil etmişdir. 2015-ci ilin yanvar-noyabr aylarında ölkəyə 22746 ədəd minik avtomobili, 803 ədəd avtobus, 1871 ədəd yük avtomobili idxal olunmuşdur.

Şəkil 1-də isə regionlar üzrə ixrac dinamikası verilmişdir. Aydın göründüyü kimi, Avropa İttifaqı ölkələri ixrac istiqamətimizdə ən yüksək paya sahibdir. 2015-ci ildə ixrac olunmuş məhsulların 20,3% İtaliyaya, 11,2% Almaniyaya, 7,3% Fransaya, 6,5% İsrailə, 4,6% Çexiyaya, 3,8% Avstriyaya, 3,0% İspaniyaya, 2,9% Portuqaliyaya məxsusdur. Lakin verilmiş ixrac dinamikasından da aydın görünür ki 2011-ci ildən 2015-ci ilə qədər ixrac dinamikası aşağı doğru istiqamətlənir. 2014-cü il ilə 2015-ci ili müqayisə etdiyimizdə isə arada daha çox fərqin olduğunu görürük. Bu məsələdə bir daha ixracda neftdən asılılığın mənfi təsirinin ixrac balansında da şahidi oluruq.

Ölkəmizə idxal olunmuş məhsulların ümumi həcminin 16,1% Rusiyanın, 12,6% Türkiyənin, 9,4% ABŞ-ın, 7,7% Almaniyanın, 6,1% Yaponiyanın, 5,8% İtaliyanın, 5,7% Birləşmiş Krallığın, 5,5% Çinin, 3,5% Ukraynanın, 2,2% Fransanın, 1,6% Norveçin, 1,5% Koreyanın, hər birində 1,3% olmaqla Braziliya və Avstriyanın, 1,2% Sinqapurun, hər birində 1,1% olmaqla Niderland və Qazaxıstanın, hər birində 1,0% olmaqla İsveçrə, İran və Polşanın, 13,3% isə digər ölkələrin payına düşmüşdür. Şəkil 2-yə nəzərən biz 2011-ci ildən 2015-ci illədək idxal dinamikasını görə bilərik. İdxalın ümumi həcminin 21,9% MDB üzvü dövlətlərinin, 31,2% Avropa İttifaqı ölkələrinin, 46,9% isə

Şəkil 1. Regionlar üzrə ixrac dinamikası




| | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|
| MDB ölkələri üzrə | 2,924.40 | 1,251.90 | 1,509.60 | 838.1 | 525.3 |
| Avropa İttifaqı ölkələri üzrə | 15,776.50 | 11,198.90 | 11,513.30 | 11,567.50 | 6,751.60 |
| Digər ölkələr üzrə | 7,869.90 | 11,457.20 | 10,952.40 | 9,422.90 | 4,147.40 |

**Mənbə:** müəllif tərəfindən hazırlanıb, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi. 2011-2015-ci illlərdə Azərbaycanın ixrac dinamikasının göstəriciləri, http://www.customs.gov.az/az/stat.html

Şəkil 2. Regionlar üzrə idxal dinamikası




**Mənbə:** müəllif tərəfindən hazırlanıb, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi. 2011-2015-ci illərdə Azərbaycanın idxal dinamikasının göstəriciləri, http://www.customs.gov.az/az/stat.html

Şəkil 3. Xarici ticarət dövriyyəsi




**Mənbə:** müəllif tərəfindən hazırlanıb, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. 2011-2015-ci illərdə Azərbaycanın idxal dinamikasının göstəriciləri, http://www.customs.gov.az/az/stat.html

Cədvəl 1. 2015-ci il ticarət dövriyyəsində əsas ölkələr

| Ölkələrin adı | Min ABŞ dolları ilə | Ümumi dövriyyəyə nisbətən %-lə |
|---|---|---|
| Cəmi | 20 645 880.20 | 100.00 |
| İtaliya | 2 842 098.01 | 13.77 |
| Almaniya | 1 914 044.42 | 9.27 |
| Rusiya | 1 854 672.03 | 8.98 |
| Türkiyə | 1 475 683.83 | 7.15 |
| Amerika Birləşmiş Ştatları | 1 185 093.77 | 5.74 |
| Fransa | 1 076 406.38 | 5.21 |
| İsrail | 826 405.14 | 4.00 |
| Çexiya | 607 892.84 | 2.94 |
| Çin | 565 099.40 | 2.74 |
| Böyük Britaniya | 563 991.57 | 2.73 |
| Yaponiya | 558 969.05 | 2.71 |
| Avstriya | 525 793.22 | 2.55 |
| İndoneziya | 497 733.44 | 2.41 |
| Gürcüstan | 433 947.18 | 2.10 |
| Portuqaliya | 395 078.92 | 1.91 |
| Digər ölkələr | 5 322 971.01 | 25.79 |

**Mənbə:** cədvəl müəllif tərəfindən hazırlanıb, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi. 2015-ci ildə Azərbaycanın əsas ticarət tərəfdaşları, http://www.customs.gov.az/az/stat.html

Cədvəl 2. 2015-ci ildə idxal və ixacda ən çox paya sahib olan mallar (min ABŞ dolları)

| № | İxracda əsas mallar | 2015-ci il ərzində | 2015-ci ilin ümumi ixracına nisbətən %-lə |
|---|---|---|---|
| 1 | Xam neft | 8 866 158.60 | 77.61 |
| 2 | Neft məhsulları (2710 mal kodu üzrə) | 751 921.59 | 6.58 |
| 3 | Təbii qaz | 200 739.68 | 1.76 |
| 4 | Meyvə-tərəvəz | 311 929 | 2.73 |
| 5 | Çay | 19 501.53 | 0.17 |
| 6 | Şəkər | 212 087.89 | 1.86 |
| **№** | **İdxalda əsas mallar** | **2015-ci il ərzində** | **2015-ci ilin ümumi idxala nisbətən %-lə** |
| 1 | Yeyinti məhsulları | 979 509.85 | 10.62 |
| 2 | Tütün və tütün məhsulları | 297 608.16 | 3.23 |
| 3 | Ücaqçılıq məhsulları | 270 684.49 | 2.94 |
| 4 | Qara metallar və onlardan hazırlanan məmulatlar | 1 586 803.60 | 17.21 |
| 5 | Maşın, mexanizm, elektrik aparatları, avadanlıqlar və onların hissələri | 2 465 306.51 | 26.73 |
| 6 | Nəqliyyat vasitələri və onların hissələri | 1 217 145.99 | 13.20 |

**Mənbə:** cədvəl müəllif tərəfindən hazırlanıb, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi. 2015-ci ildə Azərbaycanın ixrac və idxalında əsas seçilmiş mallar, http://www.customs.gov.az/az/stat.html

digər ölkələrin hesabına formalaşmışdır.

Ümumən 2015-ci ildə Azərbaycanın ticarət dövriyyəsi (şəkil 3) 20 6450,90 milyon ABŞ dolları səviyyəsində olmuşdur hansı ki müvafiq olaraq 9 221,40 milyon ABŞ dolları idxala digər hissə isə 11 424,50 milyon ABŞ dolları isə ixracın payına düşür. 2015-ci ili keçən il müqayisə edərkən böyük şəkildə ticarət dövriyyəsində geriləməni görə bilərik. Azərbaycan ixracın stimullaşdırılması və qeyri-neft sektorunun ixracda payının artması üçün ixracat yönümlü istehsalat sferaları üçün əlverişli şəraitin yaradılması istiqamətində işləri daha da genişləndirməli, yeni bazarların axtarışını davam etdirməli, ənənəvi istehsalat sahələrində uzun illər təcrübəyə malik bir ölkə kimi xüsusən kənd təsərrüfatının dinamik inkişafını təmin etməklə ilk növbədə daxili bazarın və daha sonra xarici bazarın tələbatını ödəməklə ixrac bazarında qeyri-neft sektorunun payının artmasına, ölkə daxilində biznes mühitinin daha da təkmil formalaşmasına eləcə də kiçik və orta sahibkarlığın inkişafına mütəmadi nəzarət etməklə ixrac potensialının inkişafına mühüm təsir göstərə bilər.

Rövşən Camalov

# İqtisadiyyatın Dubay modeli

## POST-SƏNAYE DÖVRÜNƏ SIÇRAYIŞ VƏ YA BÖYÜK MEQAFAN

İqtisadiyyatın Dubay modelindən danışarkən ilk növbədə qeyd etmək lazımdır ki, Dubay Əmirliyi müstəqil ölkə deyil və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) tərkib hissəsidir və bunun da öz nəticələri var.

Dubay iqtisadiyyatını qısaca xarakterizə etsək, aşağıdakıları qeyd etməyimiz zəruridir. Bu əmirliyin iqtisadiyyatı son 30 ildə 11 dəfədən artıq böyüyüb. Dubayın ümumi daxili məhsulunun (ÜDM) həcmi 90 milyard ABŞ dollarından artıqdır. ÜDM-in artım tempi orta hesabla 4,4%-dir. 2014-cü ildə Əmirliyə birbaşa xarici investisiyalar (BXİ) 7,8 milyard dollar təşkil edib ki, bu da əhəmiyyətli artım deməkdir. Dubay iqtisadiyyatına qoyulan BXİ-nin artım tempi orta hesabla ildə 14-15% təşkil edir. BXİ-nin 78%-i daşınmaz əmlaka, maliyyə sektoruna, turizm, alternativ enerji mənbələri və proqram təminatı sahələrinə və informasiya kommunikasiya texnologiyalarına yönəldilir. Bütün investisiyaların 84%-i altı ölkəyə – ABŞ, Böyük Britaniya, Hindistan, Niderland, Almaniya və İtaliyaya məxsusdur. Dubayda BXİ-nin cəlb olunması ilə məşğul olan "İnvestisiyaların inkişafı agentliyi" fəaliyyət göstərir.

Bəlkə də qəribə görünə bilər, amma əmirliyin xarici ticarət saldosu mənfidir. İdxalat ixracatı əhəmiyyətli dərəcədə üstələyir. Əmirliyin məcmu ixracatı, əsasən, təkrar ixracat (reeksport) hesabına formalaşır. Reeksport ixracatı 2,6 dəfə üstələyir. Yanacaq və sürtkü yağlarının ixracı bütün ixracatın 2%-indən çoxunu təşkil etmir, yanacaq və sürtkü yağlarının reeksportu isə ixracatı 3 dəfə üstələyir.

Dubay iqtisadiyyatı 4 dayağın üzərində dayanır: turizm, inşaat, maliyyə xidmətləri və xüsusi iqtisadi zonalar. Sənaye məhsulu əsasən xüsusi iqtisadi zonalarda istehsal olunur və ya təkrar satılır, bu səbəbdən əhəmiyyətli dərəcədə reeksport mövcuddur.

Mahiyyət etibarı ilə Dubayda nəhəng iqtisadi eksperiment həyata keçirilir. Əmirlik sənayeləşmə mərhələsini keçmədən sənayedən öncəki eradan iqtisadiyyatın əsasını xidmətlər sektorunun təşkil etdiyi post sənaye eraya sıçrayış etməyə çalışır. Bunun mümkün olub-olmadığını zaman göstərəcək. Hələlik isə aşağıdakıları qeyd etmək olar.

2004-cü ilədək Dubayda əmək məhsuldarlığının inkişaf tempi praktiki olaraq artmayıb və bütün parametrlərə görə Sinqapurun göstəricilərindən geri qalır. Dünya maliyyə böhranı dövründə Dubay defoltqabağı duruma düşmüşdü və yalnız Əbu-Dabinin neft dollarları Dubay əmirliyinin iqtisadiyyatını xilas etdi. Böhran zamanı ofislər 58%, mənzillər isə 43% ucuzlaşdı. Dubayın və dövlət şirkətlərinin xarici borcu az qala onun ÜDM-inə bərabərdir. BƏƏ dirhəminin məzənnəsi Əbu-Dabinin neft dollarlarının hesabına dəstəklənir, onlar olmasa hipotetik Dubay valyutasının perspektivləri dumanlı görünür.

Qeyd etmək lazımdır ki, Dubay ilə inkişaf etmiş ölkələrin servis iqtisadiyyatları arasında ciddi fərqlər var. Qərb ölkələri texnologiyalar formasında biliklərin, habelə patentlərin və nou-hauların yaradılması və satışı üzrə ixtisaslaşdıqları və texnoloji əmək bölgüsündə iştirak etdikləri halda, Dubayın servis sektoru istirahətlə və asudə vaxtın xoş keçirilməsi ilə əlaqədardır. Bu, bir növ nəhəng Meqafandır.

Qısaca yekunlaşdıraraq demək olar ki, Dubay modelinin bəzi elementləri, şübhəsiz ki, faydalıdır. Məsələn, xüsusi iqtisadi zonalar, turizm sektorunun inkişafı və BXİ-nin cəlb olunması metodları buraya aiddir. Amma bu modeli möcüzəli təsirə malik resept kimi qəbul etmək faydalı olmaqdan daha çox, zərərlidir.

i.ü.f.d. Anar Rzayev



# Gizli iqtisadiyyat üzrə hökumət siyasəti necə qurulmalı?

İqtisadi ədəbiyyatlarda gizli iqtisadiyyat anlayışı ilə bağlı bir-birindən ciddi şəkildə fərqlənən çoxsaylı yanaşmalar mövcuddur. Həmin fərqli yanaşmalardan irəli gələrək, onun kəmiyyət qiymətləndirməsi, səbəbləri, təsirləri və həlli yolları haqqında irəli sürülən fikirlər də fərqlənir.

Gizli iqtisadiyyat anlayışına vahid yanaşmanın formalaşdırılması ilə bağlı axtarışlar ilkin əsasları 1980-ci illərdə ortaya çıxan və BMT-nin 1993-cü il Milli Hesablar Sistemi Konvensiyasının qəbul edilməsindən sonra daha da geniş yayılmağa başlayan makroiqtisadi yanaşma ilə yeni keyfiyyət mərhələsinə daxil olmuşdur. İƏİT(OCED), BVF(IMF), BƏT(ILO) və MDB Dövlətlərarası Statistika İdarəsi (CIS STAT) tərəfindən birgə hazırlanaraq, bütün milli statistika idarələri üçün gizli iqtisadiyyatın ölçülməsi sahəsində əsas metodiki vəsait kimi qəbul olunan "Gizli iqtisadiyyatın ölçülməsi: Bələdçi kitab"ın ("Mavi Kitab") 2002-ci ildə nəşr edilməsi isə bu yanaşmanın sistemləşdirilməsi baxımından əhəmiyyətli olmuşdur. Bu gün gizli iqtisadiyyat anlayışı ilə bağlı ədəbiyyatlarda ən çox istifadə olunan yanaşma da məhz bu yanaşmadır.

Makroiqtisadi yanaşma, gizli iqtisadiyyatı Birləşmiş Millətlət Təşkilatının 1993-cü il Milli Hesablar Sistemi Konvensiyasına görə ÜDM göstəricisini hesablamaq məqsədilə qeydə alınmalı olan iqtisadi fəaliyyətlərin faktiki qeydə alınmamış hissəsi kimi qəbul edir. Elə məhz bu yanaşmanı əsas götürməklə gizli iqtisadiyyata daha ətraflı tərif verməyə çalışsaq, onu qanunvericiliyə tamamilə uyğun olmadan (kriminal sektor) və ya onun bir sıra tələblərini pozmaqla həyata keçirilən (qeyri-kriminal sektor), üzərində dövlət idarəetmə orqanlarının tənzimləmə və nəzarət funksiyalarının reallaşdırıla bilmədiyi, milli gəlir statistikasının mövcud hesablama metodları ilə kəmiyyət qiymətləndirmələrinin aparıla bilmədiyi və buna görə də rəsmi hesablanan ÜDM göstəricisinin əhatə etmədiyi, əlavə dəyər yaradan bazar buraxılışlı iqtisadi fəaliyyətlərin məcmusu kimi ifadə etmək mümkündür.

Bir çox hallarda müxtəlif tədqiqatçılar və siyasətçilər tərəfindən gizli iqtisadiyyatın mənfi təsirləri ilə yanaşı, müsbət təsirləri də qeyd olunsa da onun uzunmüddətli perspektivdə iqtisadiyyat üzərində mənfi təsirlərinin daha çox olması ilə bağlı artıq dünyada müəyyən fikir birliyi formalaşmışdır. Bu isə hər ölkədə gizli iqtisadiyyatla bağlı müvafiq hökumət siyasətinin qurulmasını zəruri edir. Təcrübə göstərir ki, müxtəlif ölkələrdə formalaşdırılan bu siyasətin əsas məqsədi, gizli iqtisadiyyatın kriminal fəaliyyətlərini tamamilə ortadan qaldırmaq, qeyri-kriminal fəaliyyətlərini isə leqallaşdıraraq rəsmi iqtisadiyyata inteqrasiya etməkdir.

Gizli iqtisadiyyatın leqallaşdırılması siyasəti ilə bağlı ən müasir təcrübələrin və elmi yanaşmaların təhlili göstərir ki, bu siyasətin cəzalandırma və digər məcburetmə tədbirlərindən daha çox gizli iqtisadiyyatın səbəblərinin müəyyənləşdirilməsi və onların aradan qaldırılması istiqamətində qurulmalı olduğu haqqında elmi və siyasi dairələrdə artıq fikir birliyi mövcuddur.

Gizli iqtisadiyyatın leqallaşdırılması siyasəti formalaşdırıldığı zaman görülməli

olan ilk iş problemin səbəblərinin dəqiq təsbit edilməsidir. İqtisadi, fiskal, instutsional, sosial, siyasi və psixoloji xarekterli bu səbəblər heç də bütün ölkələrdə eyni olmur və onların tarixi inkişaf xüsusiyyətləri, iqtisadi və sosial quruluşlarının spesifik cəhətlərindən asılı olaraq fərqlənirlər.

Gizli iqtisadiyyatın leqallaşdırılması siyasətinin qurulmasında ikinci mərhələ onun səbəblərinin aradan qaldırılması məqsədilə həyata keçiriləcək tədbirlərin əsas istiqamətlərinin müəyyənləşdirilməsidir. Müxtəlif nəzəri mənbələrin və ayrı-ayrı ölkələrdə həyata keçirilən müvafiq siyasətlərin təhlili əsasında qeyd edə bilərik ki dünya təcrübəsində artıq bu istiqamətdə də müəyyən ortaq yanaşma formalaşmışdır. Belə ki, mövcud yanaşmaları ümumiləşdirməyə çalışsaq, onda dünya təcrübəsində gizli iqtisadiyyatın leqallaşdırılması siyasətinin əsas istiqamətlərinin makroiqtisadi mühitin təkmilləşdirilməsi, rəsmi iqtisadiyyatın cəlbediciliyinin artırılması, gizli iqtisadiyyatla mübarizənin gücləndirilməsi və gizli iqtisadiyyat əleyhinə ictimai şüurun formalaşdırılmasından ibarət olduğunu qeyd etmək mümkündür.

Makroiqtisadi mühitin təkmilləşdirilməsi dedikdə, əsasən, ölkədə makroiqtisadi stabilliyə nail olunması nəzərdə tutulur ki, bu da iqtisadi fəaliyyət baxımından rəsmi iqtisadiyyatın gizli iqtisadiyyatla müqayisədə riskq səviyyəsini aşağı salır və gizli iqtisadiyyata yönəlmənin maddi əsaslarını zəiflədir.

Rəsmi iqtisadiyyatın cəlbediciliyinin artırılması biznes üçün rəsmi öhdəliklərin azaldılması və rəsmi infrastrukturun gücləndirilməsi tədbirlərini nəzərdə tutur və bunlar da rəsmi iqtisadiyyatı biznes subyektləri üçün daha əlverişli edir.

Gizli iqtisadiyyatla mübarizənin gücləndirilməsi gizlilik riskqindən doğan xərcləri artırmaqla gizli iqtisadiyyatın cəlbediciliyini aşağı salan cəzaların və aşkarlanma ehtimalının artırılması tədbirlərindən ibarətdir. Dünya təcrübəsi göstərir ki, cəzalar nə qədər yüksək olsa da, gizli iqtisadi fəaliyyətlərin aşkarlanma ehtimalı aşağıdırsa, bu zaman cəzaların da yüksək effekti olmur.

İstər gizli iqtisadiyyata yönəlmə meylinin azaldılması, istərsə də gizli iqtisadiyyatın leqallaşdırılması siyasətinin cəmiyyət tərəfindən dəstəklənməsi baxımından bu iqtisadiyyat əleyhinə ictimai şüurun formalaşdırılması prinsipial məsələlərdəndir. Müxtəlif ölkələrin təcrübəsi göstərir ki, gizli iqtisadiyyat əleyhinə ictimai şüurun formalaşdırılmasında əsas istiqamətlər dövlət qurumlarına etibarın gücləndirilməsi və maarifləndirmə kampaniyalarının keçirilməsidir.

Nəhayət, bütün qeyd edilənlərlə yanaşı, gizli iqtisadiyyatın leqallaşdırılması siyasətinin effektli şəkildə reallaşdırılması baxımından bu məqsədlə müvafiq siyasət-koordinasiya strukturunun formalaşdırılmasına, strategiya və fəaliyyət planının hazırlanmasına, dövlət proqramlarının və qanunların qəbul edilməsinə də ehtiyac vardır.i

Gizli iqtisadiyyatla bağlı hökumət siyasətinin əsas məqsədi, gizli iqtisadiyyatın kriminal fəaliyyətlərini tamamilə ortadan qaldırmaq, qeyri-kriminal fəaliyyətlərini isə leqallaşdıraraq rəsmi iqtisadiyyata inteqrasiya etməkdir.

i.ü.f.d. Elşən Bağırzadə





Ölkədə aparılan iqtisadi siyasətin əsas məqsədi makroiqtisadi tarazlılığı, ümumilikdə isə ümumi iqtisadi tarazlılığı təmin etməkdir. Bu istiqamətdə dövlət, ümumi mənada (konyuktur şərtləri və ölkə iqtisadiyyatının struktur fərqlilikləri nəzərə alınmadan) aşağıdakı qeyd olunan məsələlərin həllini qarşısına məqsəd kimi qoyur:

- məşğulluğun səviyyəsinin artırılması,
- istehsalın həcminin artırılması,
- qiymət artımının qarşısının alınması və sabitliyinin qorunması,
- tədiyə balansında tarazlılığın qorunması,
- gəlir bölgüsündə bərabərliyin təmin olunması və resursların səmərəli istifadəsinin təmin olunması.

Bir-birini tamamlama prinsipinə əsaslanan bu məqsədlərə çatmaq üçün dövlət fiskal, monetar, xarici ticarət siyasətlərindən və iqtisadi tənzimləmələrdən iqtisadi siyasət vasitələri kimi istifadə edir. Qeyd olunan iqtisadi siyasət vasitələrinin hər birinin ümumi mənada bu məqsədlərə çatmaq istiqamətində istifadəsinin mümkünlüyünü qeyd etmək mümkündür. Bununla yanaşı, iqtisadi siyasət vasitələrinin hər birinin xüsusi təyinat sahəsi vardır. Məsələn, monetar siyasət vasitəsilə dövlət iqtisadiyyatda qiymət artımının qarşısını almağa və monetar sabitliyi qorumağa çalışır. Bu məqsədə çatmaq üçün isə monetar siyasət vasitəsi kimi aşağıda qeyd olunan alətlərdən istifadə olunur:

- diskont faiz dərəcəsi,
- açıq bazarda əməliyyatlar,
- məcburi ehtiyat norması,
- faiz dərəcəsi.

Bu alətlərin hər birinin istifadə təyinatı MB-ın kommersiya banklarının aktivlərində kredit olaraq istifadə edilə biləcək resursların miqdarına təsir etmək və beləliklə, pul təklifindəki dəyişmələri nəzarətdə saxlamağa istiqamətlənmişdir. Belə ki diskont siyasəti ilə MB diskont faizini müəyyənləşdirərək kommersiya banklarının ondan alınan pul məbləğini artıra və ya azalda bilər ki, bu da öz növbəsində likvidliyin artmasına və ya azalmasına səbəb ola bilər. Açıq bazar siyasəti ilə MB monetar bazarda istiqraz, səhm və digər qiymətli kağızların alqı-satqısı nəticəsində likvidliyin həcmini müəyyənləşdirir. MB kommersiya banklarına məcburi ehtiyat norması müəyyənləşdirərək onların verə biləcəkləri kredit imkanlarına təsir edərək monetar bazarında likvidlik tələbini ödəyir. MB kommersiya bankları ilə birbaşa pul alqı-satqısında faiz dərəcələri müəyyənləşdirərək isə likvidlik həcminə təsir edir. Qeyd olunan bu alətlərlə yanaşı, monetar siyasətin aləti kimi milli pul vahidinin xarici valyutalar qarşısında dəyərini müəyyənləşdirən valyuta kursu siyasəti, pul emissiyası, kommersiya banklarından və digər qurumlardan maliyyə aktivlərinin alınmasına əsaslanan monetar genişlənməsi siyasəti və MB-ın gələcəkdə həyata keçirəcəyi siyasətlə bağlı bəyanatlarla çıxış edərək gözləntiləri istiqamətləndirməyə yönləndirilmiş "şəffalıq" siyasəti də tətbiq edilir.

Son on ildə (2005-2015) ölkə iqtisadiyyatında baş verən proseslər MB-ın ümumi mənada aşağıda qeyd olunan istiqamətlərdə monetar siyasətin həyata keçirilməsi zərurətini yaratmışdır. Neftdən əldə olunan gəlirlərin mütəmadi olaraq artması ölkəyə xarici valyuta daxilolmalarını artırmış, bu isə öz növbəsində iqtisadi sabitliyi qorumaq istiqamətində manatın məzənnəsinin qorunmasının (xarici valyutalar qarşısında dəyərinin artmasının qarşısının alınması) zərurətini yaratmış, digər tərəfdən bu gəlirlərin məqsədyönlü qaydada iqtisadi artımı dəstəkləmək və iqtisadi inkişafı təmin etmək məqsədilə iqtisadiyyata ötürülməsi (transfer olunması) nəticəsində reallaşan effektiv tələb artımı (istehlak və investisiya xərclərinin məcmusu) qiymət artımının qarşısının alınması zərurətini yaratmışdır. Bu dönəmdə ölkə iqtisadiyyatında yaşanan inflyasiya təzyiqini tələb inflyasiyası kimi qiymətləndirmək mümkündür. Belə bir şəraitdə MB-ın həyata keçirdiyi siyasəti kifayət qədər uğurlu hesab etmək olar. Belə ki, qeyd olunan dövrdə inflyasiya təkrəqəmli olmuş, manatın məzənnəsi isə sabit qalmışdır.

2014-2015-ci illərdə dünya bazarlarında neftin qiymətinin kəskin aşağı düşməsi müəyyən addımların atılmasını və post-neft dövrünə keçidi gözlənildikdən daha erkən keçməyi zəruri etmişdir. Belə ki xarici valyuta ehtiyatlarının qorunması, ixracatın diverfikasiyası və xarici şokların qarşısının alınması məqsədilə manatın dəyəri devalvasiya edilmiş və nəticədə "üzən məzənnə"



# Post-neft dövrünün monetar siyasəti

sisteminə keçid baş vermişdir. Yaranmış vəziyyət iqtisadiyyatda yenidən eyni iki məsələni gündəmə gətirmişdir. Ancaq bu dəfə tamamən əks istiqamətlərdə baş verən hadisələr ölkədə valyuta məzənnələrindəki sabitliyin qorunmasını zəruri edir. Əvvəlki vəziyyətdən fərqli olaraq artıq yaşanan inflyasiya təzyiqi tələb istiqamətli yox, idxalın əhəmiyyətli dərəcədə tərkibində paya malik olğudu istehsal-təklif (xərclərin inflyasiyası) istiqamətlidir. Əvvəlki vəziyyətdə dövlət tərəfindən iqtisadiyyata transfer edilən xərclərin istiqamətinin müəyyənləşdirilməsi və tələb təzyiqinin azaldılması istiqamətində aparılan monetar siyasət nəticəsində inflyasiyanın qarşısını almaq mümkün olmuşdur. Hazırkı dövrdə isə belə bir monetar siyasətin aparılması tələbi azaltdığına görə ÜDM artımına mənfi təsir göstərə bilər. Əksinə, xərclərin istiqaməti düzgün müəyyənləşdirilməli və onların azalmasının qarşısı alınmalıdır.

Xərclər inflyasiyası kimi qarşımıza çıxan inflyasiya şəraitində MB-lar adətən 2 növ monetar siyasət rejiminə müraciət edirlər. Bunlardan birincisi "valyuta kursu hədəflənməsi" rejimi, ikincisi isə "inflyasiyanın hədəflənməsi" rejimidir. Valyuta kursu hədəflənməsi rejiminə inflyasiya dərəcələrinin yüksək olduğu dönəmlərdə müraciət olunur, milli valyutanın dəyərinin inflyasiya dərəcəsinin aşağı göstəricilərdə olduğu başqa bir ölkə valyutasına indeksasiya olunması formasında həyata keçirilir və beləliklə, idxal mallarının qiymətlərində artımın qarşısı alınır. Ölkəmizdə də tətbiq olunmasını təklif etdiyimiz, inflyasiyanın hədəflənməsi rejimində isə hədəf kimi malların qiymət səviyyəsi yox, birbaşa inflyasiya dərəcəsi seçilir. İnflyasiyanın hədəflənməsi rejimində MB inflyasiya dərəcəsi üçün nöqtə (birbaşa) hədəf və ya aralıqlı (elastik) hədəf müəyyənləşdirir. Nöqtə hədəf praktikasında tək (mütləq) inflyasiya dərəcəsi müəyyənləşdirilərkən, aralıqlı hədəf praktikasında inflyasiya dərəcəsinin "hərəkət edə biləcəyi interval" müəyyənləşdirilir. İnflyasiyanın hədəflənməsində aralıqlı hədəf rejiminin praktikada daha müsbət nəticələr verdiyi müəyyən edilmişdir. İlk dəfə 1990-cı ildə Yeni Zelandiyada, sonra isə Kanada, İsrail, Avstraliya, İspaniya və Türkiyədə tətbiq olunan və müsbət nəticələr verən inflyasiya hədəfləməsi rejiminin tətbiqi və müsbət nəticələrin əldə oluna bilməsi üçün bəzi ön şərtlərin reallaşması lazımdır:

» Valyuta kurslarındakı və faiz dərəcələrindəki dəyişmələrə qarşı ölkə iqtisadiyyatında müqavimətliliyin olması;

» MB-nın tam müstəqil olması;

» Maliyyə bazarlarında sabitliyin olması və ikinci dərəcəli bazarların inkişaf etməsi;

» Aparılan monetar siyasətlə fiskal siyasət bir-birini tamamlamalı, dövlətin iqtisadi fəaliyyətlərində maliyyə intizamı məsələsi ön planda olmalıdır;

» Aparılan monetar siyasətlə bağlı ictimaiyyət məlumatlandırılmalı, ictimaiyyətin dəstəyi alınmalı (şəffaflıq prinsipi);

» İnflyasiya hədəfinin əvvəlcədən müəyyənləşdirilməsi.

MB inflyasiya hədəflərinə nail olunması istiqamətində hesabatlılıq prinsipi çərçivəsində hərəkət etməlidir.

İnflyasiyanın hədəflənməsi rejimi inflyasiya üzərində birbaşa nəzarəti mümkün edir və nəticədə tədricən ölkədə makroiqtisadi sabitlik yaranır. Bununla yanaşı, bu rejim aparılan monetar siyasətin birbaşa ölkədəki real iqtisadi vəziyyətə fokuslanmasına, şəffaf monetar siyasətin aparılmasına şərait yaradır və MB-ın hesabatlılıq prinsipi çərçivəsində fəaliyyətini artırır.

i.ü.f.d. Gəray Musayev



# DEFLYASİYA, STAQFLASİYA İNFLYASİYA və DEVALVASİYA

## +SƏBƏB və NƏTİCƏLƏR

**Deflasiya.** Deflasiya bir iqtisadiyyatda qiymətlərin ümumi səviyyəsinin azaldığı və ya mal və xidmət istehsalının azalmasına yol açan vəziyyətdədir. İnflyasiya müddətində qiymətlərin səviyyəsi yüksəlir və pul dəyərini itirir, əksinə, deflasiya dönəmində isə qiymətlər aşağı enər və bununla bağlı olaraq pul dəyər qazanar. Bu isə xalqın pula olan tələbinin artmasına, əksinə, mala olan tələbin azalmasına yol açar. Beləliklə, istehsalçılar məhsullarını satmaqda çətinlik çəkərlər. Ehtiyatlar artar. Nəticədə investisiya azalır və hətta durur. İstehsal faktorlarından bəzi bölmələri istifadəsiz hala çevrilir və işsizlik artar, işsizlik isə gəlirin azalmasına və nəticədə iqtisadiyyatda daralma (depressiya) davam edər. Buradan da anlaşılacağı kimi deflasiyaya yol açan ən önəmli faktorlardan biri də iqtisadiyyatdakı tələb yetərsizliyidir.

Bununla bərabər, deflasiyanın ən ciddi təhlükəsi işsizliyə səbəb olmasıdır. İstər inflyasiya, istərsə də deflasiya iqtisadiyyat üçün ağır xəstəlikdir.

**Staqflasiya.** Avropada ortaya çıxan 1969-1976-cı illər böhranı dönəmində inflyasiyanın təsiri ilə qiymətlər səviyyəsinin yüksəldiyi görülmüş, lakin bunun yanında inflyasiyanın bir nəticəsi olaraq iqtisadiyyatda bir canlılığın ortaya çıxmadığı, əksinə, bu durğunluq halının hökm sürdüyü ölkələrdə isə iş həcminin azaldığı və işsizliyin artdığı gözlənilmişdi. Bir ölkədə mal və xidmətlərin qiymətləri yüksələrkən, digər yandan da iş həcminin daralması indiyə qədər keçərli olan nəzəri bilgilərə görə bir-birinə zidd iki hadisə oldu.

**İnflyasiya.** İnflyasiya əmtəə və xidmətlərə tələbin ümumi təklifdən artıqlığı mühitində qiymətlərin artması və bunun da müqabilində pul vahidinin dəyərsizləşməsi prosesidir.

İnflyasiya dinamik bir prosesdir. Belə ki iqtisadi sahədə baş verən dəyişikliklər mütəmadi olaraq büdcənin tarazlığını pozur. Belə bir anda əlavə pul emissiyası büdcə xərcləri hesabına maliyyələşdirilən tədbirlər üçün ən asan vəsait mənbəyi olur. Bu proses öz növbəsində dövriyyədə olan pulun miqdarını artırır, qiymətlərin



### EKSPERT RƏYİ

Biz devalvasiya məsələsinə köklü yanaşmalıyıq, idxalın strukturunu öyrənməliyik və valyutaya tələb yaradan bəzi malların, məsələn, lüks avtomobillərin, yaxtaların, bahalı siqar və spirtli içkilərin ölkəyə gətirilməsini yüksək aksiz vergisi tətbiq etməklə azaltmalıyıq.

ümumi səviyyəsini yüksəldir, yəni inflyasiya proseslərini daha da gücləndirir və nəticədə büdcənin tarazlığı yenidən pozulur.

İnflyasiyanın meydana gəlmə səbəb və təzahür formaları fərqlidir.

Struktur inflyasiyanın təzahür formaları aşağıdakılarla özünü göstərir: əhalinin gündəlik istehlak mallarına tələbatı sürətlə artaraq genişlənməkdədir. Lakin bu fiziki tələbatı qarşılayacaq kənd təsərrüfatı və sənaye malları kifayət edən istehsal olunmursa, ölkədə qiymətlərin strukturu pozulmağa başlayacaq və inflyasiya baş verəcəkdir.

İnflyasiyanı törədən ən vacib struktur səbəblərindən biri də büdcə kəsirləridir. Büdcə kəsirləri və borclarının artması, bu borcları ödəmək üçün Mərkəzi Bankdan istifadə olunması və xərclərin istehsala yönəldilməməsi qısa müddətdə pula olan tələbi də artıracaqdır. Bazar iqtisadiyyatı şəraitində qiymət sahəsində mühüm struktur problemlərdən biri də inhisarçı müəssisələrin varlığıdır. İqtisadiyyatda o müəssisələr inhisarçı hesab olunur ki, hər hansı ərazidə müəyyən məhsulun tək istehsalçısı olur və bu ərazidə həmin məhsulu əvəz edə bilən digər məhsullar istehsal olunmur. Bununla da istehsalçı alıcılara malları istədiyi qiymətə sata bilər.

İnflyasiyanın əsasını təşkil edən digər bir səbəb də iqtisadi resursların ədalətli bir şəkildə paylanmaması və ya onlardan iqtisadiyyatda lazımi səviyyədə istifadə edilməməsidir.

Tələb inflyasiyası isə iqtisadiyyatdakı nominal gəlirin (pulla ifadəsi) o iqtisadiyyatdakı real gəlirdən (istehsal edilən mal və xidmətdən) daha çox olması halında görülən inflyasiya formasıdır. Tələb inflyasiyası iqtisadiyyatda məcmu təklifin sabit qalması şəraitində məcmi tələbin artmasından və ya istehsalın artım sürətinin tələbin artım sürətindən aşağı olmasından ortaya çıxır.

Çünki qiymət artımı istehsalı təşviq edir. İstehsalın təşviqi əmək haqqının səviyyəsini yüksəldir. Əmək haqlarının yüksəlməsi alıcılıq qabiliyyətini artırır. Beləliklə, mal və xidmət birjasında, həm də istehsal malları birjasında məcmu tələb artımı inflyasiyaya səbəb olur. Həmkarlar təşkilatının çox güclü olduğu iqtisadiyyatlarda, həmkarlar birliyinin təzyiqi ilə istehsalda gerçək bir produktivitə artımı olmadan yapılacaq əmək haqqı artımları da ölkədə nominal gəliri yüksəldəcəyindən inflyasiyaya yol aça biləcəkdir. Bu cür inflyasiyalara da əmək haqqından qaynaqlanan inflyasiya deməkdəyik. İnflyasiyaya yol açan səbəblərdən biri də xaricdən idxal edilən malların qiymətlərindəki artışlardır.

İnflyasiyaya yol açan səbəblərdən biri də istehsal xərclərinin yüksəlməsidir. Xərclər inflyasiyası malın maya dəyərində, yəni maddələrin birində və ya bir neçəsinin qiymətlərində (məsələn, xammal qiymətlərində) meydana gələn artımlar səbəbi ilə ortaya çıxmaqdadır. Maya dəyərində meydana gələn artımlar məhsul qiymətini artırır, bu da qiymətlərin yüksəlməsinə səbəb olur.

İnflyasiyanın əsas mənbəyindən Mərkəzi Bank tərəfindən tədavülə buraxılan əlavə pul kütləsidir. Eyni zamanda uzun müddətdə pul təklifindəki artımlar həm inflyasiyanı, həm də faiz dərəcələrini artırır.

Hazırda inflyasiyanın cilovlanması ona qarşı mübarizənin konkret yollarının və müvafiq alətlərin seçilməsi sahəsində toplanmış kifayət qədər dünya təcrübəsi, antiinflyasiya siyasətinin işlənib hazırlanmış nəzəri əsasları mövcuddur. Keynsçi təlim iqtisadi siyasətdə təsirli alət kimi iki vasitəni tövsiyə edir: işsizlik və durğunluq halında dövlət məsrəflərini artırmaq, inflyasiya sürətləndikdə isə bu xərcləri azaltmaq.

Monetaristlərə görə, inflyasiyanın səbəbi pul kütləsindəki artım olduğundan, yeganə çarəsi də onun artım nisbətini azaltmaqdır. Lakin onlara görə, inflyasiya onun qarşısının alınması yollarının bilinməməsindən deyil, bu tədbirləri həyata keçirəcək siyasi iradənin olmamasından irəli gəlir.

Antiinflyasiya tənzimlənməsinin vəzifələrindən biri də büdcə kəsirinin azaldılması və ləğv edilməsidir. Özəlləşdirilən müəssisələrin səhmlərinin satılması inflyasiya tələbinin müəyyən hissəsini azaldır. İrimiqyaslı özəlləşdirmə həyata keçirilmiş bütün ölkələrdə belə nəticə əldə edilmişdir.

İnflasiyanın idxalatı artırıcı, ixracatı azaldıcı yöndə təsir etməsi, ölkə iqtisadiyyatının xarici ticarət kəsiri verməsinə yol açar. Bu isə xarici ticarətin iqtisadiyyatdakı vacibliyinə görə, məcmu gerçək tələbi, dolayısilə inflyasiya təzyiqinə azaldıcı yöndə təsir edə bilər.

İnflyasiyanın sabit gəlirlər dediyimiz qruplara, yəni işçi və məmurların gəlir bölgüsünə mənfi təsiri şübhəsizdir. Bu qrupun gəliri qiymətlərin artımına ayaq

## >> təklif

İlk növbədə, Azərbaycanda valyutanın sabitliyinin təminatı üçün Valyuta Şurasının yaradılması vacibdir. Bütövlükdə valyuta və maliyyə təhlükəsizliyini təmin etmək üçün mövcud disproporsiyaları aradan qaldırmaq, ABŞ dollarına nisbətdə manatın mövqeyini möhkəmləndirmək lazımdır. Buna isə xammal və enerji daşıyıcıların qiymətindən asılı olmayaraq, yüksək texnoloji və elm tutumlu sənaye məhsullarının istehsalı və ixracının artırılması yolu ilə nail olmaq mümkündür.





## DEVALVASİYADAN SONRA İQTİSADİ UĞURU ƏLDƏ ETMƏK ÜÇÜN DAXİLİ QİYMƏTLƏRİN ARTIMINI DAYANDIRMAQ TƏMƏL ŞƏRTDİR.

uyduran qrupların gəlirlərinin əksinə azalar və satın alma gücü düşər. Bu isə sosial ədalətsizliyə yol açar. İnflyasiya şəxslərin yığım istəklərini yox edir. Pul gündən-günə dəyərini itirdiyinə görə kimsə pulunu saxlaya bilməz. Həmən pullarını mala yatırmaq istər. Bu isə tələbin şişməsindən təkrar qiymətlərin yüksəlməsinə yol açar. İnflyasiya olan ölkədə yapılacaq investisiyaların produktiv sahələrinə qoyulması yerinə, ən çox qısa müddətdə mənfəət gətirən sahələrə istiqamətləndirilməsinə yol açar və beləliklə, iqtisadiyyatda qaynaq bölgüsünün pozulmasına səbəb olur. İnflyasiya ölkənin xarici ticarətini də pozar. Valyuta kurslarının sabit olduğu bir durumda daxili qiymətlərin çox yüksəlməsi nəticəsində idxal ediləcək mallar daha da azalır. Bu isə valyutaya ehtiyacı olan ölkələr üçün ciddi problemlər yaradır. Bu prob-lemləri həll etmək üçün də devalvasiya edilir, yəni inflyasiya dönəmlərində faiz dərəcələri yüksəlir və real maaşlar azalır.

Pulun dəyəri (buna pulun satınalma gücü də deyə bilərik) pul vahidinin satın alacağı mal və xidmətlər cəmi ilə ölçülməkdədir. Məsələn, müəyyən bir pul miqdarı ilə (tutaq ki, 50 manat ilə) bir səbəti A, B, C, D, E, və F mallarını alaraq doldursaq və müəyyən bir müddət sonra bu səbəti yenə eyni mallarla doldurmaq üçün mal qiymətlərində meydana gələn artımlar səbəbi ilə 100 manat ödəmək lazım olacaqsa, bunun ortaya qoyduğu gerçək, bu müddət aralığında pulun 100% nisbətində bir dəyər itkisinə (satınalma gücü itkisinə) yol açmasıdır.

O halda ümumi qiymətlər səviyyəsi ilə pulun dəyəri arasında tərs yönlü bir ilişki vardır. Ümumiyyətlə, bir iqtisadiyyatda, ceteris paribus, yəni pul miqdarı artdığı təqdirdə qiymətlər səviyyəsi yüksələcək və dolayısı ilə pulun dəyəri düşəcəkdir. Əksinə bir iqtisadiyyatda pul miqdarı azalırsa qiymətlər səviyyəsi də düşəcək və pulun dəyəri yüksələcəkdir. Pulun daxili dəyəri yanında, xarici dəyəri də vardır.

**Devalvasiya.** Bir ölkənin Milli pulun dəyərinin təktərəfli bir qərarla xarici ölkə pullarına görə düşürməsinə devalvasiya deyilir. Məsələn, 1 Avro = 1 manat ikən, yapılan bir devalvasionla 1 Avro = 1,10 manat olaraq təsbit edilirsə, bu zaman manat Avro qarşısında 10% nisbətində dəyər itkisinə yol açmışdır mənasını verir. Devalvasiya sırasında yapılmasını gərəkdirən şərtlərin ən önəmlisi davamlı və xronikləşmiş xarici ticarət açıqlarıdır. Bir iqtisadiyyat əgər xaricə satdığından daha çox malı xaricdən alırsa, bu ölkənin xarici ticarəti açıq verir deməkdir. Xarici ticarət kəsiri olan ölkələrin hökumətləri devalvasyon etməklə ixracatı artırma, idxalatı isə azalma məqsədi daşıyır. Devalvasiyanı həyata keçirən ölkənin malları xarici ölkələr üçün ucuzlaşır, əksinə, xarici ölkənin malları isə bu ölkədə bahalaşır. Lakin devalvasyondan sonra iqtisadi uğuru əldə etmək üçün daxili qiymətlərin artımını dayandırmaq təməl şərtdir.

Bu gün Azərbaycanda Devalvasiya predmeti KİV-lərdə ən çox müzakirə mövzusudur. Manatın məzənnəsinə təsir edən ən başlıca amillər - neftin qiyməti, tədiyyə balansının vəziyyəti və tərəfdaş ölkələrin valyuta siyasətidir, yəni göründüyü kimi, məzənnəyə təsir edən başlıca amillər milli iqtisadiyyatdan kənarda formalaşır.

Məlumdur ki, milli pul vahidinin sabitliyi iqtisadi inkişafın əsas şərtidir. Təcrübə göstərir ki iqtisadi ədəbiyyatlarda qeyd olunduğu kimi, devalvasiya nəticəsində milli iqtisadiyyatın ixrac potensialının güclənməsi kimi hadisələr baş vermir.

Araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, milli pul vahidinin devalvasiyası və milli iqtisadiyyatın ixrac həcminin artması arasında statistik əlaqə yoxdur, o nədənlə birinci ikincinin artımına səbəb olmur.

Çünki istehsal məhsullarının maya dəyərinin böyük bir hissəsi xarici valyutadan asılı vəziyyətdədir.

Biz devalvasiya məsələsinə köklü yanaşmalıyıq, idxalın strukturunu öyrənməliyik və valyutaya tələb yaradan bəzi malların, məsələn, lüks avtomobillərin, yaxtaların, bahalı siqar və spirtli içkilərin ölkəyə gətirilməsini yüksək aksiz vergisi tətbiq etməklə azaltmalıyıq.

İlk növbədə, Azərbaycanda valyutanın sabitliyinin təminatı üçün Valyuta Şurasının yaradılması vacibdir. Bütövlükdə valyuta və maliyyə təhlükəsizliyini təmin etmək üçün mövcud disproporsiyaları aradan qaldırmaq, ABŞ dollarına nisbətdə manatın mövqeyini möhkəmləndirmək lazımdır. Buna isə xammal və enerji daşıyıcıların qiymətindən asılı olmayaraq, yüksək texnoloji və elm tutumlu sənaye məhsullarının istehsalı və ixracının artırılması yolu ilə nail olmaq mümkündür.

Odur ki Azərbaycan hökuməti və Mərkəzi Bank manatın məzənnəsi ilə bağlı məsələnin ciddiliyini nəzərə alaraq onun bu proseslərə tam hazırlanması üçün zəruri olan bütün addımları atır.

i.e.d., prof. Z.F.Məmmədov

# Tranzit daşımalar niyə artmır?

Son dövrdə ölkəmiz vasitəsilə Qərb-Şərq istiqamətində tranzit daşımalarda baş verən artım əsas etibarilə iqtisadi amillərdən daha çox siyasi amillərlə əlaqədardır. Məlumdur ki, Rusiyanın Türkiyə ilə siyasi problemləri sonuncunun bu ölkə vasitəsilə ixrac mallarının tranzitini mümkünsüz edib. Beləliklə, Türkiyənin ixrac mallarını Orta Asiyaya daşıyan ağır yük avtomobilləri Bakı limanının xidmətlərindən istifadə etməklə Azərbaycandan keçən marşrutu seçməyə məcbur olurlar.

Digər tərəfdən siyasi problemlər nəticəsində Rusiya ilə Ukrayna arasında sərhədlərin bağlanması Avropa-Orta Asiya istiqamətində göndərilən yüklərin istiqamətinin qismən şimal marşrutundan cənub marşrutuna doğru yönəldilməsinə gətirib çıxarıb.

Əlbəttə, bu cür artımı dayanıqlı artım kimi qəbul etmək olmaz, çünki onun əsasında iqtisadi komponent deyil, daha çox siyasi komponent dayanır. Hər halda daşımaların əsas axını Avropa ilə Çini əlaqələndirən marşrutun payına düşür. Bu ticarət tərəfdaşları arasında yük axını 100 milyon tona çatır və dayanıqlı artım nümayiş etdirir. Belə ki 2014-cü ildə artım 13 milyon ton və ya 15% təşkil edib.

İri Avrasiya dövlətləri və onların nəqliyyat müəssisələri arasında rəqabət təkcə iqtisadi deyil, həm də geoiqtisadi əhəmiyyətə malik olan məhz bu yük axını üstündə baş verir.

Daşımaların strukturunun təhlili göstərir ki, quru yollarla daşımalar üçün nəqliyyat infrastrukturuna yatırılan iri məbləğlər hər halda arzu edilən nəticəni vermir. Belə ki yük axınının 94%-i dəniz nəqliyyatının payına düşür, yəni yüklər Süveyş kanalı vasitəsilə cənub dəniz yolu ilə daşınır. Avtomobil və hava nəqliyyatının payı isə, müvafiq olaraq, 1,7%, və 3,3% təşkil edir. Daşımaların ən az qismi dəmiryol nəqliyyatının payına düşür – cəmi 0,5%. Asiya-Avropa-Asiya tranzit daşmalarına xidmət edən infrastruktura yatırılan investisiyaların böyük hissəsi məhz dəmiryol nəqliyyatının payına düşür. Daşınan malların dəyərini təhlil etsək, mənzərə yenə dəyişməyəcək. Burada dəniz nəqliyyatının payı 67%-dək azalır, hava və avtomobil nəqliyyatının payı isə artır və müvafiq olaraq, 26%-ə və 6,5%-ə çatır.

**Bəs nə baş verir?**

Təhlil göstərir ki, hələlik dəmiryol nəqliyyatının bazar üçün təklif edəcəyi bir şey yoxdur. O həm daşımanın qiymətləri, həm də tranzitin müddəti baxımından rəqiblərinə ciddi şəkildə uduzur. 20 futluq konteynerlərin Quanjoudan Dortmunda dəniz yolu ilə daşınması 3500 ABŞ dollarına başa gəldiyi halda, Quanjou-Bakı dəmiryol marşrutu ilə daşımanın dəyəri 3500 ABŞ dolları təşkil edir. Yolun Bakı-Dortmund hissəsində daşımanın dəyəri isə 2500 ABŞ dollarıdır. Ola bilər ki, quru yolla daşıma az vaxt aparsın, amma göründüyü kimi, bu halda vaxta qənaət yükdaşımanın qiymətinin az qala ikiqat artmasını kompensasiya etmir. Üstəlik, avtomobil nəqliyyatı ilə daşımanın sürəti dəmiryol nəqliyyatından xeyli yüksəkdir, həm bu nəqliyyat növü Şərq-Qərb istiqamətində olduqca cəlbedici daşıma qiymətləri təklif edilir. Məsələn, Almata-Dortmund marşrutu üzrə yükdaşımanın qiyməti 5000 ABŞ dollarından artıq deyil.

Lakin, avtomobil nəqliyyatı dəmiryol nəqliyyatının təklif etdiyi daşıma məhsuldarlığını təklif edə bilmir. Beləliklə, Avrasiya dəmiryol nəqliyyatı dəniz nəqliyyatının təklif etdiyi "qiymət – daşıma qabiliyyəti" kombinasiyası ilə avtomobil nəqliyyatının təklif etdiyi "qiymət – sürət" kombinasiyası arasındakı məngənədə sıxılmış halda qalır. Digər tərəfdən yükgöndərənlər daşıma məhsuldarlığı arasında böyük fərq ucbatından avtomobil nəqliyyatı ilə müqayisədə dəniz nəqliyyatına üstünlük verməyə məcburdurlar. Yekun olaraq bütün yük axınının istiqamətləndirici vektoru cənub dəniz yoluna yönəlmiş olur.

Dəmiryol infrastrukturunun aktivləşdirilməsi üçün daşımaların sürətinin avtomobil daşımalarının sürətinədək artırılması zəruridir. Tranzit ölkələrinin bunu etməyi bacarıb-bacarmayacaqlarını isə zaman göstərəcək.

i.ü.f.d. Anar Rzayev

# Valyuta məzənnəsi və ixrac potensialı

2008-Cİ İL QLOBAL İQTİSADİ BÖHRANI DÜNYA İQTİSADIYYATINDA KİFAYƏT QƏDƏR CİDDİ SİYASİ-İQTİSADİ HADİSƏLƏRLƏ YANAŞI İQTİSAD ELMİNİN FUNDAMENTAL MƏSƏLƏLƏRİNƏ YENİ YANAŞMA ZƏRURİLİYİNİ DƏ GÜNDƏMƏ GƏTİRMİŞ OLDU. ƏSLİNDƏ QLOBAL İQTİSADİ İNKİŞAF TRENDİ YÜKSƏLƏN XƏTLƏ İNKİŞAF ETSƏ DƏ AYRI-AYRI TARİXİ PERİODLARDA BU "XƏTT" ƏTRAFINDA MÜVAFİQ DALĞALANMALAR MÜŞAHİDƏ EDİLİR Kİ, BU DA İQTİSADİ HƏYATIN TƏBİƏTİNƏ XAS OLANDIR.




Heç şübhəsiz, belə dalğalanmalar şəraitində olduqca rasional makroiqtisadi qərarların verilməsi seçimdən ziyadə zərurətə çevrilmiş olur. Belə qərarlardan biri də valyuta məzənnəsi ilə ixrac potensialının səmərəli realizəsi arasındakı mümkün əlaqə və onun yarada biləcəyi nəticələr ilə bağlıdır.

Günümüz etibarilə bu bağlılıq Azərbaycan iqtisadiyyatı üçün də olduqca aktual əhəmiyyətə malikdir..

**QLOBAL İQTİSADİ MƏNZƏRƏNİ MÜŞAHİDƏ EDƏRƏK**

Belə qənaətə gələ bilərik ki, dünya iqtisadiyyatında J.Robinsonun 1930-cu illərdə analoji situasiyanı izah edərkən istifadə etdiyi "məzənnə müharibələri" yeni mərhələyə qədəm qoymuş və nəticə etibarilə daha kəskin izlər buraxmaqdadır. Bəs bunun səbəbləri nədir? Əslində, nə baş verir qlobal iqtisadi məkanda? və bu qəbildən olan sualları cavablandırmaq üçün aşağıdakı tezislərə diqqət yetirməmiz gərəkir:

Durğunluq (iqtisadi), demək olar ki, qlobal miqyasda davam edir;

Dünya enerji daşıyıcıları bazarında ciddi dəyişikliklər müşahidə olunur (istər texnaloji, istərsə də iqtisadi və siyasi kontekstdə);

İşsizliyin artım tendensiyası heç bir vəchlə enməməkdədir;

Maliyyə-pul genişlənməsi yetərli deyil (milli iqtisadiyyatlara "isti pullar" lazımdır);

Qlobal miqyasda dollarlaşma prosesi gedir və neft ixrac edən ölkələr üçün sanki "domino effekti" yaratmışdır (Səudiyyə, Rusiya, Qazaxıstan və s.).

Valyuta daxilolmaları problemi yaşayan ölkələr üçün ixracın diversifikasiyası və yeni məhsul/bazar arayışları təşviqi strategiyalarının hazırlanması zərurəti;

Qlobal ticarətdə artım müşahidə edilmir (dünya iqtisadiyyatında 3%-lik artım müşahidə edildiyi halda, dünya ticarəti 3%-lik artımın

aşağısında performans göstərməkdədir.)

Dayanıqlı artım və məşğulluq üçün mövcud makroiqtisadi siyasətlər yetərli deyil, yeni paradiqmaların yaranması zərurəti meydana gəlib və s.

**SONUNCU TEZİSDƏN ÇIXIŞ EDƏRƏK**

Qeyd etməliyik ki, cəmiyyətdə ictimai münasibətlərin böyük bir hissəsi məhz iqtisadi münasibətlərdən qaynaqlanır. İqtisadi münasibətlərin başvermə səbəbi isə, heç şubhəsiz, sonsuz tələblər və məhdud resurslarla bağlıdır ki, bu da tarix boyu insanların daima üzərində mühakimələr yürütdükləri fundamental iqtisadi problemdir. Bu problem ailə iqtisadiyyatlarını düşündürməklə yanaşı, milli iqtisadiyyatlar üçün də aktual əhəmiyyət kəsb edir.

Belə ki istehsal amillərinin dünya ölkələri arasında qeyri - bərabər bölgüsu ölkələrarası iqtisadi münasibətlərin dərinləşməsinə səbəb olmaqla qlobal ticarət münasibətlərini, qarşılıqlı asılılıqları və bu qəbildən olan digər prosesləri təşviq etmiş olur.

Ölkələrin müvafiq iqtisadi inkişaf periodlarında, xarici ticarətin ÜDM-dəki, payının daha qabarıq bir faktor halına gəlməsi və nəticə etibarilə ayrı-ayrı milli iqtisadiyyatların xarici ticarət həcmlərini artırmaya yönəlik niyyətlərini müşahidə etmək artıq klassik iqtisadi müşahidələrdən sayılır.

Hal-hazırda, qlobal ticarət sistemində sərhədlərin aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər, ölkələrin xarici ticarət disbalanslarından qaynaqlanan problemlərin yeni müstəviyə keçməsi və valyuta məzənnəsinin bu müstəvidə ölkələrin xarici rəqabət güclərini müəyyənləşdirən əsas iqtisadi alətə çevrilməsinə səbəb olmuşdur.

Məhz bu səbəbdəndir ki, iqtisadi subyektlər (mikro və yaxud makro səviyyə) qərarvermə zamanı əsas parametrlərdən (dəyişənlərdən) biri kimi valyuta məzənnələrini diqqət mərkəzində saxlayırlar.

**NƏZƏRİ İQTİSAD BİZƏ DEMƏYƏ İMKAN VERİR Kİ...**

Hər hansı bir ölkənin xarici ticarət əlaqələrinə (ixrac və idxalına) bir çox amil təsir göstərir ki, bunlardan biri artıq yuxarıda qeyd etdiyimiz kimi, valyuta məzənnəsidir. Məzənnə ilə yanaşı, ixrac və idxal mal/xidmətlərinin qiymət elastikliyi və digər amillər də (geosiyasi) olduqca əhəmiyyətlidir. Əgər məzənnənin tək təsir göstərən amil olduğunu fərz edərək təhlil aparsaq, ixrac və idxalın normal təklif və tələb münasibətindən elə də ciddi bir fərqin olmadığını müşahidə edə bilərik. Konkret nümunə əsasında izah etsək, Sxem 1-də şaquli ox üzrə AZN manatı ilə ABŞ dolları arasındakı məzənnə, üfiqi ox istiqamətində isə Azərbaycan ilə ABŞ arasındakı ixrac və idxalın miqdarı göstərilmişdir. Azərbaycanın ixracatını göstərən əyri soldan sağa doğru yüksələn bir trenddədir.

Çünki AZN manatı/ABŞ dollarına qarşı dəyər itirdikcə ixracatdan əldə ediləcək AZN manatının miqdarı artmaqdadır. Məsələn, C nöqtəsində 0.8 AZN manatlıq ixraca qarşılıq 1 ABŞ dolları, E nöqtəsindəki 1 AZN manatlıq ixraca qarşılıq isə 1 ABŞ dolları əldə edilərkən, B nöqtəsində 1 AZN manatlıq ixraca qarşılıq 1.20 ABŞ dolları əldə edilməkdədir. Azərbaycanın idxalatını göstərən əyri isə soldan sağa doğru azalan bir trend içərisindədir. Çünki AZN manatı/ABŞ dollarına qarşı dəyər qazandıqca idxal edilən ABŞ mal/xidmətləri daha ucuza başa gələcəkdir. Məsələn, A nöqtəsində 1 AZN manatlıq mal idxalı üçün 1.20 ABŞ dolları ödəmə edilərkən, B nöqtəsində 1 AZN manatlıq idxala qarşılıq olaraq 1.20 ABŞ dolları, D nöqtəsində isə 0.8 ABŞ dolları ödənilməkdədir.

Bütün bu qeyd etdiklərimizi ümumiləşdirərək qeyd edə bilərik ki, milli valyuta vahidi xarici valyutaya qarşı dəyər itirdiyi zaman ixracın artdığı müşahidə edildiyi halda, idxal azalacaq, əksinə, milli valyuta xarici valyutaya qarşı dəyər qazandığında isə ixracat azalarkən idxal artacaqdır.

Bununla yanaşı nəzəri baxışlardan biri kimi devalvasiya nəticəsində məzənnə ilə xarici ticarət arasındakı əlaqəni özündə əks etdirən bir sıra hipotezlər mövcuddur ki, onlar da nəzəri iqtisadda "J" əyrisi kimi düşmüşdür.

"J" əyrisi hipotezi – milli valyutanın dəyərində müşahidə olunan dəyişikliklər ilə xarici ticarət tarazlığı arasındakı münasibətin dinamik bir formada izahından qaynaqlanmışdır. Hipotezə görə, milli valyutada meydana gələn real dəyişmələr ilə xarici ticarət tarazlığı arasındakı əlaqə qısamüddətli dövrdə pozitiv, uzunmüddətli dövrdə isə neqativ olacaqdır. Başqa cür ifadə etsək, "J" əyrisi hipotezi qısamüddətli dövrdə gəlir effektinin, uzunmüddətli dövrdə isə qiymət effektinin təsiri altındadır. Dolayısilə devalvasiyanın, ticarət tarazlığı üzərindəki təsiri, qiymət və miqdar biçimində olmaqla iki şəkildə meydana gələr. Belə ki nominal valyuta kursunun dəyər qazanması ixracatın daha ucuz, idxalın isə daha bahalı olmasına səbəb olmuş olur. Bu situasiya öncəliklə qiymət təsirinin




**Sxem 1.**




**"J" əyrisi hipotezi qrafiki**





meydana gəlməsinə, davamında isə miqdar təsirinə yol açmış olacaqdır. Konkret olaraq qiymət təsiri, miqdar təsirindən daha sürətli şəkildə formalaşır. Yəni qısamüddətli dövrdə ticarətin həcmi ixracın əleyhinə olaraq mənfi tendensiyada şəkillənir. Bu aşağıdakı qrafikdən daha anlaşıqlı müşahidə edilir. İqtisadi ədəbiyyatlarda qısa müddətli fenomen olaraq qəbul edilən bu prosesə "J" əyrisi adı verilmişdir.

"J" əyrisi hipotezi real valyuta məzənnələrinin ticarət tarazlığına olan təsirlərini açıqlayan xüsusi bir modeldir. Hipotezə görə, məzənnə dəyişmələrindəki real bir itki, başlanğıcda ticarət tarazlığını pisləşdirər (neqativ təsir göstərər). Ancaq müəyyən zaman intervalında yaxşılaşar (pozitiv təsir göstərər). Xarici tarazlığı saxlamaq üçün reallaşdırılan devalvasiya prosesinin nəzərdə tutulan effekti alması üçün zaqarşısında dəyər itirərsə, ixrac potensialımızn reallaşdırması daha rentabelli olacaq! Əslində, ilkin baxışdan qulağa xoş gəlsə də, bu belədirmi hər zaman? Bəli, uzunmüddətli dövrdə bu belə olacaqdır. Ancaq qeyd etməliyik ki, iqtisadi qanunauyğunluqlar digər amillərində effekt yarada biləcəyi halda proqnozlaşdırıla bilinən olur. Azərbaycan Respublikasında müşahidə edilən valyuta siyasəti məhz iqtisadi artımı təmin etməyə fokuslanmaqla yanaşı, iqtisadi böhranın mümkün təsirlərini minimizə etməyə köklənmişdir. Əgər məzənnə siyasətinə diqqət yetirsək, görərik ki, ikivalyutalı səbət mexanizminə (ABŞ dolları və Avro) əsalanmaqla situasiya nisbətən yumşaldılmağa doğru gedir.

Ölkəyə valyuta axınının azaldığı bir dövrdə ixrac siyasəti və ölkənin ixrac potensialının effektiv real-



manlama (tətbiq) olduqca vacibdir. Nümunə olaraq bu zamanlamadan biri kimi istehlak ilə istehsal arasındakı əlaqənin pozulduğu və ya pozulmağa başladığı zamanı göstərə bilərik. Xüsusilə qeyd etməliyik ki, ixracatdakı inkişaf trendi dinamik olmadığı üçün "yaxşılaşma" dərhal müşahidə edilməyəcəkdir. Yəni tətbiq edilən siyasət öz effektlərini dərhal göstərməyə bilər, bir müddət "J" əyrisinin altında qala bilər.

**PRAKTİK İQTİSAD BİZƏ NƏ DEMƏYƏ İMKAN VERİR?**

Hətta Nobel mükafatı sahibi Pol Kruqman belə iqtisadçıların Böyük depressiya dövründən sonra iqtisadi prosesləri riyazi modelləmə vasitəsilə izah etmələrinin cəzbedici olduğunu, ancaq proseslərin nəticəsini analiz edərkən (yanlışlıqların müşahidə edildiyini görərək) bu tələyə düşməməyi arzu edir. Deməli biz yuxarıdakı nəzəri yanaşmadan belə bir qənaətə gələ bilərik ki, milli valyuta xarici valyuta laşdırılması məsələləri gündəmə gəlmiş olur. Belə ki bu situasiyanı izah etmək üçün iki alt situasiyanı dəyərləndirək. Bunlardan birincisi, Azərbaycanın ixracatında yer alan başlıca ölkələr aşağıdakılardan ibarətdir (bax şəkil 3.)

Bu ölkələrin böyük əksəriyyəti qlobal iqtisadi böhranın təsiri altındadır (ABŞ və Hindistan istisna olmaqla). Təbii olaraq iqtisadi artım templəri azalıb və dolayı olaraq idxallarında da eniş müşahidə olunacaqdır. Rusiya Federasiyası iqtisadi embarqo və devalvasiyanın yaratdığı neqativ situasiyadadır. İkinci alt situasiya kimi isə Azərbaycanın ixracının strukturu monoton (neft və qaz ümumi ixracın 92%-ni təşkil edir) olduğu üçün, dünya enerji daşıyıcıları bazarının "ucuz qiymətlər" dövrünə girməsi və regionda hərbi-siyasi münaqişələr fonunda tamamilə yeni xarici ticarət strategiyası zərurətə çevrilir.

Seymur C. Əliyev

# İnvestisiya məqsədli vergi krediti

İnvestisiya məqsədli vergi kreditinin tədbiqi, innovasiyalı və ixracyönümlü istehsalı stimullaşdıra bilər.

Müəssisə və təşkilatlara verilən vergi güzəştlərinin bir forması da vergi kreditidir. Vergi krediti – vergilərin ödənilməsinə, vergi ili ərzində müəyyən müddətə dəyişdirilməsinə icazə verən hüquqdur. Vergi kreditinin möhlət və müddətli möhlət hüququ ilə oxşar cəhətləri çox olsa da, onların fərqli tərəfləri də mövcuddur. Vergi kreditini əldə etmək proseduru mürəkkəbdir, onun alınması üçün zəruri girov təminatı tələb olunur. Vergi krediti daha uzun müddətə, bir çox hallarda isə illik verilir.

Vergi kreditinin daha çox tətbiq olunan növü investisiya məqsədli vergi kreditidir. İnvestisiya məqsədli vergi kreditinin başlıca fərqləndirici cəhəti onun daha uzun müddətə (1-5 ilə) verilməsidir. İnvestisiya məqsədli vergi kreditlərinin verilməsinin əsasları əvvəlki möhlət hüququndan çox fərqlənir. Bu, müəssisəyə müəyyən edilmiş müddət və hədlər daxilində dövlət büdcəsinə ödəniləcək vergilərin və ödənişlərin azaldılmasına icazə hüququdur. Onun verilmə əsasları tamamilə fərqlidir. Məsələn, müəssisə region üçün mühüm əhəmiyyət kəsb edən sifarişi yerinə yetirir. Yaxud müəssisə yeni texnologiya almış və bu texnologiya ətraf mühitdə tullantıların azaldılmasına kömək edəcək, ya əlillər üçün yeni iş yerləri açacaq, ya da müəssisəyə təcrübə-konstruksiya işləri aparmağa imkan verəcək və nəhayət, ixracyönümlü istehsalı stimullaşdırılmasına xidmət edəcək. Bu halda dövlət müəssisəyə investisiya məqsədlərinə xidmət edən vergi kreditini almağa icazə verir.

Misal üçün, Ukraynada təhsil, müalicə, ipoteka kreditlərinə edilən xərclərə bu növ vergi krediti tətbiq olunur. Kanadada Elmi Tədqiqat və təcrübə, İsveçdə isə ixracyönümlü istehsal sahələrinə həmin növ vergi krediti tətbiq edilir. ABŞ-da investisiyalı vergi krediti deyəndə sürətli amartizasiya başa düşülür.

Bildiyiniz kimi, Azərbaycan Respublikasının vergi qanunvericiliyində vergi öhdəliklərinin yerinə yetirilmə müddətlərinin dəyişdirilməsi ilə bağlı müddəalar mövcuddur. ARVM-nin 85-ci maddəsi iki halda ödəmə müddətinin dəyişdirilməsinə imkan verir. Bunlardan birincisi, təbii fəlakət və ya digər qarşısıalınmaz qüvvə nəticəsində vergi ödəyicisinə zərər dəydikdə (maddə 85.6.1), ikincisi, vergini bir dəfəyə ödədiyi təqdirdə iflasa uğramaq təhlükəsi olduqda (maddə 85.6.2) vergi orqanları ödəyiciyə vergilərini ödəməyi, vergi ili ərzində 1 aydan 9 aya qədər müddətdə ləngitməyə icazə verir. Bu hallar üzrə vergi ödəyicisinə faiz hesablanmır. Bu güzəşt Azərbaycan qanunvericiliyində möhlət hüququnun yeganə forması kimi çıxış edir. İnkişaf etmiş ölkələrdə isə qeyd etdiyimiz güzəştdən başqa, müddətli möhlət hüququ, vergi kreditləri, investisiya məqsədli vergi kreditləri kimi formalardan istifadə edilir.

Lakin həm inkişaf etmiş ölkələrin, həm də inkişafda olan dövlətlərin əksəriyyəti investisiyalı vergi kreditindən geniş istifadə edirlər.

Müasir inkişaf mərhələsində investisiyalı vergi kreditinin tətbiqi, ölkədə investiya mühitinin yaxşılaşdırılmasına, müasir texnologiyaların tətbiqinə, istehsal fondlarının yenilənməsinə, rəqabət qabiliyyətli istehsalın və xidmətlərin göstərilməsinə şərait yaradır.

i.ü.f.d. Emin Qəribli

# Ticarət iqtisadiyyatın indikatoru kimi

MÜSTƏQİLLİK QAZANANDAN SONRA AZƏRBAYCANIN İQTİSADİ HƏYATINDA TİCARƏT SAHƏSİ ƏN İNTENSİV İNKİŞAFA MALİK OLAN SAHƏLƏRİNDƏN BİRİ OLMUŞDUR. 2014-CÜ İLİN STATİSTİK MƏLUMATLARINA GÖRƏ TİCARƏT SAHƏSİ ÜZRƏ ƏLAVƏ DƏYƏRİN ÜDM-Ə GÖRƏ XÜSUSİ ÇƏKİSİ RESPUBLİKA ÜZRƏ 7.9 FAİZ TƏŞKİL ETMİŞDİR.

Ticarət bütün iqtisadi qurumlarda özünəməxsus yerə malik olmaqla yanaşı, mühüm iqtisadi əhəmiyyətə malik olan xalq təsərrüfatı sahələrindən biridir. Ticarətin hər bir ölkənin həyatında rolu çox böyükdür. Həm daxili, həm də beynəlxalq ticarət olmadan ölkənin hər hansı bir inkişafından danışmağa dəyməz. Belə bir bəsit ifadə var: "Əgər inkişaf etmək istəyirsənsə, ticarət etməyi öyrən". Amma bu ifadə nə qədər bəsit olsa da, bir o qədər də dərin mahiyyətə malikdir. Həqiqətən də, inkişaf etmiş ticarət sahəsi, ixtisaslı ticarət kadrları olmayan ölkənin heç bir iqtisadi inkişafından mülahizə yürütmək belə mümkün deyildir. Ölkədə sosial əmin-amanlığın bərqərar olmasında ticarətin yeri və rolu əvəzolunmazdır. Təkcə onu qeyd eləmək kifayətdir ki, müstəqillik qazanandan sonra Azərbaycanın iqtisadi həyatında ticarət sahəsi ən intensiv inkişafa malik olan sahələrindən biri olmuşdur. 2014-cü ilin statistik məlumatlarına görə ticarət sahəsi üzrə əlavə dəyərin ÜDM-ə görə xüsusi çəkisi respublika üzrə 7.9 faiz təşkil etmişdir. Bundan əlavə bu sahədə məşğul olan əhalinin sayı (nəqliyyat vasitələrinin təmiri ilə məşğul olanların sayını da əlavə etməklə) 682 min nəfər olmuşdur ki, bu da iqtisadiyyatın bütün sahələri üzrə məşğul olan əhalinin, demək olar ki, 15%-ni əhatə edir. Ticarət sahəsində muzdla işləyənlərin sayı 284 min nəfərdən artıq olmuşdur ki, bu da bütün ölkə üzrə ümumi göstəricinin 19 faizini özündə cəmləşdirir.

XXI əsrdə ticarətin rolu, coğrafiyası daha da genişlənmiş, qloballaş-



## PƏRAKƏNDƏ TİCARƏT VƏ YEYİNTİ SƏNAYESİNİN SERVİS SEKTORUNUN ŞİRKƏTLƏRİNİN ƏSAS KATEQORİYALARI

**PƏRAKƏNDƏ TİCARƏT VƏ YEYİNTİ SƏNAYESİNİN SERVİS SEKTORUNDA MƏŞĞUL OLAN ŞİRKƏTLƏRİN ÜMUMİ SATIŞI**

**AVTOMOBİLLƏR VƏ ONLARA EHTİYAT HİSSƏLƏRİ İLƏ MƏŞĞUL OLAN DİLERLƏR**

Avtomobillərlə məşğul olan dilerlər, Avtomobil ehtiyat hissələrini, onların aksessuarlarını və avtoşinləri satan mağazalar

**MEBEL, ELEKTRONİKA VƏ MƏİŞƏT TEXNİKASI**

Mebel mağazaları, Elektronika və məişət

## STATİSTİKA

2014-cü ilin statistik məlumatlarına görə, ticarət sahəsi üzrə əlavə dəyərin ÜDM-ə görə xüsusi çəkisi respublika üzrə 7.9% təşkil etmişdir. Bundan əlavə bu sahədə məşğul əhalinin sayı (nəqliyyat vasitələrinin təmiri ilə məşğul olanların sayını da əlavə etməklə) 682 min nəfər olmuşdur ki, bu da iqtisadiyyatın bütün sahələri üzrə məşğul əhalinin, demək olar ki, 15%-ni əhatə edir. Ticarət sahəsində muzdla işləyənlərin sayı 284 min nəfərdən artıq olmuşdur ki, bu da bütün ölkə üzrə ümumi göstəricinin 19%-ni özündə cəmləşdirir.

texnikası mağazaları, kompüter və proqram təminatı mağazaları

**İNŞAAT MATERİALLARI, BAĞ AVADANLIQLARI VƏ EHTİYATLAR**

İnşaat materialları və ehtiyatları dilerləri

**QİDA MƏHSULLARI VƏ İÇKİLƏR MAĞAZALARI**

Baqqaliyyə mağazaları, Şərab mağazaları

**APTEKLƏR VƏ GİGİYENİK MALLARIN SATIŞI MAĞAZALARI**

Apteklər və gigiyenik malların satışı mağazaları

**YANACAQ DOLDURMA STANSİYALARI**

**GEYİM VƏ AKSESSUARLAR**

Geyim, Kişi geyimləri mağazaları, Qadın geyimləri mağazaları, Ayaqqabı mağazaları, Zərgərlik mağazaları

**İDMAN MALLARI, HOBBİ ÜÇÜN, KİTAB VƏ MUSİQİ MAĞAZALARI**

**ÜMUMİ TƏYİNATLI MALLAR MAĞAZALARI**

Universal mağazalar (icarəyə götürülmüş şöbələr istisna olmaqla)

Ümumi təyinatlı digər mağazalar, Anbar tipli mağazalar və supermarketlər, Ümumi təyinatlı bütün digər mağazalar

**PƏRAKƏNDƏ TİCARƏTİN DİGƏR MAĞAZALARI**

**MAĞAZADANKƏNAR YERLƏŞDİRİLMİŞ PƏRAKƏNDƏ SATICILAR**

Elektron ticarət mağazaları və "mallar-poçtla" mağazaları, Yanacaq dilerləri

**İCTİMAİ İAŞƏ MÜƏSSİSƏLƏRİ**




>> ardı

**İNFORMASİYA TEXNOLOGİYALARININ SIÇRAYIŞLI İNKİŞAFI ELEKTRON TİCARƏT SAHƏSİNDƏ İNQİLABİ DƏYİŞİKLİKLƏRƏ GƏTİRİB ÇIXARMIŞDIR. ARTIQ TİCARƏT, HƏQİQƏTƏN QLOBAL BİR HALA ÇEVRİLMİŞDİR.**

ma amilləri bu sahənin inkişafına öz təsirini göstərməkdədir. İnformasiya texnologiyalarının sıçrayışlı inkişafı elektron ticarət sahəsində inqilabi dəyişikliklərə gətirib çıxarmışdır. Artıq ticarət, həqiqətən, qlobal bir hala çevrilmişdir.

İnkişaf etmiş xarici ölkələrdə ölkə iqtisadiyyatının vəziyyətinin öyrənilməsində çoxlu sayda iqtisadi indikatorlardan, daha ümumi ÜDM-dən və indekslər sistemindən (qabaqlayıcı, gecikən indikatorlar və s.) başlamış, iqtisadiyyatın konkret aspektləri və yaxud seqmentləri (məsələn, istehlak qiymətləri, istehsal, mənzil tikintisi) ilə bağlı olan indikatorlardan istifadə olunur və bunlarsız iqtisadi artımı proqnozlaşdırmaq mümkün deyildir. Bu cür indikatorlardan biri də pərakəndə ticarətlə bağlı olan iqtisadi göstəricilər sistemidir. Bu isə o deməkdir ki, ölkənin iqtisadi inkişaf iqlimini, ona investisiya qoyuluşları perspektivlərini ticarətin inkişaf göstəricilərini dərindən təhlil etmədən və onlardan birbaşa istifadə etmədən planlaşdırmaq qeyri-mümkündür.

Dünyanın ən güclü və nəhəng iqtisadiyyatına malik olan ABŞ-ın iqtisadi indikatorları arasında ölkənin Ticarət Nazirliyinin Uçot Bürosunun hazırladığı pərakəndə ticarətdə və yeyinti sənayesinin servis sektorunda satışlar üzrə aylıq avans hesabatı (Advance Monthly Sales for Trade and Food Services report) xüsusi yerlərdən birini tutur. Hesabat, bir qayda olaraq, hesabat ayı başa çatdıqdan təxminən iki həftə sonra səhər 8.30-da buraxılır. Pərakəndə ticarət sektorunda dollar ekvivalentində satışların nominal ölçülərinin (inflyasiyaya görə dəqiqləşdirmə aparmadan) ilkin qiymətləndirilməsini, həmçinin bu ölçünün aylıq dəyişkənliyini əks etdirən bu hesabat Uçot Bürosunun veb-səhifəsində yerləşdirilmişdir, www.cencus.gov/svsd/www/fullpub.html. Bu nəşrləri iqtisadçılar və bazarın araşdırıcı analitikləri səbirsizliklə və həm də təşviş hissi ilə gözləyirlər, çünki onlar bəzən maliyyə bazarlarında ciddi qalmaqalların səbəbkarı olmuşlar.

Pərakəndə satış üzrə hesabata olan yüksək marağın səbəbi ondan ibarətdir ki, pərakəndə ticarətdə çəkilən xərclər ÜDM-in ən böyük tərkib hissəsi olan şəxsi istehlaka çəkilən xərclərin həm məcmu halında, həm də bir neçə sahələr və sektorlar nisbətində görünüşünü təzahür etdirirlər. Bundan əlavə, bu göstəricilər Amerikanın İqtisadi təhlillər üzrə Bürosunun şəxsi gəlirlər və xərclər üzrə aylıq hesabatının, yəni ÜDM üzrə hesabata daxil edilən istehlak xərcləri üzrə statistik məlumatların mənbəyinin dərc olunmasına təqribən iki həftə qalmış üzə çıxır. Baxmayaraq ki, pərakəndə satışlar üzrə hesabat şəxsi gəlirlər və xərclər üzrə hesabata nisbətən daha dar göstəricilər səpkisini, spektrini əhatə edir, o, ölkənin iqtisadi vəziyyətinin cari və gələcək vəziyyətinin ən yaxşı göstəricisi sayılır.

Təəccüblü deyildir ki, bu göstərici maliyyə bazarlarına əhəmiyyətli dərəcədə təsir göstərir. Səhmlər, ümumi pərakəndə satışların artımı zamanı özlərinin müsbət münasibətlərini bildirirlər ki, bu da bir qayda olaraq, korporativ gəlirlərin artımını şərtləndirir. Lakin satışların daha yüksək artımı qiymətlərin qalxmasından da irəli gələ bilər. İnflyasiya əsas ödənişlərin və sabit gəlirli kuponların dəyərini aşağı saldığı üçün iri göstəricilər istiqrazların qiymətlərini aşağı salır və onların mənfəətliliyini qaldırır. Pərakəndə satışların fəallığının zəifləməsi,

<<

**ÜMUMİ PƏRAKƏNDƏ SATIŞLARIN ARTIMI ZAMANI ÖZLƏRİNİN MÜSBƏT MÜNASİBƏTLƏRİNİ BİLDİRİRLƏR Kİ, BU DA BİR QAYDA OLARAQ, KORPORATİV GƏLİRLƏRİN ARTIMINI ŞƏRTLƏNDİRİR.**

## GÖSTƏRİCİLƏRİN TƏSİRİ

Ümumi pərakəndə satışların göstəriciləri bazar üçün əhəmiyyət kəsb edirsə, hesabatın ayrı-ayrı tərkib hissələrinin göstəriciləri müvafiq sektorlarda bazarın və hətta ayrı-ayrı səhmlərin hərəkətini dəyişə bilər. Məsələn, elektronika və məişət texnikası mağazalarında pərakəndə satışın əhəmiyyətli artımı bir sıra firmaların səhmlərini qaldıra bilər, digər tərəfdən isə geyim və aksesuarlar mağazalarına satışın aşağı göstəriciləri bu sahədəki ticarət şəbəkələrinin səhmlərini ciddi şəkildə silkələyə bilər.

digər tərəfdən, mənfəətin daxil olmasını və inflyasiyanın təzyiqini zəiflədir. Bu zaman isə səhmlərin qiymətləri kəskin olaraq aşağı düşür, onların mənfəətliliyi azalır.

Digər tərəfdən isə ümumi pərakəndə satışların göstəriciləri bazar üçün əhəmiyyət kəsb edirsə, hesabatın ayrı-ayrı tərkib hissələrinin göstəriciləri müvafiq sektorlarda bazarın və hətta ayrı-ayrı səhmlərin hərəkətini dəyişə bilər. Məsələn, elektronika və məişət texnikası mağazalarında pərakəndə satışın əhəmiyyətli artımı bir sıra firmaların səhmlərini qaldıra bilər, digər tərəfdən isə geyim və aksesuarlar mağazalarına satışın aşağı göstəriciləri bu sahədəki ticarət şəbəkələrinin səhmlərini ciddi şəkildə silkələyə bilər.

məlumatlarda birləşdirir. O, həmçinin kateqoriya və subkateqoriyalardan istifadə etməklə biznesin tipinə görə bir sıra göstəriciləri iki altqrupa ayırır: ümumi satışlar (avtomobillərin və onlara ehtiyat hissələrinin satışı istisna olunmaqla) və GAFO (General Merchandise, Apparel and Accessories, Furniture and other Sales, retail sales categories – bu, "müxtəlif cür mallar, geyim, mebel və s." ifadəsinin akronimidir). Hesabat aparılmış tədqiqatın qısa xülasəsindən (rezümedən) və bir sıra qrafik və cədvəllərdən ibarətdir. Ümumi satışlarla yanaşı, bütün kateqoriyalar, subkateqoriyalar və altqruplar üzrə aylıq avans hesabatı, keçən ay üzrə ilkin rəqəmlər və ondan əvvəlki ay üzrə isə son göstəricilər təqdim olunur.

dos. M.Q.Əkbərov

## PƏRAKƏNDƏ SATIŞLAR ÜZRƏ MƏLUMATLAR BÜROSU

Büro 1950-ci ildə toplamağa başlamışdır. İlk aylıq hesabat 1952-ci ildə nəşr olunmuşdur ki, burada 1951-ci ilin yanvarından pərakəndə ticarət mağazaları üzrə satışların qiymətləndirilməsi öz əksini tapmışdı. 1997-ci ilin ortalarında Büro məlumatların toplanması prosedurasını dəyişdirmiş və hər ay 13000 şirkətdən məlumatların alınması sistemini müəyyən etmişdir.

Pərakəndə satışlar üzrə məlumatları Büro 1950-ci ildə toplamağa başlamışdır. İlk aylıq hesabat 1952-ci ildə nəşr olunmuşdur ki, burada 1951-ci ilin yanvarından pərakəndə ticarət mağazaları üzrə satışların qiymətləndirilməsi öz əksini tapmışdı. 1997-ci ilin ortalarında Büro məlumatların toplanması prosedurasını dəyişdirmiş və hər ay 13000 şirkətdən məlumatların alınması sistemini müəyyən etmişdir.

Hazırda Uçot Bürosu pərakəndə ticarət və yeyinti sənayesinin servis sektorunda satışlar üzrə aylıq Avans hesabatını hesabat ayının başa çatmasına 5 gün qalmış 5000 şirkətə göndərilən anketin suallarına cavabdan tərtib edir. Həmin şirkətlər 13000 şirkətin sorğulanan altqruplarına daxildirlər. Tədqiq olunan iştirakçıların – bütün şirkətlərin əsas biznesi şəxsi satış və təsərrüfatda istifadə üçün nəzərdə tutulan malların satışıdır. Alınan cavablar çaki üzrə attestasiya olunurlar ki, ABŞ-ın pərakəndə ticarətində və yeyinti sənayesinin servis sektorunda məşğul olan 3 milyon şirkət haqqında dəqiq təsəvvür yaradıla bilinsin.

Büro sorğu zamanı əldə olunan məlumatları aylıq satışlar üzrə ümumi

## >> önəmli

**PƏRAKƏNDƏ SATIŞ ÜZRƏ HESABATA OLAN YÜKSƏK MARAĞIN SƏBƏBİ ONDAN İBARƏTDİR Kİ, PƏRAKƏNDƏ TİCARƏTDƏ ÇƏKİLƏN XƏRCLƏR ÜDM-IN ƏN BÖYÜK TƏRKİB HİSSƏSİ OLAN ŞƏXSİ İSTEHLAKA ÇƏKİLƏN XƏRCLƏRİN HƏM MƏCMU HALINDA, HƏM DƏ BİR NEÇƏ SAHƏLƏR VƏ SEKTORLAR NİSBƏTİNDƏ GÖRÜNÜŞÜNÜ TƏZAHÜR ETDİRİRLƏR.**

# Büdcə fərqli

Dövlət büdcənin gəlirlərinin onun xərclərini qarşılaya bilməməsi kimi ifadə edilən büdcə kəsirinin müxtəlif yaranma səbəbləri vardır. İqtisadiyyatda tsiklik dəyişmələr, təbii fəlakətlər, iqtisadi və siyasi krizislər, sosial məzmunlu xərclərin artması və s. büdcə kəsirinin əsas yaranma səbəbləri kimi göstərilir. Büdcə kəsirinin kiçik faiz nisbətlərində reallaşması (məsələn, bu rəqəm AB Maastricht kriteriyalarında büdcə kəsiri/ÜDM=3% kimi nəzərdə tutulub) iqtisadiyyatda effektiv tələbin artırılması və iqtisadiyyatın canlanması məqsədinə xidmət edə bilər. Eyni zamanda dövlət tərəfindən həyata keçirilən stimullaşdırıcı iqtisadi siyasət vasitəsi kimi büdcə kəsirinin yaranmasına icazə verilir. Lakin büdcə kəsirin yüksək faiz dərəcələrində reallaşması inflyasiya, dövlət borclarının artması və s. kimi iqtisadiyyatda mənfi halların baş verməsinə səbəb our. Belə olan halda, büdcə kəsirinin düzgün hesablanması, onun real səbəblərinin aydınlaşdırılması və aradan qaldırılması yollarının müəyyənləşdirilməsi baxımından əhəmiyyət kəsb edir.

Son illərdə müxtəlif yanaşmalarla ölkələrin real iqtisadi vəziyyətlərini nəzərə alaraq büdcə kəsirinin hesablama metodları təkmilləşdirilmişdir. Müxtəlif yanaşmalarla büdcə kəsirlərinin hesablanması iqtisadiyyatın real vəziyyətinə əsaslanan iqtisadi siyasət vasitələrinin düzgün seçiminə şərait yaradır. Bu cür yanaşmalarla hesablanan çox sayda büdcə kəsiri növləri olmasına baxmayaraq, əsasən aşağıda qeyd olunan dörd büdcə kəsiri növündən istifadə olunur:

- Ənənəvi büdcə kəsiri,
- İlkin büdcə kəsiri,
- Əməliyyat kəsiri,
- Büdcənin cari kəsiri.

**Ənənəvi büdcə kəsiri**

Ənənəvi büdcə kəsiri, əsas borclar üzrə büdcə ilində edilən ödənişlərin və həmin ildə alınan borcların nəzərə alınmaması prinsipi əsasında dövlət büdcəsinin xərcləri ilə gəlirləri arasındakı fərqin hesablanmasıdır. Başqa cür ifadə etsək, ənənəvi büdcə kəsiri büdcə xərclərindən əvvəlki illərdə alınan əsas borclar üzrə edilən ödənişləri, büdcə gəlirlərindən isə büdcə ilində alınan borcları çıxmaqla hesablanır. Buradakı əsas məqsəd, büdcə ilində ehtiyac duyulan xalis borc miqdarının müəyyənləşdirilməsidir. Bununla yanaşı, ənənəvi büdcə kəsirinin büdcə xərclərindəki real dəyişmələr haqqında da məlumat verdiyini qeyd edə bilərik. Ənənəvi büdcə kəsiri aşağıdakı düsturla hesablanır:

Ənənəvi büdcə kəsiri = (Büdcə xərcləri – büdcə ilində əsas borclar üzrə edilən ödənişlər) – (Büdcə gəlirləri – büdcə ilində alınan borclar) = Büdcə ilində alınan xalis boclar

**İlkin büdcə kəsiri**

İlkin büdcə kəsiri, ənənəvi büdcə kəsirindən (və ya büdcə xərclərindən) borc faiz ödənişlərini çıxılmaqla hesablanır. İlkin büdcə kəsiri hesablaması büdcə ilində əvvəlki illərdə alınan borclar üçün yüksək məbləğlərlə borc faizi ödəyən ölkələrin real maliyyə vəziyyətlərini araşdırmağa imkan yaradır. Borc faiz ödəmələri nəzərə alınmadan büdcə kəsirini hesablamaqla sonrakı illərdə ənənəvi büdcə profisitinin yaradılması yolları araşdırılır, bu kəsrin aradan qaldırılması və ümümilikdə büdcə tarazlığının qurulması hədəflənir. İlkin büdcə kəsiri hesablaması və ənənəvi büdcə profisitinə nail olunması məsələsi



# kəsirinin yanaşmalarla hesablanması

yüksək miqdarlarda borcu olan ölkələrin BVF ilə aparılan kredit sözləşmələrində, əsasən, müzakirə obyektidir.

İlkin büdcə kəsiri = Ənənəvi büdcə kəsiri – Toplam borc faiz ödənişləri

**Əməliyyat kəsiri**

İnflyasiya şəraitində, nominal faiz dərəcəsinin inflyasiya faizi artması qədər meydana gələn artış, sadəcə, inflyasiya nəticəsində yaranan itkini əvəzləyir. Ancaq nominal faiz dərəcələri inflyasiya faizindən daha çox artarsa, belə olan halda dövlət tərəfindən borc alacaqlılarına əlavə gəlir transferti edilmiş olur. Yəni nominal faiz dərəcəsinin inflyasiya faizindən artıq olan hissəsi qədər büdcə kəsirinə yük əlavə edilmiş olur. Əməliyyat kəsiri faiz dərəcələri və inflyasiya faizi nəzərə alınaraq dövlət büdcəsinin gəlir və xərcləri arasında real fərqi hesablamağa imkanı yaradır. Bu hesablama metodundan inflyasiyanın və nominal faizlərin yüksək olduğu ölkələrin real maliyyə vəziyyətini təhlil etmək üçün istifadə olunur.

**Büdcənin cari kəsiri**

Büdcənin cari kəsiri, kapitalın formalaşmasına təsir etməyən və maliyyə aktivlərində artış meydana gətirməyən büdcənin cari xərclərindən cari gəlirləri çıxmaqla hesablanır. Büdcənin cari kəsiri, dövlət büdcəsinin gəlir və xərclər hissəsinə müvafiq ardıcıllıqla kapital gəlirlərinin və investisiya xərclərinin daxil edilməməsi prinsipinə əsaslanan büdcə kəsiri hesablama metodudur. Ənənəvi büdcə kəsirindən investisiya xərcləri – kapital gəlirləri fərqini çıxmaqla büdcənin cari kəsirini hesablamaq mümkündür.



Büdcənin cari kəsiri = (Büdcə xərcləri – investisiya xərcləri) – (Büdcə gəlirləri – kapital gəlirləri)

və ya

Büdcənin cari kəsiri = ((Ənənəvi büdcə kəsiri – (investisiya xərcləri – kapital gəlirləri))

Büdcənin cari kəsiri hesablanması iqtisadi artıma və iqtisadi inkişafa nail olmaq üçün dövlət investisiyalarının böyük əhəmiyyət daşıdığı inkişaf etməkdə olan ölkələrdə uzunmüddətli dövrə istiqamətlənmiş iqtisadi təhlillərin aparılmasına və iqtisadi artıma və iqtisadi inkişafa nail olmaq istiqamətində planlanmış tədbirlərin müəyyənləşdirilməsinə və həyata keçirilməsinə imkan yaradır.

Hazırkı iqtisadi şəraitdə, fikrimcə, ölkəmizdə də büdcənin cari kəsirinin hesablanması praktikasından istifadə edilməsi məqsədəuyğun olar. İnvestisiya xərcləri nəzərə alınmadan dövlət büdcəsinin cari kəsirinin hesablanması, onun maliyyələşdirilməsi üçün doğru vasitələrin seçimi baxımından əhəmiyyət daşıyır. Bu kəsrin büdcənin ənənəvi gəlirləri (vergi gəlirləri, dövlət rüsumları, qrantlar, özəlləşdirmə gəlirləri və s.) ilə maliyyələşdirilməsinin yolları araşdırılmalı, ölkəmizin iqtisadi inkişafı baxımından xüsusi önəm daşıyan investisiyaların maliyyələşdirilməsi üçün isə yerli və xarici maliyyə mənbələri müəyyənləşdirilməlidir. İnvestisiyaların maliyyə mənbələri Azərbaycan Respublikası Dövlət Neft Fondundan edilən transfertlərlə yanaşı, xarici maliyyə mənbələrindən alınan borclar da ola bilər. İnvestisiyaların maliyyələşdirilməsi üçün cəlb olunan bu gəlirlər (borclar) isə dövlət büdcəsi daxilində yaradılacaq bir fondda cəmləşdirilməli və yalnız təyinatı üzrə xərclənməlidir.

i.ü.f.d. Gəray Musayev



## PRİORİTETLƏR

Ölkədə pul gəlirlərinin və xərclərinin arasında üstünlük xərc strukturuna verilməlidir. İndiki şəraitdə ölkədə xərc və faydalılıq kriteriyası sosial tələblərin ödənilməsinin maksimumlaşması və hədəflərə çatdırılması meyilləri ilə tənzimlənilməlidir.

## >> önəmli

**DAYANIQLI VƏ TARAZLI İNKİŞAF STRATEGİYASI SAHƏLƏRARASI VƏ REGİONAL SOSİAL-İQTİSADİ İNKİŞAFDA DÖVLƏTİN VƏSAİTİ HESABINA İNFRASTUKTURUN YARADILMASINI, REGİON ƏHALİSİ ÜÇÜN KİÇİK SAHİBKARLIĞA DƏSTƏK PROQRAMLARININ DAHA ÜNVANLI VƏ FUNKSİONAL PLANLAŞDIRILMASI İLƏ MÜMKÜNDÜR.**

Yoxsulluğun ölçülməsi meyarları adambaşına düşən ÜDM, yaxud gəlirlər ilə deyil, istehlak olunan resurslar və onların əhalinin sosial qrupları üzrə strukturuna görə qiymətləndirilməsi vacibdir. Sosial siyasətin əsas istiqaməti olan həyat səviyyəsini istehlak resurslarının ümumi həcmi və onun aztəminatlı orta təbəqə və varlı əhali qrupları üzrə paylanması təşkil edir. Sosial ədalətin təminatı inkişaf üçün əsas amil olaraq qəbul edilməlidir.

Müasir şəraitdə dünya iqtisadi sistemi və açıq bazar iqtisadiyyatı şəraiti, ölkədə sosial problemlərin həllində və hədəflərin əsaslandırılmasında ixracat, idxal və miqrasiyanın tənzimlənilməsi siyasətini formalaşdırmalıdır. Fikrimizcə, qlobal hədəflərin dominantı rolunu struktur islahatlar və onların sosialyönümlü olması ilə yanaşı, daxili bazarın qorunması və ixracata üstünlük verilməsi yolları ilə mümkün olmalıdır. İstehlak resurslarının bazar tələbi proqnozlaşdırmanı, onun ödənilməsi mənbəyi olaraq daxili istehsal və xidmət sferasının inkişafı və səmərəsinin konturları verilməlidir.

Struktur siyasət uzunmüddətli investisiya siyasəti və həmçinin resursların səmərəli istifadəsi yolları ilə tarazlı inkişaf etdirilməlidir. Struktur iyerarxiya təşkil etməklə makro, mikro və ərazi, funksional artım və nisbətlər üzrə tarazlı və sinerqetik effektlə qiymətləndirilməlidir.

Azərbaycan üçün daha çox xarakterik olan əhali artımı, iş yerləri, gəlirlər və istehlak, daxili və xarici resurslardan istifadə tarazlaşdırılmalıdır. Sosial-iqtisadi inkişaf hədəfləri sahələrin



# Sosial hədəflərin təkmilləşməsinə dair tövsiyələr

SOSİAL PROBLEMLƏR MÜASİR ŞƏRAİTDƏ İQTİSADİ ƏSASLAR, TƏŞKİLATI QURULUŞUN VƏ DÖVLƏTİN SƏMƏRƏSİNİN QARŞILIQLI ƏLAQƏSİ İLƏ HƏLL OLUNUR. SOSİAL HƏDƏFLƏR MÜASİR ŞƏRAİTDƏ ORTA TƏMİNAT SƏVİYYƏSİ İLƏ DEYİL, ƏHALİNİN QÜTBLƏŞMƏSİNDƏ OLAN SƏBƏBLƏR VƏ SON ISTEHLAK SƏVIYYƏSI ILƏ ÖLÇÜLMƏLIDIR.

prioritetliyi, bəzi vacib məhsulların istehsalı və səmərəsinin uzunmüddətli strategiyası əsasında hazırlanmalıdır. Daha çox orta göstəricilər deyil, qütbləşmə və differensial proteksionizm siyasəti baş verməlidir. İnvestisiyanın strukturunda prioritetlər, uzunmüddətli məqsədlər və hədəflərə yönəlməklə yanaşı, hər bir sahənin təminat səviyyəsi və əhalinin məşğulluğu, bazar tələbinə uyğun proqnozlaşmalıdır. Ölkədə pul gəlirlərinin və xərclərinin arasında üstünlük xərc strukturuna verilməlidir. İndiki şəraitdə ölkədə xərc və faydalılıq kriteriyası sosial tələblərin ödənilməsinin maksimumlaşması və hədəflərə çatdırılması meyilləri ilə tənzimlənilməlidir. Ölkədə sosial stimullar əmək haqqı sistemi və pensiyaların adekvat olması, ayrı-ayrı sahələrdə differensasiya, həmin sahənin son məhsulu və məcmu xərclər ilə əlaqələndirilməlidir. Əmək haqqının differensasiyası görülən işlərin nəticəsini qiymətləndirməklə həmin sahənin daxilində əməyin xarakteri və istehlak səbətinə uyğun tənzimlənə bilər. Əmək haqqı sistemində, xidmət sferasında pullu və pulsuz xidmətlərin fərqləri elmi əsaslarla tənzimlənməlidir.

Dayanıqlı və tarazlı inkişaf strategiyası sahələrarası və regional sosial-iqtisadi inkişafda dövlətin vəsaiti hesabına infrastrukturun yaradılmasını, region əhalisi üçün kiçik sahibkarlığa dəstək proqramlarının daha ünvanlı və funksional planlaşdırılması ilə mümkündür. Bir çox sahələrin inkişafında ərazi idarəetməsindən daha çox sahə və dövlət idarəetmə prinsiplərinə keçirilməlidir. O cümlədən təbii sərvətləri olan regionlarda, onlardan istifadə mərkəzləşdirilmiş resurslar hesabına yerli bonusların təkmilləşdirilməsi yolu ilə həll olunmalıdır.

Sosial-iqtisadi inkişaf strategiyasında iqtisadi və sosial mexanizmlərin özünün təkmilləşdirilməsi, onların qiymətləndirilməsi metodikası və tətbiqinin normativ bazası təkmilləşməlidir. Belə ki sığorta sistemi, yoxsulluğun hesablanması, ünvanlı sosial yardım, azad rəqabəti təmin etmək mexanizmləri təkmilləşməlidir.

Müasir şəraitdə iqtisadi artımın azalması və maliyyə-kredit sistemində olan dəyişmələr əhalinin ziyanın minimuma endirilməsi üçün qabaqlayıcı kompensasiya mexanizminin təkmilləşməsini tələb edir.

Əlirzayev Ə.Q.
i.e.d., prof., Əməkdar elm xadimi

# Davamlı inkişaf keçidinin prinsip və mexanizmləri

XX ƏSRİN SONUNDA DÜNYADA BAŞ VERƏN QLOBALLAŞMA PROSESLƏRİ MİLLİ, REGİONAL VƏ BEYNƏLXALQ İQTİSADİYYATLARIN QARŞILIQLI ASILILIĞINI GÜCLƏNDİRMƏKLƏ HƏR BİR MİLLİ İQTİSADİYYAT SƏVİYYƏSİNDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFIN PARADİQMASINI, HƏRƏKƏTVERİCİ QÜVVƏLƏRİNİ, TƏBİƏT-CƏMİYYƏT MÜNASİBƏTLƏRİNİN AHƏNGDARLIĞINI TƏMİN EDƏN PRİNSİP, YOL, MEYAR VƏ MEXANİZMLƏRİN DAVAMLI İNKİŞAF BAXIMINDAN DƏRK OLUNARAQ YENİDƏN DƏYƏRLƏNDİRİLMƏSİNİ OBYEKTİV ZƏRURİYYƏTƏ ÇEVİRDİ.

XX əsrin sonunda dünyada baş verən qloballaşma prosesləri milli, regional və beynəlxalq iqtisadiyyatların qarşılıqlı asılılığını gücləndirməklə hər bir milli iqtisadiyyat səviyyəsində sosial-iqtisadi inkişafın paradiqmasını, hərəkətverici qüvvələrini, təbiət-cəmiyyət münasibətlərinin ahəngdarlığını təmin edən prinsip, yol, meyar və mexanizmlərin davamlı inkişaf baxımından dərk olunaraq yenidən dəyərləndirilməsini obyektiv zəruriyyətə çevirdi.

Bu gün dünyada liberalizmə, realizmə və strukturalizmə əsaslanan 4 meyil; məhsul vahidinə sərf olunan xərclərin dəyərcə artması, müvafiq olaraq gəlirlərin nisbətən azalması, istehsalın və satışın beynəlmiləlləşməsinin kəskin artması, qlobal maliyyə böhranı şəraitində dünya miqyasında konyukturanın, habelə tələbin dəyişməsinə, çevik uyğunlaşmanın çətin və ziddiyyətli bir proses olmasından irəli gələn görünməz nəticələrin artması müşahidə olunur. Bu baxımdan müasir şəraitdə hər hansı bir ölkədə həyata keçirilən strateji iqtisadi siyasətin və tənzimləmə mexanizminin optimallığı, səmərəliliyi bu gün onun qlobal maliyyə böhranına davamlılığı ilə şərtlənir. Müasir dünyada resurslara olan tələbatların durmadan artdığı, lakin onların kəskin məhdudluğu, eyni zamanda ekoloji problemlərin kəskinləşdiyi bir şəraitdə indiki və gələcək nəsillərin maraq və mənafeləri baxımından iqtisadi artımın, ümumiyyətlə, inkişafın hansı amillər, habelə nə qədər resurs sərfi nəticəsində əldə olunması müstəsna əhəmiyyət kəsb edir. Bu zaman milli iqtisadiyyatın dinamik və davamlı



YENİ İQTİSADİ SİSTEMDƏ BİZNES FƏALİYYƏTİNİN ÜSTÜNLÜKLƏRİ DİQQƏTİ CƏLB EDİR. BELƏ Kİ BİZNES – BU, İNSANIN ÖZ BİLİKLƏRİNDƏN, TƏCRÜBƏSİNDƏN, ÖZ KAPİTALINDAN İSTİFADƏNİN KÖMƏYİ İLƏ GƏLİR ƏLDƏ ETMƏYƏ İSTİQAMƏTLƏNMİŞ FƏALİYYƏTDİR.




inkişafını təmin etmək üçün çalışmaq lazımdır ki, dövriyyəyə cəlb edilən məcmu resurslar ölkənin ekoloji sisteminin potensialını üstələməsin.

Qeyd etmək lazımdır ki, son onillikdə Azərbaycanda milli iqtisadiyyatın davamlı inkişafını təmin etmək üçün müvafiq iqtisadi, təşkilati, siyasi ilkin şərtlər formalaşdırılmış, kifayət qədər güclü iqtisadi, sosial, elmi-texniki, innovasiya, kadr potensialı, institusional normativ-hüquqi baza, start kapitalı və sair yaradılmışdır ki, bu da ölkə prezidentinə davamlı inkişafa keçid konsepsiyasının hazırlanması və reallaşdırılmasını yaxın gələcək üçün əməli bir problem kimi qarşıya qoymağa imkan verdi. Ümumən, hər hansı bir ölkənin timsalında davamlı inkişafa əməli cəhətdən keçidi reallaşdırmaq üçün məntiqi ardıcıllıqla:



-milli iqtisadiyyatın mövcud sosial-iqtisadi inkişaf səviyyəsinin sistemli təhlili və dəyərləndirilməsini; strateji məqsədlərin və inkişaf prioritetlərinin müəyyənləşdirilməsini;

-ölkədə mövcud iqtisadi münasibətlər sisteminin indiki və gələcək nəsillərin maraq və mənafelərinə cavab verməsini;

-davamlı inkişafa keçidlə bağlı dövlət tənzimlənməsinin forma, metod, vasitə və optimal hədlərinin müəyyənləşdirilərək səmərəli tətbiqini tələb edir. İqtisadi, sosial, ekoloji və institusional problemlərin meyar və indiqatorlarına əsaslanan davamlı inkişaf konsepsiyası bütün bu problemlərin kəmiyyətcə deyil, ancaq keyfiyyətcə qiymətləndirilməsini tələb edir.

Hər hansı bir ölkədə davamlı inkişafa keçid imkanlarını qiymətləndirərkən bir prioritet istiqamət kimi tələbatlar və məhdudiyyətlər problemini hökmən nəzərə almaq lazımdır. Məhdudiyyətlər dedikdə, hər şeydən əvvəl, ətraf mühiti formalaşdıran məhdudiyyətlər nəzərdə tutulmalıdır. Ayrı-ayrı ölkələrdə davamlı inkişafı təmin edən amil və şərtlərin sistemli təhlili göstərir ki, onun təmin edilməsinin başlıca əsası iqtisadi problemlərin səmərəli həllidir. Çünki, son nəticədə ekoloji, sosial, istərsə də demokrafik problemlərin həlli imkanları həlledici dərəcədə iqtisadi inkişafın potensialı, xarakteri və səviyyəsindən çox asılı olur.

Davamlı inkişaf anlayışına iqtisadi səpkidən yanaşdıqda aşağıdakı cəhətlər xüsusi qeyd olunmalıdır:

- inkişaf – gələcək nəsillərin üzərinə əlavə xərc (borc, kredit və s.) yükləməyən inkişaf yoludur;

- inkişaf nəsillər arasında xarici effektləri minimuma endirməlidir; inkişaf perspektiv dövrə tətbiqən istehsal potensialının geniş təkrar istehsalını təmin etməlidir;

- inkişaf kapitaldan elə bir formada istifadəni nəzərdə tutulmalıdır ki, kapitalın öz nizamnamə məbləğinə toxunmadan sosial-iqtisadi inkişaf təbii kapitaldan əldə olunan faiz, divident hesabına təmin olunsun.

Bu baxımdan milli iqtisadiyyatın davamlı inkişafının təmin edilməsi ölkənin malik olduğu təbii, iqtisadi və maliyyə resurslarının elə optimal bölgüsü və istifadəsinə əsaslanmalıdır ki, onun reallaşdırılması nəticəsində istehsalın və cəmiyyətin cari tələbatlarını mümkün qədər yaxşı ödəməyə imkan versin, ən başlıcası isə bu tələbatların gələcəkdə daha yaxşı ödənilməsi imkanlarını məhdudlaşdırmasın. Bütün bunlar öz

## TƏMƏL PRİNSİP

Biznes pulun natural formadan məhsuldar formaya çevrilməsi, müəssisə və təşkilatlar tərəfindən təbii sərvətlərin istismarı, məhsul istehsalı və satışı, xidmətlərin göstərilməsi, eyni zamanda istehlakçıların tələbatının ödənilməsi və mənfəət alınması məqsədilə təşəbbüskar insanlar arasındakı işgüzar münasibətlərin məcmusudur.

**<< SON YÜZİLLİKDƏ İQTİSADİYYATIN BÜTÜN SAHƏLƏRİNİN SÜRƏTLİ İNKİŞAFI İNSAN FƏALİYYƏTİNİN ƏTRAF MÜHİTƏ MƏNFİ TƏSİRİNİN ARTMASI VƏ TƏBİİ SƏRVƏTLƏRDƏN HƏDDİNDƏN ARTIQ İSTİFADƏSİ İLƏ NƏTİCƏLƏNMİŞDİR.**

növbəsində, iqtisadi, sosial, gəlirlərin ədalətli bölgüsü, insanların layiqli həyat keyfiyyətinin təmin edilməsi problemlərinin birgə həllini tələb edir.

Davamlı inkişafa keçid konsepsiyasını formalaşdırarkən milli iqtisadiyyatın iqtisadi təhlükəsizliyinin təmin edilməsi nəzərdən qaçırılmamalı və o ölkədə həyata keçirilən sistem dəyişikliklərinin, iqtisadi islahatların və dövlət proqramlarının effektliliyinin əsas meyarı və istisna bilməyən şərti olmalıdır. İqtisadi təhlükəsizliyin gözlənilməsi milli iqtisadiyyatın müstəqilliyi, sabitliyi, cari və perspektiv məqsəd və vəzifələrin uzlaşdırılması, dinamik və davamlı inkişafının təmin edilməsi, milli iqtisadiyyatın daima yeniləşmək, modernləşmək qabiliyyətini, öz-özünün inkişafını təmin etmək, dəyişən şəraitə və tələbə uyğun təkminləşdirmək qabiliyyətini, daxili, xarici amil və şərtlərin məcmusu ilə bağlı münasibətləri özündə əks etdirir. Bütün bunlar öz növbəsində dövlətin səmərəli tənzimləmə mexanizminin formalaşdırılmasını tələb edir. Davamlı inkişafa keçidin dövlət mexanizmi dedikdə, hər şeydən əvvəl, milli iqtisadiyyat səviyyəsində sosial-iqtisadi proseslərin idarə olunması, təşkili və tənzimlənməsi, eyni zamanda iqtisadi inkişaf gedişində meydana çıxa bilən daxili və xarici təhlükə və təhdidlərə vaxtında adekvat reaksiya vermək qabiliyyətinin olması nəzərdə tutulur.

Azərbaycanda davamlı inkişafa keçidlə bağlı məqsədli proqramların, o cümlədən regional inkişaf proqramlarının əməli cəhətdən reallaşdırılması öz başlanğıcını ölkəmizdə 30 oktyabr 2001-ci ildə prezidentinin davamlı inkişaf strategiyasının hazırlanması haqqında sərəncamından götürür.

Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2008-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nda makroiqtisadi sabitliyi qoruyub saxlamaq və qeyri-neft sektorunu tarazlı inkişaf etdirməklə davamlı iqtisadi artımın təmin edilməsi, əhalinin gəlir əldə etmək imkanlarının genişləndirilməsi, yaşlı əhalinin, aztəminatlı ailələrin və sosial cəhətdən, xüsusilə həssas qrupların sosial risklərinin azaldılması, qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, sosial infrastrukturun inkişaf etdirilməsi kimi strateji məqsədlər öz əksini tapmışdır.

Davamlı inkişafı təmin etmək üçün dövlətin funksiyası, sadəcə olaraq, iqtisadi, sosial, ekoloji və mənəvi problemlərin ancaq səmərəli həllini təmin etməkdən ibarət deyil. O, eyni zamanda cəmiyyətdə yeni dəyərlərin formalaşmasına şərait yaratmaqdan ibarətdir. Aydındır ki, iqtisadi artımın yüksək sürəti iqtisadi problemlərin həllinin ilkin şərtidir. Lakin son nəticədə bu problemlərin səmərəli həlli hər bir dövlətin seçdiyi və reallaşdırdığı tənzimləmə modelindən, habelə milli mentalitetdən, tarixi ənənələrdən, sosial-mədəni xüsusiyyətlərdən, başqa sözlə, sivilizasiya amillərindən çox asılı olur.

Ölkəmizin davamlı inkişafa keçidində 2012-ci ildə qəbul olunmuş "Azərbaycan 2020: gələcəyə baxış inkişaf konsepsiyası"nda irəli sürülən iqtisadi inkişafın prinsipləri, meyarları, prioritetləri, çağırışları, müddəaları, habelə səmərəli dövlət tənzimlənməsi və yetkin bazar münasibətləri vasitəsilə reallaşdırılması ilə bağlı nəzərdə tutulan tədbirlər sistemi müstəsna əhəmiyyət kəs edir.

i.e.d., prof. M.A.Əhmədov

# İnkişaf etmiş İQTİSADİYYATLARIN "sacayaqları"

İnkişaf etmiş iqtisadiyyatların "sacayaqları" azad bazar, hüquqi dövlət və demokratiya institutlarıdır Ölkədə "Publik Hüquqi Şəxslər Haqqında" qanunun tətbiq edilməsi və bu tipli ilk qurum olaraq "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası"nın yaradılması təqdirəlayiq addımdır. Dünyanın uzunmüddətli təcrübəsi göstərir ki, inkişaf etmiş iqtisadiyyatların "sacayaqları" azad bazar, hüquqi dövlət və demokratiya institutlarıdır. Bunların biri digərinin mövcudluğunu zəruri edir və hər üçünün də bir-birinə adekvat qaydada inkişaf etməsi əsas prinsipdir. Bu baxımdan ölkədə son dövrlər azad bazarın inkişafı istiqamətində atılan addımlar, təbii olaraq, hüquqi-instutsional sahədə də islahatlarla müşayiət olunur.

Azərbaycan iqtisadiyyatının yeni inkişaf mərhələsində tənzimləmə və nəzarət qurumlarının müstəqilliyinin və peşəkarlığının artırılması, həmçinin də tənzimləmə və nəzarət funksiyalarının eyni qurumlarda cəmlənməsi praktikasının getdikcə aradan qaldırılması zərurətə çevrilmişdir. Qeyd olunan Palatanın yaradılması və bank sisteminə nəzarət funksiyasının bu quruma ötürülməsi imkan verəcək ki, bundan sonra Mərkəzi Bank tam şəkildə monetar siyasətin formalaşdırılması və reallaşdırılması prosesinə fokslansın və bu istiqamətdə çevikliyini daha da artırsın. Eyni zamanda bank sisteminə, eləcə də bütövlükdə maliyyə bazarlarına nəzarətin publik hüquqi şəxs statuslu qurum tərəfindən həyata keçirilməsi bu sahədə şəffaflığın, hesabatlılığın və etibarlılığın artırılmasına imkan yarada bilər. Hesab edirəm ki, bu kimi proseslər bundan sonra da davam etdirilməli və iqtisadiyyatda dövlət tənzimləmə və nəzarət qurumlarının bazar iqtisadiyyatının təbiətinə və tələblərinə adekvatlılığı daim artırılmalıdır.

i.ü.f.d. Elşən Bağırzadə



# Dayanıqlı iqtisadi inkişaf

## strategiyasının formalaşmasında standartlaşdırmanın və sertifikatlaşdırmanın rolu

Dos., t.e.n. Aslanov Z.Y.
i.ü.f.d. Dadaşova K.S.

**+RƏQABƏT QABİLİYYƏTİ**

**ÖLKƏMİZİN SOSİAL-İQTİSADİ CƏHƏTDƏN GÜCLƏNMƏSİ SƏNAYENİN DAVAMLI VƏ DAYANIQLI İNKİŞAFINDAN BİLAVASİTƏ ASILIDIR.**

Müasir şəraitdə respublikamızda qarşıda duran ən vacib məsələlərdən biri sənaye müəssisələrinin dayanıqlı iqtisadi inkişafı ilə bağlı olan problemlərdir. Bunun üçün respublikada dayanıqlı iqtisadi inkişaf strategiyası formalaşmalıdır. Bu sahədə respublikamızda ilkin işlərə start verilmişdir. Dayanıqlı iqtisadi inkişaf strategiyasının formalaşmasında standartlaşdırma və sertifikatlaşdırma sahəsində görülən işlər də xüsusi rola malikdir.

Belə ki müəssisələrin iqtisadi inkişafının dayanıqlığı müxtəlif amillərdən, o cümlədən xammalın, materialın, yarımfabrikatların, hazır məhsullara olan tələbin dəyişməsi, məhsula zəmanət xidməti, hazır məhsulun keyfiyyət tələbi, qiymət, istehlakçı qrupları, hazır məhsulun həyat dövrü və s. asılıdır. Bu amillər də bilavasitə standartlaşdırma və sertifikatlaşdırma ilə bağlılığı olan amillərdir.

Müəssisələrin iqtisadi inkişafının dayanıqlığı xammalın, materialın, yarımfabrikatların, hazır məhsullara olan tələbin dəyişməsi, məhsula zəmanət xidməti, hazır məhsulun keyfiyyət tələbi, qiymət, istehlakçı qrupları, hazır məhsulun həyat dövrü və s. asılıdır. Bu amillər də bilavasitə standartlaşdırma və sertifikatlaşdırma ilə bağlılığı olan amillərdir.





## STANDARTLAŞDIRMA

Məhsullar (işlər, xidmətlər) üçün norma, qayda və xarakteristikaları müəyyənləşdirən fəaliyyətdir.

Standartlaşdırma –məhsullar (işlər, xidmətlər) üçün norma, qayda və xarakteristikaları müəyyənləşdirən fəaliyyətdir.

Standartlaşdırmadan fərqli olaraq sertifikatlaşdırma – lazımi tərzdə eyniləşdirilmiş məhsulun, prosesin və xidmətin konkret standarta və ya digər normativ sənədə uyğun olduğuna zəmanətin üçüncü tərəfin inamlı sübut etməsidir.

Dayanıqlı inkişaf prinsiplərinə görə istehsalın, həmin inkişafın tələblərinə cavab verməyən modelləri tədricən aradan qaldırılmalıdır. İndiki və gələcək nəsillər üçün problem yaratmayan dayanıqlı inkişaf dinamik iqtisadi sistemlərin normal vəziyyəti hesab olunur. Daha dəqiq desək, dayanıqlı inkişaf hər bir insanın zəruri həyat keyfiyyətini təmin etməlidir. İnsanların zəruri həyat keyfiyyətinin, sağlamlığının, əmlakının və ətraf mühitin təhlükəsizliyinin təmin edilməsində digər elmlərlə yanaşı, standartlaşdırma və sertifikatlaşdırmanın da əvəzolunmaz əhəmiyyəti vardır.

Odur ki son illər respublikamızda həm standartlaşdırma, həm də sertifikatlaşdırma sahəsində xeyli mütərəqqi işlər görülür. Bu sahədə görülən bütün işlər isə bilavasitə dayanıqlı və davamlı iqtisadi inkişafın formalaşmasına yönəldilir. Məsələn, ölkə iqtisadiyyatının sənayeləşməsinin inkişaf etdirilməsi, Azərbaycanın güclü sənaye mərkəzinə çevrilməsi istiqamətində Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 2014-cü il tarixli 212 nömrəli Sərəncamı ilə 2014-cü il Azərbaycan Respublikasında "Sənaye ili" elan edilməsi ilə əlaqədar "Sumqayıt Texnologiyalar Parkı" MMC ilə Azərbaycan Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutu arasında yerli məhsulların rəqabət və ixrac qabiliyyətinin yüksəldilməsi istiqamətində beynəlxalq və Avropa standartları əsasında elektrik kabelləri və plastik borulara tələbləri təyin edən yeni milli standartların hazırlanması üzrə Saziş imzalanmışdır. Saziş çərçivəsində 25 yeni standartın hazırlanması planlaşdırılmışdır. Həmçinin Sumqayıt Texnologiyalar Parkının (STP) bazasında "Sənaye məhsullarının standartlaşdırılması üzrə" yeni Texniki Komitə (TK) yaradılmışdır. Texniki Komitənin əsas məqsədi ölkədə istehsal olunan sənaye məhsullarının xarici bazara çıxışının təmin edilməsi və rəqabət qabiliyyətinin artırılması istiqamətində yeni beynəlxalq tələblərə cavab verən milli standartların işlənib hazırlanması və bu sahədə fəaliyyət göstərən beynəlxalq texniki komitələrlə əlaqələrin genişləndirilməsidir. Hazırda TK tərəfindən 14 standart hazırlanmışdır. Azərbaycan Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutu ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında Bakı şəhəri yaxınlığında tikiləcək yeni Neft-Qaz Emalı və Neft-Kim-




2014-cü ilin 25-26 sentyabr tarixində "Azərbaycanda Davamlı tikinti və Eko-İnnovasiyalar üzrə 1-ci Beynəlxalq konfrans" keçirilmişdir.




## SERTİFİKATLAŞDIRMA

Lazımi tərzdə eyniləşdirilmiş məhsulun, prosesin və xidmətin konkret standarta və ya digər normativ sənədə uyğun olduğuna zəmanətin üçüncü tərəfin inamlı sübut etməsidir.

**Azərbaycan Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutu və Britaniya Standartlar İnstitutunun (BSİ) birgə təşkilatçılığı ilə il ərzində İSO/İEC 27001 "İnformasiya təhlükəsizliyinin idarəetmə sistemləri", İSO 55001 "Aktivlərin idarəedilməsi sistemi", İSO 9001-2015 "Keyfiyyəti idarəetmə sistemləri" standartının yeni versiyası, İSO/İEC 20000 "İnformasiya texnologiyaları xidmətləri – idarəetmə sistemləri", PAS 99 "İnteqrasiya olunmuş idarəetmə sistemləri", İSO 50001 "Enerji səmərəliliyi idarəetmə sistemləri", İSO/İEC 27001 "İnformasiya təhlükəsizliyinin idarəetmə sistemləri" və İSO 22301 "Biznesin davamlılığı" beynəlxalq standartlarının tətbiqi üzrə sertifikatlaşdırılmış təlimlər həyata keçirilmişdir.**

ya Kompleksinin (NQNK) inşası və gələcək fəaliyyətinin təmin edilməsi üzrə tətbiq ediləcək standartların hazırlanmasını və Azərbaycan Respublikasının dövlət standartları kimi qeydiyyata alınmasının təmin edilməsini əhatə edən saziş imzalanmışdır. Saziş çərçivəsində institut mütəxəssisləri tərəfindən NQNK-nın inşası və istismarı zamanı tətbiq olunacaq beynəlxalq və regional standartlar əsasında 300-ə yaxın standartın hazırlanması nəzərdə tutulmuşdur. Hazırda 73 standart hazırlanmışdır.

Ötən ilin aprel ayında Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Azərbaycan Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutu və Britaniya Standartlar İnstitutunun (BSİ) birgə təşkilatçılığı ilə Britaniya Standartlar İnstitutunun MDB ölkələri üzrə direktorunun iştirakı ilə "Standartlaşdırma və sertifikatlaşdırmanın müasir iqtisadiyyatda rolu" mövzusunda dəyirmi masa keçirilmişdir. Tədbir çərçivəsində standartlaşdırma və sertifikatlaşdırma sahələri üzrə təcrübə mübadiləsi aparılaraq və bu sahənin inkişaf etdirilməsi istiqamətində aktual məsələlər müzakirə edilmişdir. Tədbirdə 40-a yaxın dövlət və qeyri dövlət təşkilatının nümayəndəsi iştirak etmişdir.

2014-cü ilin 23-27 iyun tarixlərində Azərbaycan Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutunun təşkilati, Ukraynanın keyfiyyət assosiasiyası və "Şərq-Qərb beynəlxalq əməkdaşlıq Mərkəzi"nin elmi-metodiki dəstəyi ilə, həyata keçirilən rəqabətə davamlılığın və davamlı inkişafın əsası kimi şirkətlərin inkişaf etdirilməsi məsələlərinə həsr edilmiş "Созвездиекачества – 2014" 15-ci beynəlxalq layihəsi həyata keçirilmişdir. Tədbirdə Azərbaycan, Belarusiya, Gürcüstan, İtaliya, Qazaxıstan, Litva, Rusiya, Tacikistan, Ukrayna kimi ölkələrin ümumilikdə 84 nümayəndəsi iştirak etmişdir.

Qeyd etmək lazımdır ki, həmin ilin 25-26 sentyabr tarixlərində "Azərbaycanda Davamlı tikinti və Eko-İnnovasiyalar üzrə 1-ci Beynəlxalq konfrans" keçirilmişdir. Qeyd olunan tədbir Azərbaycan Diplomatik Akademiyası (ADA), Beynəlxalq Əlaqələr üzrə Moskva Dövlət Universiteti, Azərbaycan Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutu, AQS Group, AİC Group və Ekoburo şirkətlərinin birgə təşkilatçılığı ilə təşkil edilmişdir. Tədbirin əsas məqsədi enerji resurslarının istismarının, ənənəvi olmayan, bərpa edilən və təkrar enerji resurslarının istifadəsinin azaldılmasına, binaların tikintisi və istismarı prosesində, insanın rahat yaşama mühitinin və arxitektor, konstruktor və mühəndis qərarlarının adekvat iqtisadi rentabelliyinin təmin edilməsi zamanı ətraf mühitin zərərli təsirlərinin aşağı salınması istiqamətində beynəlxalq təcrübə barədə məlumatların ictimaiyyətə çatdırılması və daşınmaz əmlak obyektlərinin ekoloji cəhətdən sertifikatlaşdırılmasının təbliğ edilməsidir.

2014-cü ilin sentyabr ayında Azərbaycan Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutu və "Keyfiyyət Assosiasiyası" İctimai Birliyi arasında standartlaşdırma, sertifikatlaşdırma, uyğunluğun qiymətləndirilməsi, həmçinin sadalanan istiqamətlər üzrə birgə layihələrin, təlimlərin, məsləhət və digər xidmətlərin birgə həyata keçirilməsi barədə Anlaşma Memorandumu imzalanmışdır. Bu Memorandumun məqsədi Tərəflər arasında birgə əməkdaşlıq yolu ilə yuxarıda sadalanan istiqamətlər üzrə Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən yerli və xarici, dövlət və özəl təşkilat və qurumlarının fəaliyyətinin əlaqələndirilməsi, həmçinin ölkə iqtisadiyyatının rəqabət qabiliyyətliyinin artırılması üçün birgə əməkdaşlıq planının işlənib hazırlanması və həyata keçirilməsi ilə davamlı və dayanıqlı iqtisadi inkişafa yardım etməkdən ibarətdir. Bundan başqa həmin ilin avqust ayında Azərbaycan Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutu ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "İnnovasiyalar Mərkəzi" arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Memorandumun əsas məqsədi dövlət və qeyri-dövlət təşkilatlarına standartlaşdırma və sertifikatlaşdırma sahələri üzrə konsaltinq

xidmətlərinin göstərilməsi, birgə təlimlərin təşkil edilməsi və bu sahədə proqramın hazırlanması və əlaqələndirilməsidir.

Ötən ilin 6-7 noyabr tarixlərində Azərbaycan Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutu və Britaniya Standartlar İnstitutunun (BSİ) birgə təşkilatçılığı ilə İnformasiya texnologiyaları və təhlükəsizliyi sahəsində beynəlxalq standartların təşviqi üzrə Forum keçirilmişdir. Hazırda ölkəmizdə elektron hökumət və elektron sənəd dövriyyəsinin sürətli inkişaf etdirilməsini, informasiya texnologiyalarının tətbiqinin ölkə iqtisadiyyatına əhəmiyyətini nəzərə alaraq Forumun müzakirə mövzuları İSO 27000 – İnformasiya təhlükəsizliyi, İSO 20000 – İnformasiya texnologiyaları idarəetmə sistemləri, İSO 22301 – Proseslərin davamlılığı standartlarının tətbiqi təcrübəsindən, inteqrasiyasından və üstünlüklərindən ibarət olmuşdur. Qeyd olunan Forum çərçivəsində Azərbaycanın informasiya texnologiyaları sahəsində aparıcı şirkətlərinin, Rusiyanın informasiya təhlükəsizliyi sahəsində uğurlu nəticələr əldə etmiş təşkilatları "Атомпредметзолото" (ROSATOM), «Сбербанк России», həmçinin "Telekom-Express" kimi aparıcı telekommunikasiya şirkətinin və Britaniya Standartlar İnstitutunun nümayəndələrinin, informasiya texnologiyaları sahəsi üzrə mütəxəssislərinin iştirakı və məruzələrlə çıxışları olmuşdur.

2014-cü ilin 13-14 noyabr tarixlərində Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Azərbaycan Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutu, Britaniya Standartlar İnstitutu və AQS Group şirkətinin birgə təşkilatçılığı ilə Enerji Forumu həyata keçirilmişdir. Forumun əsas mövzusu sistemli idarəetmə əsasında şirkətin davamlı inkişaf etdirilməsi, neft-qaz sahəsində çalışan təşkilatlarda beynəlxalq standartlar əsasında idarəetmə sistemlərinin tətbiqi, inteqrasiyası və işləmə təcrübəsidir. Tədbirin əsas iştirakçıları Azərbaycanın və Britaniya Standartlar İnstitutunun dəstəyi ilə Rusiyanın, Qazaxıstanın yanacaq-enerji kompleksi müəssisələridir. Forumun məqsədi yanacaq-enerji kompleksində maraqlı müəssisələrin ekspert birliklərinin gücləndirilməsi vasitəsilə effektivliyin artırılması, təhlükəsiz və davamlı inkişafın təmin olunması istiqamətində etibarlı idarəetmə sisteminin yaradılmasıdır.

**<< önəmli**

**ÖTƏN İLİN APREL AYINDA AZƏRBAYCAN STANDARTLAŞDIRMA VƏ SERTİFİKATLAŞDIRMA İNSTİTUTU VƏ BRİTANİYA STANDARTLAR İNSTİTUTUNUN (BSİ) BİRGƏ TƏŞKİLATÇILIĞI İLƏ "STANDARTLAŞDIRMA VƏ SERTİFİKATLAŞDIRMANIN MÜASİR İQTİSADİYYATDA ROLU" MÖVZUSUNDA DƏYİRMİ MASA KEÇİRİLMİŞDİR.**




Hazırda, yeni 2015-ci ilin ilk yarım illiyində beynəlxalq və regional standartların tələblərinə cavab verən müxtəlif sahələr üzrə 35 milli standart işlənib hazırlanmış və dövlət qeydiyyatına alınmışdır.

"Sumqayıt Texnologiyalar Parkı" MMC-nin bazasında İnstitutun təşkilatçılığı ilə yaradılmış "Sənaye məhsullarının standartlaşdırılması" üzrə Texniki Komitənin (TK-16) əsas məqsədi ölkədə istehsal olunan sənaye məhsullarının xarici bazara çıxışının təmin edilməsi və rəqabət qabiliyyətinin artırılması istiqamətində yeni beynəlxalq tələblərə cavab verən milli standartların işlənib hazırlanması və bu sahədə fəaliyyət göstərən beynəlxalq texniki komitələrlə əlaqələrin genişləndirilməsidir. Hazırda TK tərəfindən 6 standartın layihəsi hazırlanıb, işçi plana uyğun olaraq ilin sonuna 14 standartın hazırlanması planlaşdırılır.

Müasir dövrdə dayanıqlı inkişaf dünyanın əksər ölkələri üçün, o cümlədən Azərbaycan uçun də fəaliyyət planı (strategiya) kimi qəbul olunur. Bu plana görə dayanıqlı inkişaf indiki və gələcək nəsillərə ziyan vurmamalı, dayanıqlı inkişaf tələblərinə cavab verən informasiya bazası yaradılmalı, mütəxəssis hazırlığında yeni keyfiyyətə nail olunmalı, struktur təkmilləşdirilmələri həyata keçirilməli, bu məqsədlə elmi təminat gücləndirilməlidir.

Odur ki standartlaşdırma və sertifikatlaşdırma sahəsində görülən bütün bu işləri respublikada davamlı və dayanıqlı iqtisadi inkişaf strategiyasının formalaşması istiqamətində görülən mühüm işlər kimi qiymətləndirmək olar.

# Neyroiqtisadiyyat

# İqtisadi qərarların qəbul edilməsinin bioloji əsasları

Neyroiqtisadiyyat (ingiliscə noeroeconomics) ən yeni elm sahələrindən biridir. İqtisadi nəzəriyyənin, neyrobioılogiyanın və psixologiyanın kəsişməsində yaranmışdır. O, alternativ variantların seçilməsi, risklərin bölüşdürülməsi və mükafatlandırma zamanı qərarların qəbul edilməsi prosesini öyrənir. Neyroriqtisadiyyat iqtisadi modeldən beynin öyrənilməsi və iqtisadi modellərin qurulmasında neyrobiologiyanın nailiyyətlərindən istifadə edir. Sadə dildə desək, mövcud iqtisadi modellərdən istifadə etməklə beyin öyrənilir və neyrobiologiya elminin əldə etdiyi nailiyyətlərin əsasında fərqli iqtisadi model yaratmaqla iqtisadi inkişafa təsir göstərəcək digər amillər, xüsusilə beyin neyronları diqqət mərkəzinə gətirilir.

Neyron (yunan sözü olub veugou – sinir telləri, sinir mənasındadır). Sinir sisteminin struktur-funsional vahididir. Elektrik və kimyəvi siqnallar vasitəsilə informasiya hasil edərək ötürən elektrik oyadıcı (həyəcanlandırıcı) hüceyrədir. İnsan orqanizmində 85 mlrd. neyron var. Neyronlar birləşərək bioloji neyron şəbəkələri yarada bilir.

Məhz bu gün kifayət dərəcədə prespektiv elm sahələrindən hesab olunan neyroiqtisadiyyat beynin neyron potensialının insan fəaliyyətinə təsiri imkanlarının araşdırılmasını əks etdirir.

Neyronların fəaliyyətə təsiri ilkin olaraq ABŞ alimləri tərəfindən meymunlar üzərində təcrübədən keçirilib. Bu zaman manitorun ekranında hərəkət edən nöqtəyə meymunun baxışının yönəlməsi ən sadə qərarın qəbul edilməsi kimi qiymətləndirilib. Bu təcrübəyə uyğun olaraq perseptiv (qəbuletmə, dərketmə) qərarlar prosesi mümkün alternativlər haqqında informasiya alan neyron-detektorlardan başlayır. Sonra məlumat neyron-inteqratora daxil olur. Neyron-inteqratorlardan birinin fəallıq səviyyəsi "qərarların qəbul edilməsi astanasını, dəhlizini" üstələdiyi halda qərarlar qəbul edilir.

Perseptiv qərarlar mexanizminin ilkin neyroiqtisadi tədqiqatları göstərdi ki, belə neyron-inteqratorlar meymunun beyninin ənsə hissəsində də mövcuddur.

Meymunların (şimpanze) davranışının maraqlı eksperemental neyroiqtisadi tədqiqi onların davranışları ilə insanların iqtisadi davranışları arasında bioloji və təkamül yaxınlığının olması qənaətinə gətirib çıxardı. Eksperiment iştirakçısı meymun nemətin digər iştirakçı meymunun xeyrinə qeyri-bərabər bölgüsü zamanı ondan imtina edir (meymunun birinə az, digərinə çox tum verdikdə az tum verilən tumu vurub dağıdır).

Neyroiqtisadiyyat iqtisadi tədqiqatlarında təkamül yanaşma metodundan geniş istifadə edərək insanların və heyvanların qərar qəbuletmə mexanizmində oxşarlığı və fərqliliyi araşdırır. İnsanların iqtisadi davranışı ən sadə şəkildə yem əldə etmə davranışıdır. Bəşər cəmiyyətinin ilkin pilləsində ibtidai insanın iqtisadi fəaliyyəti kökümeyvəlilərin və giləmeyvələrin əldə edilməsi və istehlakı ilə məhdudlaşırdı. Belə halda insan iqtisadiyyatı ilə heyvanların yem əldə etmə davranışı arasında oxşarlığının tədqiqi məntiqidir. (İnsanların iqtisadi davranışının məqsədinin son nəticəsi əsasən ən sadə şəkildə özlərini qida ilə, yaşayış vasitələri ilə təmin etməkdir.)

Klassik bioloji optimal yemtoplama nəzəriyyəsi göstərir ki, heyvanların qida seçimi iki amildən, qida axtarışına və onun emalına vaxt sərfindən asılıdır. Bu zaman heyvanlar yemdən əldə olunan enerjinin istehlakı sürətini maksimumlaşdırmağa çalışırlar.

Neyroiqtisadiyyata görə insan iqtisadiyyatının bəzi xüsusiyyətləri heyvanın yem əldə etmə davranışını özündə əks etdirir.

"Bioloji bazar nəzəriyyəsinə" görə heyvanlar qrupunun fayda əldə etməyə yönəldilən fəaliyyəti tələb və təklif iqtisadi qa-



nuna tabedir. Otlaq sahəsinin genişliyi və məhdudluğu onların qidaya olan tələbinin ödənilməsində həlledicidir. Heyvanların beynindən neyronlar vasitəsilə daxil olan informasiyanın intensivliyi qidadan əldə olunan enerjinin istehlakı sürətinin maksimumlaşdırılmasını müəyyən edir.

Klassik iqtisadi nəzəriyyə hesab edir ki, bu və ya digər alternativin seçilməsi zamanı qərarların qəbul edilməsi səmərəli baş verir və subyektiv qiymətlilikdən asılıdır. (faydalılıq)

Digər tərəfdən isə gözlənilən faydanın maksimumlaşdırılması nəzəriyyəsi hesab edir ki, hər bir fərd daha çox fayda verə bilən alternativi seçməklə əldə edə biləcəyi nəticəni maksimumlaşdırır.

Ənənəvi olaraq, qərarın qəbul olunması modelinin qurulmasına faydalılığı mütləq kəmiyyətlə ifadə etməyin mümkünsüzlüyü mane olur. Neyroiqtisadiyyat bu məhdudiyyəti aradan qaldırmağa çalışır.

Neyroiqtisadiyyat tədqiqatçıları hesab edir ki, faydalılığı (subyektiv qiymətlilik) obyektiv olaraq xüsusiləşmiş (ixtisaslaşmış) neyronların fəallığının orta kəmiyyəti ilə ifadə etmək olar.

Neyroiqtisadi tədqiqatlar nəticəsində neyroiqtisadiyyatın mühüm sahələrindən biri olan neyromarketinq yarandı. Neyromarketinq daha çox istehlakçıların qərar qəbuletmə və marketinqə təsirini öyrənir. Auksion keçirilərkən iştirakçıların beynindən neyronlar vasitəsilə fərqli intensivlikdə daxil olan informasiya fərqli qərarların qəbul edilməsi ilə nəticələnir. Biri "qərar qəbul etmək astanasında" olduğu halda, digəri qərar qəbul edir.

İnsanların beyninə ətrafda baş verən iqtisadi və qeyri-iqtisadi hadisələr neyronlar vasitəsilə fərqli təsir edir. Məsələn, ölkəmizdə baş verən devalvasiyaya insanlar kifayət dərəcədə fərqli reaksiya verirlər. Çünki insanlar kifayət dərəcədə fərqli emosiyalara malikdirlər. Birisi yığımını təcili dönərli valyutaya çevirməyə çalışır, digəri vəsaiti imkan verirsə, onu daşınmaz əmlaka yönəldir, üçüncüsü istehlak predmetlərinin bahalaşacağını nəzərə alaraq tələbatdan artıq miqdarda istehlak predmetləri əldə edir. Təbii ki, burada fərqli emosiyaların təsirini də diqqətdən kənarda qoymaq olmaz.

Neyroiqtisadiyyatda qərarların qəbul edilməsi zamanı emosiyanın rolunun öyrənilməsi mərkəzi yerlərdən birini tutur.

Tədqiqatlar göstərir ki, hadisələrin qavranılması ilə əlaqədar beyin neyronlarının informasiya qəbul etməsində ləngimələr müşahidə olunan respondentlər kifayət dərəcədə yüksək intellektual səviyyəyə malik olmalarına baxmayaraq, qərarların qəbulu zamanı ciddi əziyyət çəkirlər. Ən yaxşı alternativi dərk edirlər, neyron-inteqratorların informasiya intensivliyi üzündən yanlış qərar qəbul edirlər. Ən yaxşı alternativin dərk edilməsi heç də onun qəbul edilməsi demək deyil. Optimal qərarın mövcudluğunu qəbul edir, lakin özünün əvvəlki səhvinə emosional reaksiyanın olması üzündən ən pis variantı seçir. Yenə əvvəlki misalımıza qayıdaq. Ölkədə baş verən birinci devalvasiyadan fərqli nəticənin çıxarılması (ayrılıqda götürülmüş fərdlər üçün) ikinci devalvasiya zamanı da təkrarlandı. Bəziləri hesab etdi ki, manatın kursu sabitləşəcək, digərləri isə hesab edir ki, bu proses daha da dərinləşəcək. Hər bir fərd devalvasiyaya emosional reaksiyasına uyğun hərəkət etməyə çalışır. Kifayət dərəcədə peşəkar iqtisadçılar devalvasiyanın nəticələrini təbii olaraq fərqli dəyərləndirdilər.

Emosiyaların ən çox təsir imkanına malik olduğu arenalardan biridə futbol meydançalarıdır.

Emosiyanın çox yüksək səviyyədə olduğu zaman neyronlar qərar qəbul etmək üçün daha sürətli informasiya ötürür. Hücumçunun qol vuracağı təhlükəsini hiss edən müdafiəçi emosiyalarına hakim kəsilə bilmədiyindən yolverilməz fəndlə hücumçunu yıxır. Bütün mümkün variantlardan ən pisini seçir. Özü qırmızı kart alıb meydandan qovulur və komandasının qapısına on bir metrlik cərimə zərbəsi təyin edilir. Qol...! (Çox zaman onbirmetrəlik zərbə qolla nəticələnir.) Komanda çox böyük mənəvi və maddi itki ilə üzləşir. Müdafiəçi bu zaman risk etdi. (Hakim görməyə bilər, yumşaq cəzalandırar və s.). Risk hər hansı bir üsulla qiymətləndirilə bilməyən ehtimallıqdır. Emosiya neoronlar vasitəsilə belə bir riskli qərarı qəbul etdirdiyindən bütün alternativ variantlar içərisindən ən pisi seçildi. Bunun əksini sübut edən kifayət dərəcədə faktlar da gətirmək olar.

Məsələn, Argentina milli futbol komandasının kapitanı Maradonanın dünya çempionatında əli ilə vurduğu qol Argentina millisini dünya çempionu etmişdir. Əldə olunan fayda ölçülməz dərəcədədir. Ani emosional qərar və arzu olunan nəticə. (Əllə qol vurmaq olmaz, qırmızı kart ala bilərdi, tamamilə fərqli nəticə olardı.)

Risklərin və mükafatlandırmanın bölüşdürülməsi neyroiqtisadiyyatın öyrəndiyi mühüm problemlərdəndir. Riskin bölüşdürülməsi onun aşağı salınması üsullarından biridir. Bu zaman iştirakçılardan hər birinin itkisi çox da böyük olmur. Riskin bölüşdürülməsi hər bir iştirakçı üçün itkini azaltdığı kimi, faydalanmanın səviyyəsini də yüksəldir.

i.e.d., prof. Ümüdvar Q.Əliyev

# Neftin qiyməti niyə düşüb?

2002-Cİ İLDƏ BARRELI 20 DOLLAR SƏVİYYƏSİNDƏ OLAN NEFT QİYMƏTLƏRİ, 2008-Cİ İL 11 İYUL TARİXİNDƏ 147 DOLLARA ÇATARAQ TARİXİN ƏN YÜKSƏK QİYMƏTİNƏ YÜKSƏLMİŞDİ. 2008-Cİ İLİN SONUNDA PARTLAYAN QLOBAL İQTİSADİ BÖHRAN SƏBƏBİ İLƏ GERİLƏMƏ MÜDDƏTİNƏ GİRƏN NEFT QİYMƏTLƏRİ, 2009-CU İL FEVRAL AYINDAN 35 DOLLAR SƏVİYYƏSİNƏ QƏDƏR GERİLƏMİŞDİ. 2011-Cİ İLİN ƏVVƏLİNDƏN ETİBARƏN HƏRƏKƏTLƏNMƏYƏ BAŞLAYAN NEFT QİYMƏTLƏRİ APREL AYINDA 126 DOLLARA ÇATMIŞDI. 2011-Cİ İLİN SENTYABR AYINDAN 2014-CÜ İLİN SONUNA QƏDƏR NEFT QİYMƏTLƏRİ 80-120 DOLLAR ARALIĞINDA DƏYİŞMİŞDİ.

2015-ci ilin ilk altı ayında 60 dollar ətrafında dəyişən neft qiymətləri ilin ikinci yarısında 45-50 dollar səviyyəsinə düşmüşdü. 2015-ci ilin dekabr ayından geriləməyə başlayan neft qiymətləri 2016-cı ilin ilk iyirmi günündə 27 dollara qədər aşağı düşdü. Bəs neft qiymətlərinin düşməsinə təsir edən amillər hansılardır? (Təsvir 1)

Neft qiymətlərində müşahidə olunan bu kəskin azalmaya səbəb olan əsas iqtisadi amil neft təklifinin tələbi üstələməsidir (Qrafik 1). 2013-cü ildən etibarən gündəlik neftə olan tələb 91-95 milyon barrel olsa da, dünya bazarında təklif gündəlik 92-96 milyon barrel, başqa sözlə desək, hər gün dünya bazarına 1-2.5 milyon barrel artıq neft çıxarılır. Bu isə qiymətin aşağı düşməsinin əsas iqtisadi səbəblərindəndir. Doğrudur, hasilatın çox olmasının siyasi və sosial səbəbləri də var. Amma reallıq bundan ibarətdir ki, neft hasilatı və təklifi yüksək olaraq qalmaqdadır.

**Təklif istiqamətli dəyişikliklər**

- ABŞ-ın neft hasilatını artırması və ixrac qadağasını ləğv etməsi

Dünyada ən böyük neft hasilatçısı və istehlakçısı olan ABŞ (Qrafik 2, Qrafik 3) yeni inkişaf etdirilən texnologiyalar hesabına xərcləri aşağı salmaqla neft hasilatını artırır. Yəni üfüqi qazma (horizontal drilling) və hidroloji çatlatma (hydraulic fracturing) kimi ənənəvi olmayan üsullarla çıxarılan neft qlobal səviyyədə neft bazarlarında tələb-təklif tarazlığını dəyişdirən bir texnoloji inkişaf olaraq dəyərləndirilir. ABŞ Enerji İnformasiya İdarəsinin (EIA) məlumatlarına əsasən, 2012-ci ilin sonundan etibarən ABŞ neft hasilatına görə Səudiyyə Ərəbistanını geridə qoyaraq dünyada ən böyük neft hasilatçısı olmuşdu. 2008-ci il maliyyə böhranın təsiri ilə böyük ölçüdə düşən ABŞ-ın neft hasilatında həmin ilin sonundan etibarən hər il artım qeydə alınmışdır. Beləliklə, ölkədə 2008-2014-cü illərdə neft hasilatı 52% artmışdır. Həmin dövrdə ABŞ-ın təsdiqlənmiş neft ehtiyatı miqdarı böyük ölçüdə yeni kəşf edilən neft ehtiyatlarının təsiri ilə 78%




Mənbə: World BankGroup (2014-2015)

səviyyəsində artmışdı.

Dünya bazarında neftin qiymətinin aşağı düşdüyü bir şəraitdə, 2015-ci ilin son ayında ABŞ-ın Avropaya ilkin olaraq 600 min barrel neftlə dolu tankerini göndərməsi dünyanın, xüsusilə də neft gəlirlərindən məhrum olmuş ölkələrin əsas müzakirə mövzusuna çevrildi.

Dünyanın supergücünün hətta neftin qiymətinin pik həddə qalxdığı dövrdə bazara çıxarmadığı "qara qızılı" məhz indi, neftin "su qiymətinə" satıldığı bir vaxtda bazara çıxarmasının iqtisadi amillər ilə bağlı olması ilə yanaşı, həm də siyasi motivlərlə də bağlı olduğu artıq heç kimdə şübhə doğurmur. Yalnız 40 illik fasilədən sonra ABŞ neftin ixracına tətbiq etdiyi embarqonu ləğv edib və ilk neft partiyasını Texas ştatından İtaliya limanına İsveçrə-Niderland birgə şirkəti olan "Viol Group" şirkəti üçün göndərdi. ABŞ-ın Avropa bazarına çıxması neftin qiymətinə iqtisadi təsirdən daha çox psixoloji təzyiq göstərir. Birləşmiş Ştatların gündəlik 9 milyon barrel neft idxal etməsinə baxmayaraq, okeanın o tayından köhnə qitəyə neft ixracı həyata keçirilməkdədir. ABŞ eyni zamanda idxalın struktrunun da şaxələndirilməsinə nail ola bilib və ölkəyə neft idxalında heç bir ölkə dominant deyil.

- İraq və Liviyada neft hasilatının artırılması, İrana tətbiq edilən embarqonun qaldırılması

Əsas neft hasilatçılarından olan İraq və Liviyada davam edən siyasi məsələlərə görə hər iki ölkənin neft təklifində 2014-cü ilin ikinci yarısında gözlənilən azalmalar baş vermədi. Bu ölkələrdə baş verən problemlər neft hasilatlarına mənfi təsir etmədi, əksinə, iki ölkədə 2014-cü ilin ikinci yarısından etibarən dünyada əsas neft təklif edən ölkələr arasında yer aldılar.

İranla P5+1 ölkələri arasında nüvə razılaşması nəticəsində İrana tətbiq edilən iqtisadi və maliyyə sanksiyaları qaldırıldı, ancaq silah embarqosunun 5 il daha davam etməsi nəzərdə tutuldu. İran 160 milyard barrelə yaxın neft ehtiyatı ilə dünyanın ən böyük dördüncü neft ehtiyatına malik ölkəsidir. İran dövləti tərəfindən sanksiyaların qaldırılmasından sonra ilk olaraq ixracatın gündəlik 500 min barrel, 6-7 aydan sonra isə gündəlik 1 milyon barrelə kimi artılacağı bildirildi. 2016-cı ilin yanvar ayında həm ABŞ neftinin, həm də İran neftinin Avopa bazarlarına daxil olması ilə Brent markalı neftin qiyməti 27.67 dollar səviyyəsinə qədər düşdü. Beləliklə də, neft qiymətləri 2003-cü ildən bəri ən aşağı səviyyəyə düşdü.

**- OPEC-in hasilat kvotasını azaltmaması**

Qeyd etdiyimiz kimi, neftin qiymətinin aşağı düşməsinin əsas iqtisadi səbəbi təklifin tələbi üstələməsidir. Təklifin çoxalması analoji olaraq neftin qiymətini də aşağı salır və belə bir vəziyyətin yaranması OPEC və digər neft hasilatı ilə məşğul olan ölkələri narahat edir. 2014-cü il 27 noyabr tarixində OPEC üzvlərinin Vyanada təşkil olunan 166-cı iclasında bu məsələlərlə bağlı tarixi müazakirələr aparıldı. Müzakirələrdən sonra hasilat kvotasının azaldılmaması ilə bağlı qərar qəbul edildi. 2014-cü ildə dünya gündəlik neft hasilatının 39%-ni təmin edən OPEC üzv ölkələrinin bu qərarı nəticəsində neft qiymətlərindəki düşmə sürətləndi. OPEC bu məsələ ilə bağlı niyə bir tədbir görmədi? İlk baxışdan azalan qiymətlərlə bağlı qəbul ediləcək qərar son dərəcə sadə görsənir. Təklifi, yəni neft hasilatını aşağı salmaqla qiymətləri əvvəlki səviyyəsinə doğru dəyişmək, ya da qiymətlərin daha da aşağı düşməsinin qarşısını almaq mümkündür. Bəs neft hasil edən aktorlar niyə bu "sadə" qaydanı tətbiq edərək neftin qiymətini qaldırmaq istəmirlər? Qeyd etmək lazımdır ki, son dərəcə sadə görünən bu qaydanın OPEC ölkələri tərəfindən tətbiq edilməsi bir qədər çətindir.

OPEC üzvləri gündəlik 31 milyon barrel neft hasil edirlər. Hasilatın təxminən üçdə biri OPEC-in qeyri-rəsmi lideri olan Səudiyyə Ərəbistanın payına düşür. Səudiyyə Ərəbistanı 261 milyard barrel neft ehtiyatı ilə dünya neft ehtiyatının 25%-nə sahibdir. Digər böyük neft ehtiyatlarına malik olan OPEC üzvləri də, demək olar ki, neft hasilatını maksimum

Mənbə: EIA




Qrafik 1: Neft qiymətinə olan tələb və təklif

Mənbə: EIA (2014)




Qrafik 2: Ən böyük neft hasilatçıları

Mənbə: EIA (2014)




Qrafik 3: Ən böyük neft istehlakçıları

Mənbə: EIA




Qrafik 4: Qlobal enerji istehlakının mənbələr üzrə bölgüsü

səviyyədə həyata keçirirlər. Problem elə buradan başlayır, yəni OPEC üzvlərinin, demək olar ki, bütün gəlir mənbəyi neftdən asılıdır. Neft satışından əldə etdikləri gəlirlər müdafiə sənayesinə, tikinti, qida və digər sektorlara sərf edilir. Qısa formada desək, neft təklifini azaltmaq ölkələrin iqtisadi tarazlığını alt-üst edər. OPEC üzvlərinin, demək olar ki, hamısı stabil ölkələr qrupuna daxil olmadıqları üçün xarici və daxili yarana biləcək təhlükələrə qarşı silahlanma "yarış"ından geri qala bilməzlər. Bu səbəblərə görə neft hasilatlarını maksimum səviyyədə saxlamaları şərtdir!

OPEC üzvlərinin ölkələrinin iqtisadi tarazlığı təmin edə bilmələri üçün hasil etmələri olan neft qiymətlərinin aşağı sərhədi olduğunu da vurğulamaq lazımdır. Məsələn, bu aşağı limit Küveyt və Qətər üçün barrel başına təxminən 70 dollardan başlayır, Səudiyyə Ərəbistanı üçün 100 dollara yaxınlaşır. İran, Liviya, Venesuela kimi ölkələr üçün 140 dollara qədər çıxa bilir.

Nümunə vermək lazım olsa, İranın neft hasilatını aşağı salması mümkün deyil. Embarqo səbəbi ilə 2012-ci ildən hasilat aşağı səviyyədə idi. Sanksiyaların ləğvi ilə əlaqədar Avropa bazarının İran neftini qəbul etməsi və rəsmi Tehranın 1 barrel neftin qiyməti 20 dollara düşsə belə, neft hasilatını artıracağını bəyan etməsi əyani misal olaraq göstərmək olar.

İraqın hal-hazırkı vəziyyəti də məlumdur. İŞİD neft quyularının bir hissəsini əlində saxlayır. Qalan neft sahələrinin bir qismi isə İraqın şimalındakı Regional Kürd Rəhbərliyinin əlindədir. Bu şərtlər altında İraq hökumətinin də təbii olaraq neft hasilatını azaltması mümkün deyil.

OPEC üzvləri içərisində neft hasilatını, həqiqətən, azalda biləcək tək ölkə Səudiyyə Ərəbistanıdır. Lakin Səudiyyə Ərəbistanı daha əvvəl bugünkü ilə eyni vəziyyətlə qarşılaşmışdı və neft hasilatını azaltmışdı. Bəhs etdiyimiz hadisə 1980-ci illərin ortalarında baş verib. Həmin dövrdə ABŞ neft ehtiyacının əhəmiyyətli bir hissəsini Səudiyyə Ərəbistanı hesabına ödəyirdi. 1980-ci illərdə neft qiymətləri düşüncə, Səudiyyə Ərəbistanı neft hasilatını azaltdı, lakin bu məhdudiyyət Səudiyyə Ərəbistanının iqtisadiyyatında zəlzələ yaratdı. Səudiyyə Ərəbistanı neft təklifini azaltdığı üçün ABŞ-a ixrac etdiyi neftin miqdarı da azaldı.

Məsələn, 1983-cü ildə Səudiyyə Ərəbistanı gündəlik neft hasilatını 4 milyon barrelin altına saldı, ancaq paralel olaraq ABŞ-ın Səudiyyə Ərəbistanından idxal etdiyi neftin payı 5 %-in altına düşdü. Səudiyyə Ərəbistanı təklifi aşağı salmağa davam etdi. Hətta 1985-ci ilin ortalarında gündəlik neft hasilatını 2 milyon barrelə saldı, lakin yenə paralel olaraq ABŞ-ın Səudiyyə Ərəbistanından idxal etdiyi neft miqdarı da düşdü. Hətta bu elə bir səviyyəyə düşdü ki, Səudiyyə Ərəbistanı ABŞ-a neft ixrac edə bilməz vəziyyətə gəldi. Bu müddətdə Səudiyyə Ərəbistanı neft ixracı mövzusunda qətiyyət nümayiş etdirərkən Çin bu fürsəti qaçırmadı və Səudiyyə Ərəbistanın neft bazarındakı yerini tutdu. Sonradan Səudiyyə Ərəbistanı neft təklifini məcburən artırdı. 1980-ci illərdə belə bir təcrübə ilə qarşılaşan Səudiyyə Ərəbistanının neft təklifini təkrar olaraq ABŞ-ın iradəsi olmadan aşağı salması real görünmür.

**Tələb istiqamətli dəyişikliklər**

- Avro Zona və Yaponiyada zəif iqtisadi proqnozlar, Çin iqtisadiyyatında yavaşlama

2008-ci ildəki maliyyə böhranın təsirlərini tam aradan qaldıra bilməyən və 2012-2013-cü illərdə təkrar daralma bölgəsinə keçən Avropa iqtisadiyyatının sabit bir artım təmin edə bilmədiyi görünür. Ötən ildən bu yana zəif böyümə ilə yanaşı, əlavə deflyasiya təzyiqi qarşısında olan Avropa Mərkəzi Bankı daha əvvəl tətbiq olunmayan siyasətin tətbiqinə başladı. Borc böhranının təsirlərini aradan qaldırmağa çalışan Avropada 2015-ci ilin ilk rübündə illik bazada 1.2%, ikinci rübündə 1.5%, üçüncü rübündə isə 1.6% iqtisadi artım müşahidə edildi. İqtisadiyyatı dəstəkləmək və qiymət sabitliyini təmin etmək üçün əlindəki imkanları istifadə edən Avropa Mərkəzi Bankı depozit faiz dərəcəsini 0.3% endirməklə pul dövriyyəsini artıraraq deflyasiya riskini azaltmağa çalışdı. Pul dövriyyəsini artırmaq siyasətinə baxmayaraq zəif daxili tələb və aşağı neft qiymətləri inflyasiya səviyyəsinin 0% dərəcəsinə doğru hərəkətini zəiflətmir. Bu isə 2016-cı ildə neft və digər məhsullara olan tələbin artmaması və aşağı qiymətlər səviyyəsində qalması ilə Avropada inflyasiyanın səviyyəsinin kəskin qalmasını istisna etmir.

Avropa iqtisadiyyatı kimi 2008-ci il maliyyə böhranı Yaponiya iqtisadiyyatını da, xüsusilə ixrac mallarına olan tələbin azalması və investisiya mühitinin ümumi pisləşməsi, durğunluğa salmışdı. Hətta bu müddətdə Çin 2010-ci ildə 5.9 trilyon dollarlıq ÜDM ilə Yaponiyanı keçərək dünyanın ən böyük ikinci iqtisadiyyatına və müvafiq olaraq Yaponiya dünyanın ən böyük üçüncü iqtisadiyyatına çevrildi. 2010-cu ildən etibarən ölkə iqtisadiyyatında



2013-cü ildən etibarən gündəlik neftə olan tələb 91-95 milyon barrel olsa da, dünya bazarında təklif gündəlik 92-96 milyon barrel, başqa sözlə desək, hər gün dünya bazarına 1-2.5 milyon barrel artıq neft çıxarılır. Bu isə qiymətin aşağı düşməsinin əsas iqtisadi səbəblərindəndir.

iqtisadi artımların yavaşlaması (2011-ci il 0.5%, 2012-ci il 1.7%, 2013-cü il 1.6% və 2014-cü il 0.1%) müşahidə edilməkdədir.

Qeyd etdiyimiz kimi, Çin 2010-cu ildən etibarən ABŞ-dan sonra dünyada ikinci böyük iqtisadiyyata çevrildi. 2000-ci illər ərzində qlobal iqtisadiyyatın istehsal mərkəzi olaraq görülən Çin avtomobildən texnologiyaya qədər bir çox sahədə fəaliyyət beynəlxalq firmaların istehsal mərkəzini bu ölkəyə gətirməsinə nail oldu. Məlumat üçün qeyd edək ki, bu gün dünyada istehsal edilən havalandırma sistemlərinin 80%-i, mobil telefonların 70%-i və ayaqqabıların 60%-i Çində hazırlanır. Lakin bunlarla yanaşı, son illər Çin iqtisadiyyatında da geriləmələr müşahidə edilir. Çin iqtisadiyyatında 2015-ci ildə 6.9% artım ilə son 25 ilin ən zəif iqtisadi artımı qeydə alındı.

BVF-nin xəbərdarlıqlarına əsasən, əsas neft istehlakçısı və idxalatçısı olan bu ölkələrin iqtisadiyyatlarında baş verən geriləmələr analoji olaraq neft qiymətlərinin də uzunmüddətli olaraq aşağı düşməsinə səbəb olacaqdır.

- İEÖ-də artan enerji məhsuldarlığı

70-ci illərdə baş verən neft böhranlarının nəticəsi olaraq enerji qiymətlərindəki artımlar Qərbin sənayeləşmiş ölkələrini və Yaponiyanı alternativ enerji qaynaqlarının axtarışına yönəltmiş və nəticədə bu ölkələrdə nüvə və digər bərpa olunan enerji texnologiyalarının inkişaf etdirilməsində ciddi uğurlara nail olunmuşdur.

2010-2035-ci illərdə də enerji tələbinin artmağa davam edəcəyi, bununla birlikdə neftə olan artan tələbin bir miqdar düşərək ümumi enerji istehlakı içində 2010-ci ildə 34% olan payının 2035-ci ildə 29%-ə enəcəyi, bərpa olunan enerjinin isə sürətli artım göstərərək 2010-ci ildə 11% olan payının 2035-ci ildə 14%-ə çatacağı gözlənilir (Qrafik 4).

**Geosiyasi dəyişikliklər**

- ABŞ və Rusiya arasında maraqların toqquşması (Ukrayna inqilabı, Orta Şərq siyasəti və digər)

Suriyada davam edən məzhəb və ideoloji mübarizəni, əslində, fərqli enerji strategiyalarının mübarizəsi kimi qiymətləndirmək lazımdır. Yəni bir tərəfdə İran-İraq-Suriya qrupu, İran və İraq qazının "İslam Boru Xətti" ilə birlikdə Suriyanın Aralıq dənizi sahilindən Avropa bazarına çatdırılmasında maraqlıdır. Digər tərəfdə ABŞ, Türkiyə, Səudiyyə Ərəbistanı, Qətər, İsrail və bəzi Aİ ölkələrinin içində olduğu qrup isə enerji xəttinin Qətərdən başlayaraq, Səudiyyə Ərəbistanı, Suriya və Türkiyə üzərindən keçərək "Nabucco"ya bağlanmasını istəyirdi.

Avropanın Rusiyadan qaz asılılığı və bu böyük bazarda əsas payın Rusiyanın əlində olmasından narahat olan ABŞ Qətər-Türkiyə və "Nabucco" boru xətlərini ön plana çıxartdı. Rusiya isə Qərb blokuna cavab olaraq İranı Avropa bazarında özünə uzunmüddətli rəqib hesab etmədiyi üçün İran-İraq-Suriya xəttinin yanında yer aldı.

Qeyd edilən layihələrin müzakirəsinə başlanıldığı 2009-cu ildən bəri Qərb və antiqərb qrupunu qarşı-qarşıya gətirən bir çox hadisələr baş verdi. Qafqaz və Orta Şərqdə Qərbə meyilli

## >> Geosiyasət

Avropanın Rusiyadan qaz asılılığı və bu böyük bazarda əsas payın Rusiyanın əlində olmasından narahat olan ABŞ Qətər-Türkiyə və "Nabucco" boru xətlərini ön plana çıxartdı.



xalq hərəkatları bunun başlıca dinamikası oldu. Tunisdə başlayan Ərəb Baharı, xüsusilə Liviya və Suriyada Qərb və antiqərb blokları qarşı-qarşıya gətirən döyüşlərə çevrildi. Qafqaz və Orta Asiyadan Ukraynaya qədər uzanan "rəngli inqilablar" isə Rusiyanın Krımı ilhaq etməsi ilə nəticələndi. Bunun nəticəsində, ABŞ və Aİ Rusiyaya qarşı 2014-cü ildə sanksiyalar tətbiq etməyə başladı.

Ukrayna inqilabından sonra tətbiq olunan sanksiyalar çərçivəsində ABŞ-ın və Körfəz ölkələrinin neft təklifini artırması və təbii qaz ilə bərpa olunan enerji mənbələrinin əhəmiyyət qazanması Rusiyanın əleyhinə oldu. Neft qiymətləri 2014-cü ildən etibarən barreli 100 dollardan 27 dollara qədər aşağı düşdü. Barrelinin 60-100 dollar arasında qiymət dəyişməsi Rusiya iqtisadiyyatının sosial-iqtisadi sabitliyinin sığortasıdır.

2015-ci ilə xammal satışından əldə edilən gəlirləri azalan və pul vahidi dəyərdən düşən Rusiya xarici siyasətində Suriyada avqust ayında başlatdığı hərbi əməliyyatla birlikdə "sərt gücü"n önə çıxartdı. Xəzər dənizindən raket atılması, Aralıq dənizinin şərq hissəsinə hərbi gəmilərini yerləşdirilməsi və demək olar ki, fasiləsiz davam edən bombardmanlar "sərt güc" nümayişinin əsas hissələridir. Rusiya bu güc tətbiqi ilə həm rus, həm də dünya ictimaiyyətində, özünə tətbiq olunan sanksiyaların mənfi nəticələrini aradan qaldırmaq istədi. Eyni zamanda, hərbi gücü spekulativ olaraq neft qiymətlərinin artılması istəyi kimi də qəbul etmək olar, çünki Rusiya 2008-ci ildə Gürcüstana qarşı istifadə etdiyi hərbi gücün neft qiymətlərinin qalxmasına təsir yaratdığını test etmişdi. Bu mənada Rusiyanın Suriyada havadan və dənizdən hərbi əməliyyatlara başlaması qısa müddətdə neft qiymətlərini artırsa da, uzun müddətdə qiymətlərin azalmasının şahidi olduq.

**Beynəlxalq valyuta birjalarında dəyişikliklər**

- FED-in faiz dərəcələrinin artırması gözləntisi ilə ABŞ dollarının dəyər qazanması

II Dünya müharibəsindən sonra ABŞ-ı supergüc edən üç əsas faktordan biri neftin ABŞ dolları ilə qiymətləndirilməsi, satılması, bununla əlaqəli olaraq əsas mərkəz banklarının ABŞ dollarına olan tələblərinin artması və ehtiyat pul olaraq saxlamasıdır. İkincisi,

ümumdünya investisiya siyasəti, üçüncüsü isə, hərbi gücüdür.

Yəni ABŞ neft qiymətlərini təkcə hasilatını artırmaq, idxalatını azaltmaq, OPEC-dəki müttəfiqlərinin dəstəyi ilə deyil, eyni zamanda ABŞ Mərkəzi Bankının (FED) faiz dərəcələrini artırıb-azaltması ilə də tənzimləyə bilir.

FED son dəfə yüksək həddə faiz dərəcələrini 2006-cı ildə artırmışdı. Həmin dövr ərzində faiz dərəcləri 1%-dən 5.25%-ə qədər qaldırılmışdır. Faiz dərəcələrinin artımı qısa müddət ərzində ABŞ və digər ölkələrin iqtisadiyyatının yavaşlamasına səbəb oldu və sonradan başlayan maliyyə böhranı ilə bütün dünyaya yayıldı. Böhran ilə pul genişləndirmə siyasətinə başlayan FED, beləliklə, faiz dərəcələrini 0.25% dərəcəsinə saldı.

1990-ci ildə 47 dollar səviyyəsində olan neft qiymətləri (WTI markalı) İraqın Küveyti işğal etməsi, nəticədə Körfəz müharibələrinin başlaması və ABŞ-ın koalisiya ölkələri ilə birlikdə müharibələrə qoşulması ilə davam edən münaqişələr neft qiymətlərinin 20 dollar səviyyəsinə qədər enməsinə səbəb olmuşdu. 1997-ci ilə kimi 31 dollara qədər qalxaraq stabilləşən neft qiymətləri Asiya maliyyə böhranın təsiri ilə 16 dollara qədər düşmüşdü. 1999-cu ildə OPEC gündəlik hasilatını 27.5 milyon barreldən 25.8 milyon barrelə azaltmasının (1.7 milyon barrel azalma) təsiri ilə 2000-ci ildə neft qiymətləri 38 dollara qədər qalxmışdı. 2001-ci ildə ABŞ-da 11 sentyabr hücumlarından sonra ABŞ-ın "Terrorizmlə müharibə" dövrünə başlaması və hərbi

**Qrafik 5.**
Əsas geosiyasi və iqtisadi amillərin təsiri ilə WTI markalı neft qiymətinin dəyişməsi




Mənbə: EIA

2014-ci ildə FED-in pul genişləndirmə siyasətini sona çatdırmasını bəyan etməsi ilə faiz dərəcələrinin artımı gözlənilməyə başlanıldı. 2015-ci il FED-in son iclasında faiz dərəcələri 0.25%-dən 0.5%-ə qaldırıldı. Eyni zamanda bildirək ki, 2016-ci il ərzində də faiz dərəcələrində artım gözlənilir.

FED-in faiz dərəcələrini artırmasının gözlənti olması və faiz dərəcələrinin artırılması, ilk növbədə, ABŞ dollarına dəyər qazandırır ki, bu da hazırkı vəziyyətdə neft qiymətlərinin düşməsinə təsir edən əsas amillərdəndir.

**Neft qiymətləri 2016-cı ildə necə dəyişəcək?**

Neft qiymətlərinin aşağı düşmə səbəblərini iqtisadi və geosiyasi amillərin təsiri ilə baş verdiyini qeyd etdik. Neft qiymətlərinin necə dəyişəcəyinə dair proqnoz verməzdən əvvəl, 1990-cı illərdən etibarən WTI markalı neft qiymətinin kəskin formada düşməsinə və yüksəlməsinə təsir edən amilləri nəzərdən keçirək (Qrafik 5).

əməliyyatlarını genişləndirməsi ilə neft qiymətləri 57 dollara qədər qalxmışdı. 2005-ci ildə ABŞ-ın neft ehtiyatlarının aşağı düşməsi ilə neft qiymətləri daha da yüksələrək 2007-ci ildə 92 dollara qədər qalxmışdı. 2008-ci ildə neft qiymətləri 125 dollar səviyyəsinə qalxsa da, ilin sonlarında başlayan qlobal maliyyə böhranın təsiri ilə 42 dollara qədər düşmüşdü. 2009-cü ildə OPEC gündəlik hasilatını 33.1 milyon barreldən 28.9 milyon barrelə azaltmasının (4.2 milyon barrel azalma) təsiri ilə neft qiymətləri tədricən qalxmağa başlamışdı və qiymətlər 2014-cü ilə kimi 83-99 dollar ətrafında dəyişmişdi. Yuxarıda qeyd etdiyimiz (Təsvir 1) amillərin təsiri ilə neft qiymətləri 2014-cü ildən etibarən 2016-cı ilin yanvar ayının ilk iyirmi gününə qədər aşağı düşmüşdü. 1990-cı ildən WTI markalı neftin qiymətinin dəyişim təhlilinə əsasən deyə bilərik ki, 2016-cı ildə neftin qiymətlərinin yüksəlməsinə OPEC-in hasilat kvotasını necə dəyişdirməsi və geosiyasi vəziyyətin necə inkişaf etməsi təsir göstərəcəkdir.

Əliəkbər Salmanov

# İqtisadi artım və onun səmərəliliyi

İqtisadi artım makroiqtisadi inkişafın və sabitliyin nəticəsi olmaqla yanaşı, həm də onun dayanıqlılığının təminatçısıdır. İqtisadi artım əsas məqsədlərə çatmaq üçün bir vasitədir və onun təmin olunması ilə cəmiyyətin sosial iqtisadi problemləri öz həllini tapır və resursların məhdudluğu probleminin həlli yüngülləşir. Son nəticədə isə iqtisadiyyatın əsas ziddiyyəti müəyyən dərəcədə öz həllini tapmış olur.

Davamlı iqtisadi inkişafa nail olmaq üçün orta və uzunmüddətli iqtisadi artımın təmin olunması xüsusi əhəmiyyət kəsb edir. Uzunmüddətli iqtisadi artımın innovasiyalı amillərin istifadəsini əks etdirir.

Ümumiyyətlə, iqtisadi artımla əlaqədar iki məsələ mövcuddur. Qısa müddətli dövrdə istehsalın real həcminin öz potensial səviyyəsinə mümkün qədər yaxın ola bilən real artımın təmin edilməsi problemi. Uzunmüddətli dövrdə isə potensial iqtisadi artımın nə ilə müəyyən olunması məsələsi. Artımın uzunmüddətli yüksək sürətinə nail olmaq üçün iqtisadiyyatda qısamüddətli dövrdə real artımın davam etməsi vacibdir. Qısamüddətli dövrdə real artımın resursların daha dolğun istifadəsi nəticəsində arta bilir. Lakin bütov bir neçə illər ərzində real artımın saxlanması üçün bu zaman istehsalın potensial artımı da baş verməlidir. Amma istehsalın potensial həcmi müəyyən dərəcədə texnologiyanın inkişaf sürətindən, innovasiyanın səviyyəsindən, yeni növ xammalın kəşfindən asılı olaraq vaxt aşırı dəyişə bilir. Lakin buna baxmayaraq onun artıma meyilliliyi istehsalın real həcminin artmasından daha sabit olur. Real iqtisadi artım daha cox tərəddüdə meyilli olur və onun artım sürəti dəyişkən olur. Qısamüddətli dövrdə real iqtisadi artım sürətinin dəyişməsinin əsas səbəbi məcmu tələbin artımında baş verən dəyişikliklərdir.

Dövləti yalnız uzunmüddətli iqtisadi artım problemi qayğılandırmır. Həmçinin qısamüddətli iqtisadi artımın da müəyyən problemləri var. Qısamüddətli iqtisadi artım təklif amillərindən olan əmək və kapitaldan istifadə səviyyəsini əks etdirir. İqtisadiyyata təbii qeyri-sabitlik xas olunduğunda artım tərəddüdlü olur, onun sürəti yuxarı və aşağı olur. Dünya ölkələrinin inkişaf tarixi göstərir ki, hətta ən varlı ölkələr üçün də həmişəlik sabit artıma təminat yoxdur. Ona görə də hər bir dövlət qisamüddətli dövr də iqtisadi artımın sabitliyini təmin etməsi qaydasına qalır.

Hal-hazırda Azərbaycan üçün əsas prioritetlər sənaye istehsalının inkişafı yüksək əlavə dəyərli yeni məhsulların xarici bazarlara çıxışının təmin edilməsi, ölkədə daxili tələbatın stimullaşdırılması, tələb və bölgü amillərinin yaratdığı maneələrin aradan qaldırılması və iqtisadi artımın səmərəliliyi ilə onun sosial yönümlülüyünün qarşılıqlı əlaqəsinin təmin edilməsi olmalıdır.

Tələb və bölgü amillərinin yaratdığı manelərin aradan qaldırılması imkanı və artımın səmərəliliyi ilə onun sosialyönümlülüyünün qarşılıqlı əlaqəsinin təmin olunması istehsalçıların artımın nəticələri ilə istehlakçı məmnunluğunu artırmaq qabiliyyətindən və cəmiyyətin bütün sosial təbəqəsinin səmərəli iqtisadi inkişafın üstünlüyündən istifadəsinə qoşulmasından asılıdır. İqtisadi artım təklif, tələb və bölgü amilləri ilə müəyyən olunur. Təklif amilləri istehsalın artımını fiziki cəhətdən mümkün edirsə, tələb və bölgü amilləri iqtisadiyyatın artan istehsal potensialının real olmasını təmin edir. İqtisadi artıma təsir edən təklif və tələb amilləri qarşılıqlı əlaqə olur. İqtisadi artıma nail olmaq üçün iqtisadi dövriyyəyə resursların yalnız tam cəlb edilməsi təmin edilməməlidir, həm də onların istifadəsinin yüksək səmərəliliyini təmin etmək lazımdır. Onların maksimum miqdarda faydalı məhsul əldə olunmasını təmin edən bölgüsü aparılmalıdır.

Real iqtisadi artımı təmin edən ən mühüm amil əmək məhsuldarlığının yüksəldilməsidir. Əmək məhsuldarlığının yüksəl-dilməsinin mühüm vəzifəsi insan kapitalına qoyulan investisiyadır. Uzun dövrdə dayanıqlı artımın innovasiyalı amilləri hesabına təmin edilməsi daha səmərəlidir. Ona görə də Azərbaycanda iqtisadi artımın əsas problemi, onu xammal mənşəli məhsulların istehsalı və ixracı asılılığından qurtarmaqdır və onun innovasiyalı və rəqabətqabiliyyətli sənaye mənşəli məhsulların istehsalı və ixracı hesabına artımını təmin etməkdir. İqtisadi artımı təbii sərvətlərin tükədilməsi hesabına deyil, əsasən sərvəti qoruyub saxlayan və artıran əlavə dəyər yaradan sahələrin inkişafı hesabına təmin etmək lazımdır.

Azərbaycanda iqtisadi artıma əsasən təbii və maddi amillər hesabına nail olunduğundan uzun müddətli dövrdə davamlı artımı təmin etmək üçün bütün amillərin kəmiyyətinin və onların məhsuldarlığının artırılmasına nail olunmalıdır.

Uzunmüddətli dövrdə dayanıqlı iqtisadi artımın təmin edilməsinin əsas vasitəsi investisiyadır. İnvestisiyalar təbii inhisar sahələrinə, neft sənayesinə, tikintiyə və infrastruktur layihələrinə deyil, əsasən yüksək əlavə dəyər yaradan sahələrə yönəldikdə dayanıqlı artımı təmin edə bilər.

Hal-hazırda Azərbaycanda iqtisadi artımın başlıca problemi iqtisadiyyatda mütərəqqi struktur dəyişikliyinin edilməsi və onun iqtisadi artıma nisbətən daha əhəmiyyət kəsb etməsidir. İqtisadi artımın tələb və bölgü amilərinin məhdud olması mövcud istehsal resurslarından dolğun istifadə olunmasına və saxlanılmasına, innovativ amillərdən istifadə edilməsinə stimulların aşağə düşməsinə səbəb olmuşdur.

dos. Q.S.Əlləzov

# Azərbay
# qeyri-neft

ÖLKƏNİN İQTİSADİ PRİORİTETLƏRİNİN MİLLİ İQTİSADİ MARAQLAR ƏSASINDA FORMALAŞDIRILMASI PROSESLƏRİ 2000-Cİ İLLƏRİN ƏVVƏLLƏRİNDƏN BAŞLAYARAQ, XEYLİ İNTENSİVLƏŞMİŞDİR. AZƏRBAYCAN BU DÖVRDƏ ÖZÜNÜN İQTİSADİ İNKİŞAF MODELİNİ FORMALAŞDIRA BİLMİŞ, İRİ REGİONAL LAYİHƏLƏRİN TƏŞƏBBÜSKARI VƏ HƏLLEDİCİ TƏRƏFDAŞI KİMİ ÇIXIŞ ETMƏYƏ BAŞLAMIŞDIR. BU PROSESLƏRLƏ YANAŞI, ARTIQ MİLLİ VƏ DÜNYA EKSPERTLƏRİNİN YEKDİL FİKİRLƏRİNƏ GÖRƏ, AZƏRBAYCAN İQTİSADİYYATI NEFT AMİLLƏRİNDƏN ASILI VƏZİYYƏTƏ DÜŞMƏSİ VƏ ÖLKƏNİN MƏLUM "HOLLAND SİNDROMU"NUN FƏSADLARINA MƏRUZ QALMAMASI ÜÇÜN ADEKVAT TƏDBİRLƏRİN GÖRÜLMƏSİNƏ ÇAĞIRIŞLARIN SƏSLƏNMƏSİ İNTENSİVLƏŞMİŞDİR

Azərbaycanda qeyri-neft sektorunda ixrac potensialından istifadənin tənzimlənməsi problemlərinin həllinə sistemli yanaşmanın vaxtının gəlib çatdığı və adekvat tədbirlərin görülməsi aktuallığı ilə xeyli diqqət cəlb etməyə başlamışdır.

Azərbaycanda son 10 ildə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi üçün geniş həcmli tədbirlər görülmüş, dövlətin bu sahədə iqtisadi siyasəti gücləndirilmiş, çoxlu sayda Prezident Fərmanları və Sərəncamları verilmiş, Dövlət Proqramları, Strategiyalar və Konsepsiyalar qəbul edilərək reallaşdırılmışdır. Bu kimi tədbirlərin bir çoxu hazırda icra proseslərini yaşayır. Bütün bunlara baxmayaraq, qeyri-neft sektoru hələlik yetərli artım tempi toplaya bilməmiş, ölkənin neftdən asılılığının əhəmiyyətli azalması öz həllini tam tapmamış və rəqabət qabiliyyətliliyi baxımından mövcud problemlərin bir hissəsi həll olunmamışdır.

Azərbaycanın beynəlxalq miqyaslı ən mühüm və strateji vəzifələrindən biri də xarici ticarət dövriyyəsinin diversifikasiyalaşdırılmasıdır. Ölkə ixracının quruluşunda rəqabətqabiliyyətli ixrac məhsullarının çeşidinin məhdudluğu ciddi problem olaraq qalmaqdadır. Bir çox ənənəvi sənaye sahələrinin ixrac potensialından (kimya, neft və neft-kimya maşınqayırması, metallurgiya və s.) zəif istifadə davam edilir. Ölkənin qeyri-neft sektorunun ixrac potensialının ümumi vəziyyəti ilə onun mövcud potensialı arasında xeyli fərq qalmaqdadır. Bu sahənin inkişafının sürətləndirilməsi, ixracın tənzimlənməsi, stimullaşdırılması tədbirlərinin, dövlət dəstəyi mexanizmlərinin mövcudluğuna baxmayaraq, bu işlərin səmərəliliyi artırılmalıdır. Qeyri-neft sektorunun ixrac potensialının artırılması üçün



# canın
# sektorunda
# ixrac potensialından istifadənin tənzimlənməsi

ilk növbədə milli iqtisadiyyatın özünün diversifikasiyalaşdırılması və modernləşdirilməsi prosesləri başa çatdırılmalı, innovasiyalaşdırılması sürətləndirilməlidir. Bundan əlavə, qeyri-neft sektorunun ölkənin təbii resursları və iqtisadi amilləri nəzərə alınmaqla, dərindən tədqiq edilməsi, onun potensialının obyektiv qiymətləndirilməsi zərurəti diqqəti cəlb edir.

Azərbaycanda qeyri-neft sektorunun ixrac potensialını formalaşdıran və şərtləndirən amillərin təsnifatını aşagıdakı sxem kimi vermək olar:

Sxemdən göründüyü kimi, təsnifatda verilmiş amillərin hər biri dövlətlərin iqtisadi siyasətlərində bu və ya digər formada iqtisadi siyasət mexanizmləri və iqtisadi rıçaqları, yəni dövlət tənzimləmələri qismində çıxış edirlər. Tədqiqat mate-



rialları və aparılmış araşdırmalar qeyri-neft sektorunun ixrac potensialının tənzimlənməsi ilə bağlı mühüm şərtlər kimi çıxış edən amillərin bir qrupunu fərqləndirməyə imkan vermişdir:

- milli iqtisadiyyatın dayanıqlı inkişafı və onun iqtisadiyyat sahələrinin diversifikasiyalaşdırılması problemləriinsistemli yanaşmanı, strateji hədəflərin müəyyənləşdirilməsini və prioritet iqtisadi siyasət mexanizmlərinin müəyyənləşdirilməsini zəruri edir;
- bazar iqtisadiyyatı strukturlarının inkişafının intensivləşdirilməsi, sahibkarlığın inkişafına dövlət dəstəyinin göstərilməsi, xarici ticarət fəaliyyətinin səmərəliliyinin artırılması prioritetlərinin tənzimlənməsi metodlarının effektivli modellərinin işlənib hazırlanması və reallaşdırılması;
- qeyri-neft sektorunda ixrac potensialına əlavə töhfələr vermək iqtidarında olan iqtisadiyyat sahələrinin potensialının öyrənilməsi və onlardan səmərəli istifadə mexanizmlərinin müəyyənləşdirilməsi;
- milli iqtisadiyyatın strateji iqtisadi inkişaf prioritetlərinə adekvat qeyri-neft sektoru əsaslı ixrac istiqamətlərinin obyektiv qiymətləndirilməsi və onların reallaşdırılması mexanizmlərinin təşkili prinsiplərinin optimallaşdırılması;
- qeyri-neft sektorunun ixrac potensialları üzrə dünya əmtəə bazarlarında intensiv hərəkət imkanlarına malik malların və məhsulların çeşidinin müəyyənləşdirilməsi və onların ixrac potensialı məcmusuna daxil edilməsi mexanizmlərinin tənzimlənməsi və s.

Ölkə iqtisadiyyatının dayanıqlı inkişafının başlıca istiqamətlərindən biri iqtisadiyyatın və onun ayrı-ayrı istehsal sahələrinin diversifikasiyasıdır. Emal sənayesinin müasir iqtisadi və texniki durumu diversifikasiya meylinin hər vasitə ilə gücləndirilməsini tələb edir. İqtisadiyyatının diversifikasiyalaşdırılmasının, ÜDM-də özəl sektorun və xidmət sahəsinin payının artırılmasının, sənaye sahələrində, o cümlədən neft-qaz maşınqayırması, neft-kimya, metallurgiya, cihazqayırma, tikinti materialları istehsalı, aqrar sektor və kənd təsərrüfatı məhsulları istehsalı sahələrində inkişafın sürətləndirilməsinin, yeni iqtisadiyyat sahələrinin – İKT, turizm və kosmik sənayesinin rolunun gücləndirilməsinin, xarici ticarət dövriyyəsi strukturunun diversifikasiyalaşdırılmasının vacibliyi müasir dövrdə aktuallığı ilə diqqəti cəlb edir.

Qeyri-neft sektorunun təhlili və tədqiqi üzrə araşdırmalar bu qənaətə gəlməyə imkan verir ki, sektorun potensialının daha ciddi arqumentlərlə qiymətləndirilməsi və təhlili üçün bir qrup strateji meyarlar ciddi nəzərə alınmalıdır:

- ilk növbədə, qeyri-neft sektorunun prioritetliyi nəzərə alınmaqla, ölkə iqtisadiyyatının inkişaf tendensiyalarına adekvat istiqamətlərin müəyyənləşdirilməsi, mövcud resurslardan səmərəli istifadə olunması və onların bazasında müxtəlif qeyri-neft sektorlarının inkişafının əsaslandırılması və təşkili;
- təbii ehtiyatlar hesabına emal müəssisələrinin yaradılması prosesləri ilə əmək ehtiyatlarının məhsuldar yerləşdirilməsi baxımından uzlaşdırılması, regionlarda sənaye zonalarının, sənaye məhəllələrinin, aqrar şəhərciklərin, aqrar komplekslərin, elm-innovasiya və klaster təyinatlı kənd təsərrüfatı və aqrar holdinqlərin təşkilinə baxılmalı;
- kənd təsərrüfatı və aqrar sektora dövlət dəstəyi mexanizmlərinin bu sektorun qarşısında duran müasir vəzifələr baxımından təkmilləşdirilməsi proseslərinin intensivləşdirilməsi və s.

Müasir dövrdə Azərbaycanın milli iqtisadi inkişaf proseslərində milli iqtisadi maraqların qorunması və ölkənin dünya iqtisadi sisteminə uğurlu inteqrasiyası baxımından daha çox elmi diskussiyalara və müzakirələrə səbəb olan problemlərdən biri də qeyri-neft sektoru ixracının səmərəlilik məsələləridir.

Qeyd etmək lazımdır ki, hazırkı şəraitdə qeyri-neft ixracının stimullaşdırılması, ixrac potensialının tənzimlənməsinin effektivli mexanizmlərinin işlənib hazırlanması, təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi məsələsi olduqca aktualdır.

Bu məqsədlə qeyri-neft sektorunda ixrac potensialının bu sektorunun fəaliyyət istiqamətləri üzrə bir qrup təkmilləşdirilmə istiqamətlərini qeyd etməyi məqsədəuyğun hesab edirik:



Emal sənayesinin müasir iqtisadi və texniki durumu diversifikasiya meylinin hər vasitə ilə gücləndirilməsini tələb edir.

# >> Təklif

İxrac potensialını gücləndirə biləcək sənaye zonalarının, sənaye parklarının, sənaye məhəllələri kompleksinin ölkənin təbii ehtiyatları, coğrafi (regional) amilləri nəzərə alınmaqla, təşkili və genişləndirilməsi proseslərinin təşkili optimal idarəedilməsi mexanizmləri işlənib hazırlanmalıdır



- qeyri-neft sektorunda ixrac potensialının tənzimlənməsinin müasir vəziyyətinin baza elementlərinin dünya qlobal inkişafı proseslərinə adekvatlığı səviyyəsində təkmilləşdirmənin aparılması;
- qeyri-neft sektorunun ixrac potensialının real indikatorlar əsasında gücləndirilməsinin təşkili tədbirlərinin intensivləşdirilməsi;
- qeyri-neft sektoru sahələrinin investisiya mühitinin yaxşılaşdırılması, xarici investorların bu sektorun sahələrinə gəlməsi tədbirlərinin şaxələndirilməsi;
- ixrac yönümlü sahibkarlıq subyektlərinin rəqabət qabiliyyətliliyinin real qiymətləndirilməsi, zəruri tədbirlərin görülməsi, işlək mexanizmlərin tətbiq edilməsi;
- xarici ticarət dövriyyəsinin, xüsusilə ixracın strukturunda qeyri-neft sektorunun payının artırılmasının sürətləndirilməsi üçün prioritet istiqamətlərin reallaşdırılması, bu istiqamətlərdə ayrı-ayrı ixrac elementlərinin gücləndirilməsinin təmin olunması;
- ixrac potensialını gücləndirə biləcək sənaye zonalarının, sənaye parklarının, sənaye məhəllələri kompleksinin ölkənin təbii ehtiyatları, coğrafi (regional) amilləri nəzərə alınmaqla, təşkili və genişləndirilməsi proseslərinin təşkili;
- qeyri-neft sektorunda ixrac potensialının yüksəldilməsində xarici investorların iştirakının sürətləndirilməsi, xarici investisiyaların cəlbinin genişləndirilməsi üçün xüsusi iqtisadi zonalar institutunun Azərbaycanın iqtisadi sisteminə daxil edilməsinin başa çatdırılması və bu kimi zonaların yaradılmasına başlanılması;
- yüksək rəqabət qabiliyyətinə malik İKT sektorunun inkişafında intensivləşdirmə proseslərini təmin etmək, bu sahənin ölkə iqtisadiyyatının innovasiyalaşdırılmasında və ixractəyinatlı yüksək elmtutumlu və kapitaltutumlu mal və məhsulların istehsalının həcminin artırılması, xidmətlərin, çeşidinin genişləndirilməsi;
- son vaxtlar inkişaf prosesləri gücləndirildiyi metallurgiya sənayesi müəssisələrinin fəaliyyətlərinin səmərəli təşkili ilə bərabər, bu sahədə ixrac potensialının artırılması məqsədilə, rəqabətqabiliyyətli və ixrac oluna bilən metallurgiya sənayesi məhsullarının istehsalının stimullaşdırılması;
- ölkəmizin kənd təsərrüfatı və aqrar sektor üzrə beynəlxalq ekspertlər tərəfindən qəbul edilən müqayisəli üstünlük elementləri, bu sahələrdəki yüksək potensialdan çıxış etsək, ixrac təyinatlı məhsulların dünya bazarlarına çıxarılması istiqamətində daha effektivli tədbirlərin görülməsi, zəruri halda əlavə olaraq, yeni Dövlət proqramının, məsələn, "AR-nın kənd təsərrüfatı sektorunda və aqrar sənaye kompleksində 2015-2020-ci illərdə ixrac potensialının genişləndirilməsi tədbirlər üzrə Dövlət Proqramı"nın işlənib hazırlanması və qəbul edilməsi;
- qeyri-neft ixrac potensialının artırılmasında müstəsna rolu olan regionların təsərrüfat subyektlərinin və xarici ticarət fəaliyyəti iştirakçılarının xarici bazarlarda mövqelərinin möhkəmləndirilməsi, onların maraqlarının müdafiəsinin gücləndirilməsi, bu sahədə effektivli tədbirlərin görülməsi hesabına regionların qeyri-neft sektoru ixrac potensialının artırılmasında fəal iştirakının təmin edilməsi və s.
- ölkənin qeyri-neft sektorunun ixrac potensialının yüksəldilməsi məqsədilə daha müasir və ünvanlı xarakter daşıyan xarici investisiyaların cəlb edilməsi üzrə dövlət siyasəti formalaşdırılmalı, bu investisiyalarının cəlbi, yönəldilməsi və səmərəli istifadəsi proseslərinin optimal idarə edilməsi mexanizmləri işlənib hazırlanmalıdır.

Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev göstərmişdir ki, "Uzun illər Azərbaycan iqtisadiyyatına qoyulan vəsait, şaxələndirmə siyasəti, qeyri-neft sektorunun inkişafı imkan verir ki, iqtisadiyyatımız dayanıqlı surətdə inkişaf etsin, bir sektordan – neft-qaz sektorundan asılı olmasın. Hətta dünyada neftin qiymətinin kəskin şəkildə düşməsi bizim ümumi iqtisadi inkişafımıza təsir etməmişdir. Budur, Azərbaycanın iqtisadi modelinin unikallığı və bu göstəricilər bizim seçdiyimiz yolun nə qədər düzgün olmasını bir daha göstərir".

i.e.d., prof. A.Ş.Şəkərəliyev

# Süni p

# və onun iqtisadi təsi

Yəqin ki , bir çoxlarımız bu tarixi məlumatdan qurur hissi duyur, lakin bu hissi yalnız bizim hər hansı yüksək texnologiyaya sahib olmaq deyil, həm də bu peykə sahibliyin ölkə iqtisadiyyatına gətirə biləcəyi gəlirlərin mümkünlüyü yaradır.

Nə qədər adi görünsə də, əksəriyyət süni peykin məzmunu, fəaliyyəti və bu texnologiyanın gətirə biləcəyi iqtisadi gəlirlərin mənbəsi haqda daha ətraflı məlumat əldə etmək istəyir.

Süni peyk nədir?

Əvvala, süni peyk yerin ətrafında pilotsuz uçan kosmik aparatdır. Yerin ətrafında hərəkət etmək üçün aparat birinci kosmik sürətdən bir az artıq sürətə malik olmalıdır. Onlar 150-160 km-dən bir neçə min km məsafədə olan hündürlükdə uçurlar. Peykin orbit üzrə hərəkəti bir neçə saat ilə bir neçə gün arasında yerləşir. Süni peyklər elmi tədqiqatlar üçün geniş tətbiq olunur (məsələn, hərbi peyklər, meteoroloji peyklər, naviqasiya peykləri, rabitə peykləri və s.). Süni peykin ən məşhur variantı insanların kosmosda uzun müddət qalması üçün tətbiq olunan variantıdır.

Dünyada ilk süni peyk 04 oktyabr 1957-ci ildə SSRİ tərəfindən buraxılmış Sputnik 1-dir.

2-ci suni peyk 1958-ci ildə ABŞ, sonra 1962-ci ildə Böyük Britaniya və az sonra elə həmin il Fransa tərəfindən kosmosa buraxılmışdır.

Dünyada 62 ölkə sputniklərə sahibdir. Bunların sonuncusu 2014-cü ildə Litva olmuşdur. Hal-hazırda ən çox sputnikə Rusiya malikdir - 1454, ikinci yerdə ABŞ-dır-1113 "Azərspace/Afrikasat-1A" telekommunikasiya peykinin işlənib hazırlanması 2 il bundan əvvəl bağlanmış müqaviləyə əsasən, rəsmi Bakı tərəfindən ABŞ-ın "Orbital Sciences Corporation" şirkətinə həvalə edilib. "Azərspace/Afrikasat-1A" peykinin kosmik orbitə çıxarılması şərtlərinə dair müvafiq ikitərəfli müqavilə 2010-cu il noyabrın 5-də imzalanıb.

"Azərspace/Afrikasat-1A" peyki Malayziyanın "MEASAT Satellite Systems" şirkəti ilə əldə edilmiş razılığa əsasən, bu ölkənin kosmik orbitindən gecə saat 01.36 və 02.20 arasında uçurulub.

Malayziyaya Beynəlxalq Telekommunikasiya İttifaqı tərəfindən ayrılmış kosmik orbitdən Azərbaycan icarə razılaşması əsasında istifadə edir.

Peykin geostasionar orbitə çıxarılmasına isə "Ariane -5" raketdaşıyıcısını istehsal edən Fransanın "Arianespace" şirkəti cavabdehdir.

Azərbaycanın ilk rabitə peykinin ümumi çəkisi 3250 kq təşkil edir və onun istifadə müddəti 15 ildir.

Layihənin ümumi dəyəri təxminən 250 milyon ABŞ dolları təşkil edir.

Layihənin 15%-i Azərbaycan Respublikasının Dövlət büdcəsi hesabına, 85%-i isə xaricdən alınan kreditlər hesabına həyata keçirilir.

Peyk vasitəsilə Bakı Şərqi Avropa, Şimali Afrika, Mərkəzi Asiya, Qafqaz ölkələri və Yaxın Şərq regio-



nuna yüksək keyfiyyətli telekommunikasiya və yayım xidmətləri təklif etmək imkanı qazanıb.

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin yerli mediaya verdiyi açıqlamalara əsasən, "peykin imkanlarının 20%-i Azərbaycanın tələbatını ödəmək üçün, qalan 80%-i isə kommersiya məqsədilə istifadə ediləcək".

Peykin resurslarının 40 faizinin istifadəsi üçün

# eyklər

## 08.02.2013-cü il tarixində Azərbaycanın ilk süni peyki buraxıldı .

ri

isə artq müvafiq müqavilələr razılaşdırılıb.

Azərbaycanda peyklərin idarə olunması üçün regional idarəetmə mərkəzləri yaradılıb. Əsas mərkəz Güzdək qəsəbəsində, ehtiyat idarəetmə mərkəzi isə Naxçıvanın Culfa rayonundadır.

Peyk layihəsinin Azərbaycana əsas faydası nədən ibarətdir:

Peyk layihəsi yalnız informasiya təhlükəsizliyinin təmin edilməsi və xarici ölkələrdən informasiya asılılığın ortadan qaldırılması baxımından deyil, eyni zamanda mövcud insan ehtiyatları və intellektual potensialın inkişaf etdirilməsi, elm tutumlu və innovasiya yönümlü iqtisadiyyatın təşəkkül tapması üçün də böyük əhəmiyyət kəsb edir.

Kosmik fəzadan və peyk xidmətlərindən səmərəli istifadə etməklə iqtisadi, sosial, elmi,



mədəni, təhlükəsizlik və s. sahələrin inkişaf etdirilməsi məqsədilə "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı" qəbul olunmuşdur.

Ölkəmiz üçün yeni sənaye sahəsi olduğu üçün peyklərin idarə edilməsi və istismarı, kosmik avadanlıqların istehsalı, kosmik məlumatların alınması və emalı üzrə kadr hazırlığı kosmik sənaye potensialının yaradılması üçün xüsusi əhəmiyyət kəsb edir.

2012-ci ilin sonunda ilk telekommunikasiya peykinin, 2013-cü ildə aşağı orbitli peykin, daha sonrakı illərdə isə digər telekommunikasiya peyklərinin orbitə buraxılması hazırda bizi peyk rabitə xidmətlərinin istifadəçisindən təminatçısına çevirərək, eyni zamanda gələcəkdə bu sahə üzrə istehsalçı və beynəlxalq bazarın iştirakçısı qismində çıxış etməyimiz, habelə dünya informasiya məkanına inteqrasiyamız üçün güclü elmi-texniki və iqtisadi zəmin hazırlayır.

- Peykin idarəsi və istismar edilməsi "Azərkosmos" ASC-də çalışan azərbaycanlı mütəxəssislər tərəfindən həyata keçirilir.

Bu mütəxəssislər mütəmadi olaraq xarici ixtisasartırma kurslarında və peykin idarə edilməsi üzrə müxtəlif təlimlərdə iştirak edirlər, texniki hazırlıq səviyyələrini artırmaq üçün iş aparırlar.

Ölkəmizdə kosmik sənayenin yaradılması və inkişaf etdirilməsi ilə əlaqədar elmi potensialın artırılması və ixtisaslı kadr hazırlığının təmin edilməsi məqsədilə, yerli ali təhsil müəssisələrində kosmik sahədə mövcud peşə istiqamətləri üzrə dövlət sifarişli qəbula diqqət artmaqda davam edir.

Belə ki Nazirlər Kabinetinin 5 aprel 2012-ci il tarixli qərarı ilə texniki və texnoloji ixtisaslar qrupu üzrə bakalavriat səviyyəsində "kosmik texnologiyalar mühəndisliyi", "kosmik texnika mühəndisliyi", "kosmik idarəetmə sistemləri mühəndisliyi" ixtisasları, magistratura səviyyəsində isə "kosmik texnika və texnologiya mühəndisliyi" ixtisası yaradılıb.

Ümumiyyətlə, gələcəkdə ölkəmizdə kosmik sənayeyə olan marağın, xüsusilə də mütəxəssislər və yüksək təhsilli kadrlar üçün tələbatın çoxalacağı gözlənilir.

Dos.Aida Quliyeva

# Xoşbəxtlik indeksi

## və dünyadakı vəziyyət

XOŞBƏXTLİK İQTİSADİYYATI İSTİQAMƏTİNDƏKİ ARAŞDIRMALARDAN BƏZİLƏRİ İNFLYASİYA VƏ İŞSİZLİK GÖSTƏRİCİLƏRİNİN XOŞBƏXTLİK SƏVİYYƏSİNƏ OLAN TƏSİRLƏRİNİ ÖYRƏNİR. AYDINDIR Kİ, HƏR İKİ İQTİSADİ FENOMEN ÜMUMİ XOŞBƏXTLİK SƏVİYYƏSİNƏ NEQATİV TƏSİR GÖSTƏRİR. ANCAQ APARILAN TƏDQİQATLAR GÖSTƏRİR Kİ, İŞSİZLİK SƏVİYYƏSİNİN İNFLYASİYA GÖSTƏRİCİLƏRİ İLƏ MÜQAYİSƏDƏ XOŞBƏXTLİK SƏVİYYƏSİNƏ NEQATİV TƏSİRİ DAHA GÜCLÜDÜR.

Təxminən ötən əsrin 70-ci illərindən etibarən xoşbəxtlik mövzusu iqtisad elminin yeni və maraq doğuran araşdırma obyektlərindən biri olmuşdur. Bu istiqamətin tədqiqi ilk olaraq amerikan iqtisadçısı Riçard İsterlinin adı ilə bağlıdır. Məhz onun 1974-cü ildə iqtisadi inkişaf və xoşbəxtlik arasındakı əlaqəni araşdıran məqaləsi müasir xoşbəxtlik iqtisadiyyatının başlanğıcı hesab olunur. Eyni zamanda İsterlinin bu araşdırmasında gəldiyi nəticə, sonralar "İsterlin paradoksu" adlanan fenomen bu istiqamətin sonrakı inkişafına və tədqiqat predmetinə ciddi təsir göstərmişdir. Sonralar aparılan araşdırmaların əksəriyyətində bir qayda olaraq bu məqalənin əldə etdiyi nəticə müxtəlif aspektlərdən izah edilməyə çalışılmışdır. İlk öncə qeyd edək ki, xoşbəxtliyin bir anlayış kimi iqtisad elminin tədqiqat hədəfinə çevrilməsi, iqtisadi göstərici kimi ölçülməsi müxtəlif dövrlərdə cəmiyyətin və insanların rifahının daha dolğun kriteriyasının müəyyən edilməsi ətrafında olan müzakirələrdən ortaya çıxmışdır. İnsanların rifahının ölçülməsində, müqayisə edilməsində mərkəzi rol alan Ümum Daxili Məhsul ölçüsünün qeyri-təkmilliyi və natamamlığı bir çox iqtisadçıların və ictimai xadimlərin uzun dövrlər müdafiə etdiyi fikir olmuşdur. Robert Kennedi bu barədə məşhur çıxışında deyirdi: "... bir sözlə, ÜDM həyatı dəyərli edən nəsnələrdən başqa hər şeyi ölçür". Bu ilin Davos forumunda Nobel mükafatlı iqtisadçı Cozef Stiqlitz də ÜDM-in fərdlərin rifahını ölçmək üçün uyğun ölçü olmadığını qeyd etdi. Doğrudur, xoşbəxtliyin bir iqtisadi və sosial göstərici kimi ölçülməsi üsulu, özündə ifadə etdiyi informasiya bunu ÜDM meyarının birbaşa alternativi etmir. Çünki xoşbəxtliyin ölçülməsi ÜDM



İLK OLARAQ RİÇARD İSTERLİNİN TƏSBİT ETDİYİ, ONUN ADI İLƏ BAĞLI OLAN BU PARADOKS XOŞBƏXTLİK İQTİSADİYYATININ SONRAKI İNKİŞAF İSTİQAMƏTİNƏ CİDDİ TƏSİR GÖSTƏRMİŞDİR. BİR ÇOX TƏDQİQATÇILAR SUBYEKTİV XOŞBƏXTLİK ÖLÇÜSÜNƏ TƏSİR GÖSTƏRƏN DİGƏR MEYARLARI DA MÜƏYYƏN EDƏRƏK, HƏMİN MEYARLAR ÜZƏRİNDƏN BU ZİDDİYYƏTİ ƏSASLANDIRMAĞA ÇALIŞMIŞLAR.



və buna bənzər digər ölçülərdən fərqli olaraq obyektiv yox, məhz subyektiv qaydada, yəni müəyyən olunmuş sayda respondentlərin subyektiv cavabları əsasında həyata keçirilir. Bunun üçün də xoşbəxtlik iqtisadiyyatında çox zaman "xoşbəxtlik" ifadəsinin əvəzində "subyektiv xoşbəxtlik" terminindən istifadə olunur. Ancaq geniş və əhatəli məlumatlar əsasında hazırlanan dolğun "subyektiv xoşbəxtlik" ölçüsü gəlir bərabərsizliyi, inflyasiya, işsizlik kimi iqtisadi faktorların, ekoloji çirklənmə və iqlim dəyişikliyinin, idarəçiliyin və institusional şərtlərin insanların gündəlik və uzunmüddətli rifah səviyyəsinə təsirlərinin empirik araşdırmasında önəmli rol oynaya bilər. Bu araşdırmaların nəticələri də cəmiyyətin rifahının yüksəldilməsində məsul olan iqtisadi və siyasi idarəçilər üçün iqtisadi və siyasi addımların qiymətləndirilməsində önəmli vasitə ola bilər.



**"İsterlin paradoksu" və xoşbəxtliyə təsir göstərən amillər**

İsterlin paradoksu gəlir və xoşbəxtlik göstəricisinin artımı arasındakı əlaqəni, əslində, əlaqəsizliyi ifadə edən konseptdir. Riçard İsterlin 1974-cü ildəki məqaləsində ABŞ nümunəsini araşdıraraq, adambaşına düşən ÜDM artımının ölkənin ümumi xoşbəxtlik səviyyəsinin artımına təsir göstərmədiyini təqdim etmişdir. Əslində, həm İsterlinin həmin araşdırmasında, həm də digər başqa işlərdə gəlir artımının xoşbəxtlik səviyyəsinə pozitiv təsiri fərdi səviyyədə aşkarlanmışdır. İsterlinin ABŞ üzrə aparılan həmin araşdırmasında zənginlərin də kasıblara nisbətən daha yüksək subyektiv xoşbəxtlik göstəricisi qeydə alındığını təqdim edir. Lakin müəllif həm də göstərir ki, 1946-1970-ci illər arasında ABŞ-da adambaşına düşən gəlirin iki dəfə artmasına baxmayaraq, ölkə üzrə orta xoşbəxtlik göstəricisi eyni səviyyədə qalmışdır. Sonralar bu paradoksal nəticə digər ölkələr üzərində aparılan tədqiqalarda da qarşıya çıxmışdır. Riçard Layard, Blançflauer, Osvald kimi tədqiqatçılar tərəfindən Böyük Britaniya, Fransa, Almaniya kimi ölkələrin nümunəsində də adambaşına düşən gəlir artımının ümumi xoşbəxtlik göstəricisinin səviyyəsinə təsir göstərmədiyi müəyyən edilmişdir. Riçard İsterlin özünün 1995-ci ildəki məqaləsində isə Yaponiyada 1958-ci ildən 1991-ci ilə qədər adambaşına düşən ÜDM-in beş dəfə artmasına baxmayaraq, ölkə üzrə ümumi xoşbəxtlik səviyyəsinin dəyişmədiyini təqdim edir.

Qeyd etdiyimiz kimi, ilk olaraq Riçard İsterlinin təsbit etdiyi, onun adı ilə bağlı olan bu paradoks xoşbəxtlik iqtisadiyyatının sonrakı inkişaf istiqamətinə ciddi təsir göstərmişdir. Bir çox tədqiqatçılar subyektiv xoşbəxtlik ölçüsünə təsir göstərən digər meyarları da müəyyən edərək, həmin meyarlar üzərindən bu ziddiyyəti əsaslandırmağa çalışmışlar. Bir qrup araşdırmaçılar isə iddia edirlər ki, adambaşına düşən gəlir artımı subyektiv xoşbəxtlik göstəricisinin artımına təsir göstərir; lakin müəyyən gəlir səviyyəsindən sonra bu təsir ya aradan qalxır, ya da azalır. Məsələn, İnqlehart 2000-ci ildəki yazısında 10,000 dollar səviyyəsinə qədər olan gəlir artımının xoşbəxtliyin artımına pozitiv təsir göstərdiyini qeyd edir. Bu həddən sonrakı gəlir artımı ilə xoşbəxtlik səviyyəsi arasında isə çox zəif əlaqə olduğunu göstərir. Bu yanaşmanın müdafiəçiləri hesab edirlər ki, ÜDM-in artımı da müəyyən kritik

## TƏMƏL GÖSTƏRİCİ

İnsanların rifahının ölçülməsində, müqayisə edilməsində mərkəzi rol alan Ümum Daxili Məhsul ölçüsünün qeyri-təkmilliyi və natamamlığı bir çox iqtisadçıların və ictimai xadimlərin uzun dövrlər müdafiə etdiyi fikir olmuşdur... Nobel mükafatlı iqtisadçı Cozef Stiqlitz də ÜDM-in fərdlərin rifahını ölçmək üçün uyğun ölçü olmadığını qeyd etdi.

<<

**BİR QRUP ARAŞDIRMAÇILAR İSƏ İDDİA EDİRLƏR Kİ, ADAMBAŞINA DÜŞƏN GƏLİR ARTIMI SUBYEKTİV XOŞBƏXTLİK GÖSTƏRİCİSİNİN ARTIMINA TƏSİR GÖSTƏRİR; LAKİN MÜƏYYƏN GƏLİR SƏVİYYƏSİNDƏN SONRA BU TƏSİR YA ARADAN QALXIR, YA DA AZALIR.**

həddən sonra ölkələrin ümumi xoşbəxtlik səviyyəsinə təsir göstərmir. Bu istiqamətin ən məşhur təmsilçilərindən biri də iqtisad üzrə sonuncu Nobel mükafatı laureatı Anqus Ditondur. Diton və Kahneman ortaq araşdırmalarının nəticəsində kritik hədd kimi 75000 dolları hesab edirlər. Müəlliflər bu miqdardan yuxarı illik gəlirin xoşbəxtlik səviyyəsinin müəyyənləşməsində əhəmiyyət daşımadığını qeyd edirlər. Diton və Kahneman həm də qeyd edirlər ki, 75000 dollar illik gəlirdən aşağı qazanan insanların həyatlarında ailə, sağlamlıq, iş sahəsindəki çətinliklər onların xoşbəxtlik səviyyələrinə illik 75000 dollardan çox qazananlara nəzərən daha ağır təsir göstərir.

İsterlin paradoksunu əsaslandırmaq üçün irəli sürülən arqumentlərdən biri də subyektiv xoşbəxtlik səviyyəsinin mütləq gəlirlərlə yanaşı, nisbi gəlirlərdən də təsirlənməsidir. İsterlinin özü də 1974-cü ildəki məqaləsində xoşbəxtlik səviyyəsinin nisbi istehlak səviyyəsindən təsirləndiyini qeyd edir. Yəni fərdin istehlakının həcminin ətrafdakıların istehlakının həcminə olan nisbəti onun subyektiv xoşbəxtlik səviyyəsinə təsir göstərə bilər. Bu baxımdan, İsterlin qeyd edir ki, hər kəsin gəlirlərinin artması nisbi gəlirləri, yaxud da nisbi istehlakı sabit saxladığından ümumi xoşbəxtlik səviyyəsinin də dəyişməz qalması mümkündür.

Bu tezisə müəyyən qədər yaxın araşdırma istiqamətlərindən biri də gəlir bərabərsizliyinin xoşbəxtlik səviyyəsinə olan təsirləridir. Bir qrup müəlliflər ABŞ nümunəsində intihar hadisələrini xoşbəxtlik səviyyəsinin müəyyənedicisi kimi götürərək apardıqları tədqiqatda gəlir bərabərsizliyi ilə intihar halları arasında sıx bağlılıq aşkarlamışlar. Oxşar istiqamətli digər araşdırmalarda gəlir bərabərsizliyinin xoşbəxtlik səviyyəsinə olan təsirləri barədə fərqli nəticələr ortaya çıxmışdır. Alesina, Di Tella və Mak Kullox apardıqları araşdırmada Avropa üçün gəlir bərabərsizliyinin xoşbəxtlik səviyyəsinə neqativ təsirini aşkarlamışlar, lakin eyni nəticə ABŞ üçün əldə olunmayıb. Müəlliflər qeyd edir ki, Avropadakı insanlar cəmiyyətdəki bərabərliyi amerikalılarla müqayisədə daha üstün tuturlar. Bu istiqamətdə Qrehem və Felton 2005-də Latın Amerikası ölkələri nümunəsində apardıqları tədqiqatda isə cəmiyyətdəki gəlir bərabərsizliyinin kasıb təbəqənin xoşbəxtlik səviyyəsinə neqativ, zənginlərin xoşbəxtlik səviyyəsinə isə pozitiv təsirini müəyyən ediblər. Qrehem və Feltonun araşdırmasında gəlir bərabərsizliyi ilə yanaşı, irqi, gender və başqa bu kimi bərabərsizliklərin də xoşbəxtlik səviyyəsinə neqativ təsiri qeyd olunur. Qeyd edək ki, yuxarıda sadalanan iqtisadi faktorlardan əlavə olaraq, qeyri-iqtisadi faktorların da xoşbəxtlik səviyyəsinə təsiri barədə geniş araşdırmalar aparılmışdır. Frey və Ştutzer kimi bir çox müəlliflər ölkələr üzrə demokratiyanın, siyasi, iqtisadi və fərdi azadlıqların genişliyinin, ictimai institutların şəffaflıq səviyyəsinin də subyektiv xoşbəxtlik göstəricisi ilə pozitiv əlaqəsini göstərmişdir.

Xoşbəxtlik iqtisadiyyatı istiqamətindəki araşdırmalardan bəziləri isə inflyasiya və işsizlik göstəricilərinin xoşbəxtlik səviyyəsini olan təsirlərini öyrənir. Aydındır ki, hər iki iqtisadi fenomen ümumi xoşbəxtlik səviyyəsinə neqativ təsir göstərir. Ancaq aparılan tədqiqatlar göstərir ki, işsizlik səviyyəsinin inflyasiya göstəriciləri ilə müqayisədə xoşbəxtlik səviyyəsinə neqativ təsiri daha güclüdür. Di Tella, Mak Kullox və Osvald apardıqları araşdırmada göstərirlər ki, işsizlik səviyyəsinin 1 faizlik artımı inflyasiya səviyyəsinin 1 faizlik artımı ilə müqayisədə xoşbəxtlik səviyyəsini 1,66 dəfə daha çox azaldır. Volfers də 16 Avropa ölkəsi üzrə 500,000 insanın sorğusundan əldə olunan məlumata əsaslanan tədqiqatında inflyasiya və işsizliyin ümumi xoşbəxtlik səviyyəsini azaltdığını qeyd edir. Lakin öncəki nəticədən fərqli olaraq Volfers hesab edir ki, 1 faiz işsizlik səviyyəsi xoşbəxtlik səviyyəsini 1 faiz inflyasiya səviyyəsindən 5 dəfə daha çox azaldır. Xoşbəxtlik iqtisadiyyatında bu istiqamətdəki əldə olunan araşdırma nəticələri iqtisadi siyasəti müəyyən edənlər üçün inflyasiya-

## TƏMƏL GÖSTƏRİCİ

Geniş və əhatəli məlumatlar əsasında hazırlanan dolğun "subyektiv xoşbəxtlik" ölçüsü gəlir bərabərsizliyi, inflyasiya, işsizlik kimi iqtisadi faktorların, ekoloji çirklənmə və iqlim dəyişikliyinin, idarəçiliyin və institusional şərtlərin insanların gündəlik və uzunmüddətli rifah səviyyəsinə təsirlərinin empirik araşdırmasında önəmli rol oynaya bilər.

işsizlik dilemmasında qərar qəbulu üçün köməkçi vasitə ola bilər.

**Qlobal xoşbəxtlik hesabatı**

Qlobal xoşbəxtlik hesabatlarında ölkələrin sıralamasını nəzərdən keçirsək, xoşbəxtlik səviyyəsinə təsir göstərmək imkanı olan amillərin təsirlərini daha aydın şəkildə sezmək mümkündür. Bu hesabatlardan daha dolğunu 2012-ci ildən etibarən BMT-nin dəstəklədiyi "Sustainable Develoment Solutions Network" tərəfindən "Gallup World Poll" sorğu mərkəzinin topladığı məlumatlar əsasında hazırlanan dünya xoşbəxtlik hesabatıdır. 2015-ci ildə açıqlanan son hesabatdakı xoşbəxtlik səviyyəsi sıralamasında ilk onluğu İsveçrə, İslandiya, Danimarka, Norveç, Kanada, Finlandiya, Hollandiya, İsveç, Yeni Zenlandiya və Avstraliya təşkil edir.

İsveçrə uzun ömürlülük səviyyəsinə, yüksək gəlirlərə və yüksək insan inkişafı amilinə görə sıralamada ilk sırada dayanır. İsveçrənin, eyni zamanda birbaşa demokratiyanın tətbiqinin ən yaxşı nümunələrindən biri olması da burada təsiredici amillərdən biridir. İslandiya isə çox yüksək məşğulluq və 100% savadlılıq səviyyəsi ilə bu sıralamada ikincidir. İslandiya həm də gender bərabərliyinin uğurla həyata keçirildiyi modellərdən biridir. Siyahıda üçüncü sırada olan Danimarka da gender bərabərliyi, işçi haqları, vətəndaşlar üçün pulsuz səhiyyə və təhsil kimi faktorların təsiri ilə yüksək xoşbəxtlik indeksinə malikdir. Norveç isə özünün yüksək məşğulluq, əmək haqqı, mənzil sahibi olma, ətraf mühit şəraiti, səhiyyə və təhlükəsizlik göstəricilərinə görə bu sırada dördüncüdür. İlk beşlikdəki ölkələrdən biri olan Kanada isə dünyanın ən azad ölkəsi hesab olunur. Qeyd olunur ki, bu ölkədə əhalinin 70 faizdən artığı mənzil və avtomobil sahibidir. Pulsuz səhiyyə, yüksək sağlamlıq səviyyəsi, sosial müdafiə, gender və yaş bərabərliyi amilləri də Kanadanın yüksək xoşbəxtlik indeksinin səbəbləridir.

Sıralamada son 20-likdə isə müharibə və terrordan əziyyət çəkən Suriya və Əfqanıstanla yanaşı, Afrikanın Saxara və Sub-Saxara bölgəsindəki ölkələr yer alır. Nikaraqua və Zimbabve 2012 və 2014-cü illər arasında xoşbəxtlik səviyyəsində ən yüksək artım müşahidə olunan ölkələrdir. Xoşbəxtlik indeksində ən böyük geriləmə isə iqtisadi böhranın gətirdiyi səbəblərdən Yunanıstanda qeydə alınmışdır. Ən böyük geriləmənin baş verdiyi digər ölkələr isə Misir, İtaliya və Səudiyyə Ərəbistanıdır.

Qeyd olunduğu kimi, maliyyə böhranın doğurduğu makroiqtisadi amillərin təsirilə Yunanıstan, İspaniya, İtaliya böhran öncəki dövrlə müqayisədə xoşbəxtlik indeksində ən çox geriləmə müşahidə olunan 10 ölkədən 3-dür. Lakin maraqlıdır ki, maliyyə böhranından ən ciddi zərbə alan ölkələrdən olan İrlandiya və İslandiyada isə xoşbəxtlik indeksinin səviyyəsində cüzi eniş baş vermişdir. Məhz sosial və institusional faktorlar bu ölkələrdə iqtisadi böhranın xoşbəxtlik indeksinə olan neqativ təsirini əhəmiyyətli dərəcədə önləmişdir. Digər tərəfdən soyuq iqlimli ölkələrin, bir qayda olaraq, daha yüksək xoşbəxtlik səviyyəsinə malik olması faktı da maraqlı və araşdırmaya açıq mövzulardan biridir.

Əhliman Abbasov



Avropadakı insanlar cəmiyyətdəki bərabərliyi amerikalılarla müqayisədə daha üstün tuturlar.

**Hesabatdakı ən xoşbəxt 20 ölkə və ölçü meyarları**



# vəz

Maliyyə bazarındakı vəziyyət daşınmaz əmlak bazarının göstəricilərinə birbaşa təsir edir. Bu təsir respublikamızda da son zamanlar hiss edilməkdədir. Buna əsas səbəbini isə daha çox dünyada neftin qiymətinin azalması fonunda gəlirlərimizin azalması, dollar qarşısında manatın məzənnəsinin aşağı düşməsi, ölkə iqtisadiyyatında inhisarçılığın səviyyəsinin hələ də bir qədər yüksək olması, qiymətli kağızlar bazarının, fond birjasının nisbətən zəif fəaliyyəti ilə izah etmək olar.

Ölkədə bazar iqtisadiyyatının formalaşmasına baxmayaraq, bazarın tələbləri və sərt qaydaları barəsində əhalinin məlumatı olduqca azdır. Əhalidə kredit ənənəsi formalaşmamışdır. Bu ənənənin formalaşmasında gəlirlərin bir hissəsinin sənədləşdirilməməsi nəticədə həmin vəsaitin kredit imkanlarından istifadə edilməməsi ilə nəticələnir. İstehlakçının kredit resurslarının istifadə imkanları məhdudlaşdıqca bazarda tələb də azalır, tikinti xərcləri artır və təklif azalır. Bütün bu proseslərin nəticəsi haqqında proqnoz vermək çox çətin olur. Çünki bu sadalanan proseslər hamısı bir-biri ilə sıx əlaqədardır.

Daşınmaz əmlak bazarında aktivlik, əsasən, ölkə iqtisadiyyatının vəziyyətini əks etdirən indikator da sayılır. Əgər daşınmaz əmlak bazarında ümumi vəziyyət ağırlaşırsa, ölkə iqtisadiyyatında da durğunluq başlayır. Əksinə, daşınmaz əmlak bazarı özünün inkişaf dövrünü yaşayırsa, deməli, ölkə iqtisadiyyatı da inkişaf mərhələsindədir.

Daşınmaz əmlak bazarında elastiklik, qiymət ilə satış arasındakı asılılığın birbaşa göstəricisi və bazar haqqında gələcək proqnozları düzgün qiymətləndirmək üçün əhəmiyyətli göstərici olduğundan məhz bu asılılıq üzərində xüsusi olaraq dayanmaq lazımdır.

Daşınmaz əmlak bazarının elastikliyi əml□□ın qiymətinin və ya gəlirliyinin dəyişməsinə uyğun olaraq tələb və yaxud da təklifin dəyişməsi kimi başa düşülür. Bu baxımdan bazarda tələb ilə qiymətin elastikliyi qeyri-mütənasib, təklif ilə qiymətin elastikliyi isə mütənasib sayılır. Bir sözlə, elastiklik 1-dən aşağı olduqda tələb qiymətin düşməsinə (artımına) nəzərən (təklif) zəif artır. Elastiklik göstəricisi 1-dən yüksək olduqda tələb (təklif) qiymətin azalmasına (artımına) nəzərən daha sürətlə artır.

Məhz bu göstəricini nəzərə almadan bazara proqnoz vermək səhv addım olmaqla bir sıra neqativ nəticələr əldə etmək olar. Bununla yanaşı qeyd etmək lazımdır ki, aparılan tədqiqatların nəticəsində aydın olmuşdur ki, 2009-2014-cü illərdə Bakı şəhərində qiymətlərə görə tələbin elastikliyi 0,4% (qiymətlərin 1% dəyişməsi tələbin 0,4% dəyişməsinə səbəb olmuş), gəlirə görə tələbin elastikliyi isə 0,7% (gəlirin 1% artımı tələbin 0,7% artımına səbəb olmuşdur) təşkil etmişdir. Əhalinin alıcılıq qabiliyyətinə (və ya varlılıq göstəricisinə) görə tələbin artımı isə bu illər ərzində düz mütənasib olmuşdur (1% varlılıq əmsalının artımı 1% tələbin artımına səbəb olur). Bir sözlə, Azərbaycanda daşınmaz əmlak bazarı bu illər ərzində qeyri-elastik olub ($0<E<1$).

Aparılan müşahidələr göstərir ki, bazarın əsas göstəriciləri arasındakı asılılıq daha sıx olduqca əmlakın satış müddətini azaltmaq üçün qiymətlərin azacıq salınması yetərli ola bilər. Deməli, bazarın elastiklik göstəricisi yüksək olduğu halda, əmlakın likvidlik dəyəri onun bazar





# Daşinmaz əmlak bazarının İYYƏTİ

dəyərindən bir o qədər də fərqli olmayacaq.

Təbii haldır ki, daşınmaz əmlak bazarının əsas göstəricisi həmin bazardakı alqı-satqı əməliyyatlarının sayı və satış müddəti kimi götürülür. Əgər əmlakın satış müddəti uzanırsa və əməliyyatların sayı azalırsa, deməli, ümumi iqtisadi durum pisləşir.

Cəmiyyətin daşınmaz əmlakı almaq və saxlamaq imkanı ölkənin iqtisadi inkişaf səviyyəsindən asılıdır. Belə ki inkişaf etmiş Avropa ölkələrində daşınmaz əmlakın alınmasına və saxlanılmasına çəkilən xərclər ümumdaxili məhsulun təxminən 20%-ni təşkil edir, Azərbaycanda isə bu göstərici 2014-cü ilə təxminən 6% səviyyəsindədir ki, bu da adambaşına 94-95 dollar civarındadır. Yaşayış mənzillərinin 2014-cü ildə alınmasına Avropa ölkələrində adambaşına 25-30 min təşkil etdiyi halda, Azərbaycanda mənzilə çəkilən ümumi xərclərin ÜDM-da həcminə nəzərən çox azdır.

Ölkədə daşınmaz əmlak bazarının tutumu və əhalinin alıcılıq qabiliyyəti də, əsasən, bu rəqəmlərlə ölçülür. 2014-cü ildə Azərbaycanda əhalinin sayı 10,0 mln. nəfərdən bir qədər çox olduğu halda, ÜDM-in həcmi 60 mlrd. manat civarında olmuşdur, yəni hər adambaşına 7986 ABŞ dolları dəyərində məhsul istehsal olunmuşdur. Yuxarıdakı nisbətləri nəzərə alsaq, Azərbaycanda hər adambaşına daşınmaz əmlaka xərclənən vəsait bütün il ərzində 185$ təşkil edir. Bu rəqəm əhalinin real alıcılıq qabiliyyətinin (mənzil) çox aşağı olmasını göstərir.

Son illər (2003-2014) ərzində daşınmaz əmlak bazarında bağlanmış əqdlərin say dinamikası ümumi olaraq artıma doğru irəliləmişsə də, bu dinamikada 2015-ci ilin fevral devalvasiyasından sonra kəskin azalma baş verdi. Manatın məzənnəsi dünyada neftin qiymətinin xeyli azalması fonunda dekabr devalvasiyasından sonra daha da aşağı düşdü. Maraqlıdır ki, əhalinin alıcılıq qabiliyyətinin azalması məhz evlərin qiymətinin kəskin ucuzlaşdığı dövrə təsadüf etdi. Daşınmaz əmlak üzrə rieltorlar 2014-cü ildə üç aydan bir iki ədəd alqı-satqı aktı bağlayırdılarsa, 2015-ci ildə, demək olar ki, onlar iki və ya üç ədəd alqı-satqı aktı bağlaya bilməyiblər.

Hesab edirik ki, manatın dəyərdən düşməsi və dolların bahalaşması ilə əlaqədar evlərin də qiymətində bir qədər artım müşahidə olunacaq. Çünki biz tikinti materiallarının çox hissəsini, əsasən də, taxtanı, armaturu və s. xaricdən alırıq. Odur ki iki-üç ay sonra isə tam fərqli və baha qiymətlər olması heç kimdə şübhə oyatmasın. Daxili bazarda alqı-satqı manatla aparılır, manatın məzənnəsi dollar qarşısında dəyər itirdikcə evlərin manatla qiymətində də artım müşahidə olunacaqdır. Hesab edirəm ki, ölkə Prezidentinin 2014-2018-ci illərdə regionların sosial-iqtisadi inkişafının yekunları ilə bağlı müşavirədə hökumət orqanları qarşısında qoyduğu vəzifələrin reallaşması həm makroiqtisadi baxımdan, həm ölkə daxilində iqtisadi vəziyyətin müsbətə doğru dəyişməsi ilə müşayiət oluna bilər. İstər ipoteka kreditlərinin artırılması baxımından, istərsə də şəhərsalma, infrastruktur layihələrinə vəsaitlərin artırılması baxımından geniş potensial var. Sadəcə olaraq bu potensialı axtarıb üzə çıxarmaq və hərəkətə gətirmək lazımdır.

Doğrudur, daşınmaz əmlak bazarında qısamüddətli dövr üçün, 2016-cı ilin birinci rübündə nisbi qiymət azalmaları olacaq. Lakin bu qiymət azalması dinamik olmayacaq, may ayına qədər davam edəcək. Cari ildə daşınmaz əmlak bazarında qiymətlərə təsir edəcək amillərin bəziləri qiymətlərin



artmasına, digərləri isə qiymətlərin enməsinə səbəb olacaq. Dolların manat qarşısında ən azı sabitləşməsinin əsas səbəbi dünyada neftin  qiymətinin qalxması, ölkə daxilində bank islahatlarının müasir şəraitə uyğunlaşdırılması, fond bazarının və real sektorun prioritet sahələrinin inkişafının təmin edilməsi üçün zəruri tədbirlərin görülməsi olacaq.

Bank sektorunda problemlərin tezliklə həll edilməməsi bank əmanətlərindən daşınmaz əmlak bazarına kapital axınını davam etməsinə səbəb olacaq. Hökumətin İpoteka Fonduna 200 mln. manat ayırması da qiymətlərə müsbət təsir göstərəcək. Bazar seqmentlərində vəziyyətin fərqli olması gözlənilir. Tikinti sektorunda maya dəyərinin manat ifadəsində artması fonunda dekabr devalvasiyasından sonra ilkin bazarda qiymət artımı qaçılmazdır. Məhz bu səbəblərdən qarşıdakı dövrdə ilkin bazarda qiymətlər manatla qalxacaq, dollar ifadəsində isə azalacaqdır.

Qarşıya qoyulan vəzifələrin reallaşması üçün ilk növbədə,manatın möhkəmləndirilməsi istiqamətində qabaqlayıcı və real sektorun qənaətcillik mexanizminin təkmilləşdirilməsi yönümündə təxirəsalınmaz iş aparılmalıdır. Bundan başqa banklara tövsiyə edilməlidir ki, banklar ölkə vətəndaşına krediti xarici valyuta ilə deyil, məhz milli valyuta ilə versinlər. Yalnız bu münvalla daşınmaz əmlak bazarının aktivliyini bərpa etmək olar.

Bununla yanaşı, heç kimə sirr deyil ki, hazırda paytaxt və ya regionlarda daşınmaz əmlaka formalaşan qiymətlər əhalinin aktiv hissəsinin orta illik əmək haqqını 30-35 dəfə üstələyir. Bu baxımdan əmlaka sahib olmaq istəyən potensial alıcının gəlirinin 25-30% artımı müqabilində onun illik  əmək haqqı ilə almaq istədiyi daşınmaz əmlakın satış qiyməti arasındakı fərq böyük olaraq qalır. Digər tərəfdən, əmlak sahibinin malik olduğu əmlakın qiyməti (mülkiyyətçinin sərvəti) bazarda mövcud qiymətlərə uyğun dəyişir. Əgər bazar mexanizmləri düzgün qurulsa, ölkə daxilində atılan addımlar alıcı bazarının maraqlarına cavab versə, əhalinin malik olduğu bu sərvəti bank kreditləri vasitəsilə mülkiyyətçinin cari alıcılıq qabiliyyətinin yüksəldilməsinə yönəltmək mümkün sayılır.

Təbii ki, bütün bu sadalanan hallar son nəticədə daşınmaz əmlak bazarında tələb portfelinin artımına səbəb olur və yaranmış vəziyyət də qiymətlərin artımına münbit şərait yaradır. Odur ki yaxın bir neçə ildə qiymətlərin düşəcəyini ehtimal edənlər böyük yanlışlığa yol verirlər.

Qəhrəman Bayramov

# Universitetlərin REGİONAL inkişafda rolu

Ölkənin regionlarının inkişafının təməl vasitələrindən biri də universitetlərdir. Belə ki, bir ölkənin regionlarını inkişaf etdirmək üçün universitetlərin yaradılması, onların inkişaf etdirilməsi çox mühimdir. Bundan əlavə universitetlərin araşdırma institutlarının yaradılması, həmin regionda ixtisaslaşmaya yardımçı olur və nəticədə regionun istehsal gücünü, rəqabətqabiliyyətliliyini artırır.

**Ümumilikdə universitetlərin regionların inkişafına təsir istiqamətlərinə nəzər yetirsək, görərik ki, bu bir neçə istiqamətdə baş verir:**

- Regiona ixtisaslı kadrların, insan kapitalının cəlb edilməsini təmin edir.
- Regiona maliyyə kapitalı cəlb edir.
- Regiona yerli investisiyalar cəlb edir.
- Regiona bilik, xidmət növləri cəlb etməklə rəqabət mühiti yaradır.

Bundan əlavə universitetlərin tərkibində fəaliyyət göstərən araşdırma institutları həmin regionun ixtisaslaşdığı və ya ixtisaslaşmağa hədəf kimi müəyyən etdiyi sahələr üzrə bilik transferi həyata keçirir, regionun potensialını mənimsəməklə biliyi öz bazasında cəmləyir və araşdırmalar aparmaqla sahələr üzrə inkişafa nail olurlar.

Biz bu gün ölkəmizdə post-neft dövrü üçün təkliflərin hazırlanmasının zəruriliyini və aktuallığını müşahidə edirik. Post-neft dövrü üçün ölkə iqtisadiyyatı bilik yönümlü olmaqla, artıq daha çox rəqabətə ehtiyac duyur. Düşünürəm ki, ölkəmizin Bakıdan (paytaxtdan) başqa regionlarında universitetlərin yaradılması orta hədəfdə bizə çox böyük gəlir gətirəcəkdir və regionlar arasındakı inkişaf fərqini azaldacaqdır. Çünki ixtisaslaşma dərinləşəcək, regionlar üzrə məhsul istehsalının faydalılığı artacaqdır.

**Biz bunun üçün aşağıdakı tədbirləri görə bilərik:**

Bakıdan əlavə digər regionlarımızı müəyyən sahələr üzrə mərkəz olaraq qəbul edib, həmin regionlarda bu ixtisaslaşmanın dərinləşməsi məqsədilə universitetlər yarada bilərik.

Həmin universitetlərə tələbə və müəllim heyətini cəlb etmək məqsədilə, onların daha rahat fəaliyyət göstərməsi üçün stimullaşdırıcı tədbirlər həyata keçirə bilərik və infrastrukturu (strukturu) inkişaf etdirə bilərik.

Müəyyən sahələr üzrə mərkəz olaraq qəbul etdiyimiz regionlarda yaradılacaq universitetlərlə istehsal müəssisələri arasında qarşılıqlı əlaqənin yaradılmasını təmin edə bilərik. Bu halda şirkətlər bazarın tələbinə uyğun olaraq universitetlərdən ixtisaslı kadrlar tələb edəcəklər.

Müəyyən inkişaf periodundan sonra dünya üzrə yerləşdiyimiz regionlardan xarici tələbələri yaratdığımız universitetlərə cəlb edə bilərik. Bu ölkəyə əlavə xarici valyutanın daxil olması deməkdir.

Yaradılmış universitetlərdə regional elmi konfransların, tədbirlərin keçirilməsini təmin etməklə beyinləri regionlarımıza cəlb edə bilərik, bu isə nəticədə ölkədə bilik bazasının genişlənməsinə, yeni elmi mühitin yaradılmasına gətirib çıxaracaqdır.

Təhmasib Əlizadə



# Siyasi iqtisad və Ekonomiks ümumi cəhətləri və fərqləri

Siyasi iqtisadla ekonomiks arasındakı mühüm fərqlər iqtisadi hadisə və proseslərin öyrənilməsində müxtəlif metodlardan istifadə edilməsində, onların metodoloji yanaşmalarının uyğun gəlməməsində öz əksini tapmışdır.

Təsərrüfat fəaliyyətinin öyrənilməsi metodlarını iki hissəyə – ümumfəlsəfi və xüsusi metodlara bölmək olar. Ümumfəlsəfi metodlar dialektik-materializm prinsiplərinə söykənərək bütün iqtisadi hadisə və prosesləri ziddiyyətli və daimi hərəkətdə götürür. Bu metod öyrənilən iqtisadi proseslərin mahiyyətini aşkar etməyi nəzərdə tutur. Elmi idrakın xüsusi metodlarına - müşahidə, sintez və təhlil, induksiya və deduksiya, eksperimentlərin aparılması, qrafiklərdən, riyazi formalardan geniş istifadə edilməsi aiddir. Xüsusi metodlar qarşısına iqtisadi kateqoriyaların və qanunların mahiyyətinə nüfuz etmək vəzifəsi deyil, əksinə, təsərrüfat həyatını təsvir, təhlil və izah etmək vəzifəsi qoyulur.

Siyasi iqtisad üçün istər ümumi, istərsə də xüsusi metodlardan istifadə səciyyəvi olduğu halda, ekonomiks xüsusi metodlardan istifadə edilməsinə üstünlük verir. Siyasi iqtisad qarşısına insanın dünyanı dərk etməsində dünyanın mahiyyətinə varmaq vəzifəsi qoyulur və heç də zahiri təzahürlərin təhlil edilməsi ilə kifayətlənmir. Ekonomiks mahiyyətcə yanaşmadan yan keçərək iqtisadiyyatı izah etməkdənsə, onu mürəkkəb riyazi hesablamalar, qrafiklər, formullar, statistik modellər və müşahidələr, son hədd kəmiyyətləri və s. şəklində kəmiyyətcə göstərir. Siyasi iqtisadın metodu daha artıq dərəcədə fəlsəfi-mahiyyət metodu olduğu halda, ekonomiks başlıca olaraq riyazi və statistik metodlara əsaslanır.

Deyilənlərlə yanaşı, yerindəcə qeyd edək ki, müasirlik baxımından nəzərdən keçirilən iqtisadi fikir özünün geniş əhatəliliyi ilə vahid iqtisadiyyat elmləri adlanan nəhəng bir ağacın gövdəsinin qol - budaqları, şaxələri olmaqla ondan yüksəlsə də, onların hamısının ağacın gövdəsinə eyni dərəcədə tam uyğun gəlməsindən qəti surətdə danışmaq olmaz. Bu fikri iqtisadi nəzəriyyənin neoklassik istiqamətinə daha artıq dərəcədə aid etmək olar. Belə ki bu istiqamət heç vaxt öz mühakimələrində ciddi fəlsəfi düşüncəyə əsaslanmamış, ona müraciət də etməmişdir. Onun fəlsəfi (metodoloji) bilik ehtiyatı və istinadgahı XX əsrin birinci yarısındakı neopozitivizm və karteziançılıq (R.Dekartın dualist fəlsəfəsi) fəlsəfəsinin bəzi müddəalarından o yana keçməmişdir. Başlanğıcını Aristoteldən götürən, klassik fəlsəfə dövründə Hegel tərəfindən əxz edilən və irəliyə doğru inkişaf etdirilən “hislərdə və təcrübədə olmayan şey təfəkkürdə də yoxdur” və



Siyasi iqtisad istehsalda köklü səbəb-nəticə əlaqələrini öyrənərək onun mahiyyət xarakterini açıqlayır. Ekonomiks səthi, üzdə olan münasibətləri öyrənir və istehlak seçimini səmərələşdirmək prinsipi əsasında funksional asılılıqları təsvir edir .

"duyğularda olmayan şey intellektdə də yoxdur" kimi qədim ideyalar onun üçün yad, anlaşılmaz və ya naməlum bir Qalaktika olmuşdur. Həmin ideyaları isə dünyanı passiv seyrçilik movqeyindən deyil, praktiki – fəal dəyişdirici istiqamətdə qavramaq mövqeyindən başa düşərək qəbul etmək mümkündür. Bu cür mövqe isə Hegel, Marks, habelə Amerika praqmatizminin baniləri və nümayəndələri olan U.Cems, C.Pirs və C.Dyunin nəzəri baxışları üçün səciyyəvi olmuşdur.

Neoklassik istiqamətin (cərəyanın) aprior ilkin çıxışın ilkin şərti (zəmini) olan "iqtisadi insan" isə işin, əslində, alqı-satqı (mübadilə) prosesinə daxil edilən adi, gerçək, fəaliyyətdə olan insandan başqa bir şey deyildir. Bu prosesin özü isə özlüyündə aprior olmadığından, neoklassiklər bu mənada iqtisadi reallığın müəyyən bir hissəsini təhlil etmiş olurdular. Lakin onların bu prosesə yanaşmalarının məhdudluqları və nöqsanı ondan irəli gəlir ki, onlar mübadilə prosesində mübadilə situasiyasına və insanın davranışlarına insan fəaliyyətində yeganə mümkün olan xarakterli hal kimi yanaşmaqla işin, əslində, bazar mübadıləsini cəmiyyətin bütün iqtisadi həyatını müəyyən edən universal, həlledici amilə çevirmiş olurlar. Ona görə də neoklassik təhlil özünün bütün fikir və müddəaları ilə bazar iqtisadiyyatının nəzəriyyəsi kimi qarşıya çıxır və bu cür iqtisadi nəzəriyyədə mübadilədən, alqı-satqıdan savayı heç bir yeni şey yoxdur.

İqtisadi nəzəriyyənin siyasi iqtisad və ekonomiks istiqamətləri arasındakı fərqləri ümumiləşdirərək aşağıdakı nəticələrə gəlmək olar:

Birincisi, siyasi iqtisad istehsalda köklü səbəb-nəticə əlaqələrini öyrənərək onun mahiyyət xarakterini açıqlayır. Ekonomiks səthi, üzdə olan münasibətləri öyrənir və istehlak seçimini səmərələşdirmək prinsipi əsasında funksional asılılıqları təsvir edir. Siyasi iqtisad istehsal münasibətlərinin həlledici məğzini üzə çıxarmaq üçün dialektik və tarixi metodlara əsaslanır və onun məntiqi strukturunda səbəb-nəticə əlaqələrini göstərir, ekonomiks pozitivizmə əsaslanır və funksional asılılığın axtarışına xidmət edir. Beləliklə, siyasi iqtisadın metodologiyası iqtisadi qanunları məhz hadisələrin mahiyyəti, mahiyyətlər arasında münasibətlər səviyyəsində öyrənir və ümumiyyətlə, mahiyyəti təzahürdən fərqləndirir, ekonomiksin metodologiyası isə iqtisadi qanunların mahiyyətinə varmadan zahiri iqtisadi formaları və onların funksional asılılıqlarının araşdırılması ilə kifayətlənir. Ona görə də bütün Ekonomiks dərsliklərində pulun, qiymətin, kapitalın, istehsal xərclərinin, mənfəətin, rentanın və bazar iqtisadiyyatının digər kateqoriyalarının mahiyyəti açılmadığına görə onların elmi tərifləri verilmir.

Ekonomiksin tədqiqat obyekti bilavasitə mübadilə sahəsidir, onun başlanğıc nöqtəsi nə istehsal və təklif, nə də onların istehlak və tələblə qarşılıqlı əlaqəsidir, başlanğıc nöqtəsi istehlak və tələb, daha doğrusu, tələb əyrisidir. Siyasi iqtisad ictimai təkrar istehsal prosesində istehlakın və tələbin deyil, bilavasitə istehsalın və təklifin ilkin və aparıcı rolunu göstərir.

İkincisi, nəzərdən keçirilən elmlərdə tədqiqat obyekti müxtəlifdir. Ekonomiksin tədqiqat obyekti bilavasitə mübadilə sahəsidir, onun başlanğıc nöqtəsi nə istehsal və təklif, nə də onların istehlak və tələblə qarşılıqlı əlaqəsidir, başlanğıc nöqtəsi istehlak və tələb, daha doğrusu, tələb əyrisidir. Siyasi iqtisad, ekonomiksdən fərqli olaraq, ictimai təkrar istehsal prosesində istehlakın və tələbin deyil, bilavasitə istehsalın və təklifin ilkin və aparıcı rolunu göstərir. İstehsalın ilkin və apa-





Siyasi iqtisadda təhlilin məntiqi çıxış nöqtəsi kimi bütövlükdə ictimai istehsal, milli iqtisadiyyat və ya iqtisadi subyektlərdən ibarət olan cəmiyyət, ümumiyyətlə, tam halda götürülür. Ekonomiksdə isə təhlilin məntiqi çıxış nöqtəsi cəmiyyətdə və ya ictimai istehsalda müstəqil fəaliyyət göstərən, ayrıca götürülmüş fərdi iqtisadi subyektlərdən ibarətdir

predmetinin, iqtisadi münasibətlərin təhlil edilməsinin eyni olmasıdır. Siyasi iqtisadın və ekonomiksin tərəfdarları iqtisadi münasibətlərin substansiyasını eyni cür görürlər. Bu substansiya iqtisadi münasibətlərin əşya münasibətləri olrıcı olmasını siyasi iqtisad elmi aşağıdakılarla əsaslandırır. 1) Hər hansı bir məhsul bölüşdürülüb, mübadilə edilib və istehlak olunmazdan əvvəl istehsal olunmalıdır. Bu baxımdan demək olar ki, təkrar istehsal prosesi həmişə bilavasitə istehsalla başlayır. 2) Bölgü, mübadilə və istehlak təsisatlarının maddi əsasını məhz istehsal üsulu, hər şeydən əvvəl, onun texnika və texnologiyası təşkil edir. 3) Bölgü, mübadilə və istehlakın xarakteri ilk növbədə istehsalın sosial-iqtisadi forması ilə müəyyən olunur.

**SİYASİ İQTİSAD VƏ EKONOMİKS EYNİ TƏDQİQAT OBYEKTİNİN MÜXTƏLİF NÖQTEYİ-NƏZƏRDƏN – İCTİMAİ BAXIMDAN VƏ YA FƏRDİ BAXIMDAN ARAŞDIRIR.**

Üçüncüsü, siyasi iqtisad tədqiqatları məcmu milli məhsulun hərəkətini mərhələlər-istehsal, bölgü, mübadilə və istehlak üzrə əks etdirən bütövlükdə götürülmüş ictimai təkrar istehsal prinsiplərinə əsaslanır. Ekonomiks dərsliklərində tədqiqat obyekti, əsasən, iki – mikro və makroiqtisadiyyat səviyyəsində aparılır.

Dördüncüsü, siyasi iqtisadda təhlilin məntiqi çıxış nöqtəsi kimi bütövlükdə ictimai istehsal, milli iqtisadiyyat və ya iqtisadi subyektlərdən ibarət olan cəmiyyət, ümumiyyətlə, tam halda götürülür. Ekonomiksdə isə təhlilin məntiqi çıxış nöqtəsi cəmiyyətdə və ya ictimai istehsalda müstəqil fəaliyyət göstərən, ayrıca götürülmüş fərdi iqtisadi subyektlərdən ibarətdir. Eyni tədqiqat obyekti müxtəlif nöqteyi-nəzərdən – ictimai baxımdan və ya fərdi baxımdan araşdırılır.

Beləliklə, iqtisadi problemlərin təhlilində müasir iqtisadi nəzəriyyənin iki istiqaməti arasında müəyyən fərqlər mövcuddur. Praktikadan uzaq olan və daha çox ümumi - nəzəri xarakter daşıyan siyasi iqtisaddan fərqli olaraq, ekonomiks daha artıq tətbiqi xarakter daşıması ilə fərqlənir. Siyasi iqtisad və ekonomiks eyni predmetə malik olsalar da, iqtisadi sistemləri bir-birindən prinsip etibarilə fərqli olan metodologiya əsasında öyrənirlər, müxtəlif məqsəd və vəzifələr qarşıya qoyurlar. Siyasi iqtisad əmək-dəyər nəzəriyyəsinə, ekonomiks isə son faydalılıq nəzəriyyəsinə əsaslanır.

İqtisadi nəzəriyyənin klassik və neoklassik istiqamətlərinin müqayisəli təhlili onlar ara-sında nəinki fərqlərin, eyni zamanda ümumi cəhətlərin olmasını göstərir. Ümumi cəhət, hər şeydən əvvəl, onların hər ikisinin həm tədqiqat obyektinin, insanların iqtisadi fəaliyyət sahəsinin təhlil edilməsi, həm də tədqiqat ması ilə və bu əşya münasibətlərinin insanın təbiətə dəyişdirici təsiri nəticəsində baş verməsi ilə xarakterizə olunur. İqtisadi nəzəriyyənin hər iki istiqaməti real fəaliyyət göstərən və inkişaf edən müasir bazar iqtisadiyyatını ümumnəzəri cəhətdən əks etdirməyi qarşısına məqsəd qoyur. Hər ikisi maddi istehsalı cəmiyyətin əsası və aparıcı sahəsi olması fikrini qəbul edir. İstehsalın əsas amilləri barəsində də onlar arasında elə bir fərq mövcud deyil. Mübahisə, əsasən, amillər üzrə gəlirlərin mənbəyi məsələsindədir. Hər iki istiqamət hüdudsuz tələbatlar və məhdud resurslar arasında ziddiyyətin olmasını qəbul edir. Siyasi iqtisad bu ziddiyyətin həll olunması vasitəsini texniki tərəqqidə görür. Ekonomiksdə bu problem qısamüddətli dövrdə əvəzləmə normasını azaltmaq vasitəsilə resursların səmərəli yerləşdirilməsi ilə, uzunmüddətli dövrdə isə texniki tərəqqiyə uyğun olaraq, yeni texnologiyadan istifadə etməklə həll olunur.

i.e.d., prof. Ə.P.Babayev

# Menecment

"MENECMENT İNSANLARDAN İSTİFADƏ ETMƏKLƏ ƏMTƏƏ VƏ XİDMƏTLƏRİN ALINMASI MƏHARƏTİDİR"

Meri Parker Folet

Qloballaşma postindnstrial dövrə yeni çalarlar verir. Qeyri-müəyyənlik və gözlənilməyən dəyişikliklər artır və ildırım sürəti ilə çoxlu sayda ölkələrə yayılır. Bütün ölkələrə xas olan bu vəziyyət və Azərbaycanın iqtisadi inkişafının müasir durumu işgüzar təşkilatın daxili və xarici mühitini daha da qeyri-sabit vəziyyətə salmışdır. Bununla yanaşı, aparılan islahatlar tez bir zamanda ölkə iqtisadiyyatını dünya təsərrüfat sisteminə daha da sıx inteqrasiya edir. Artıq ölkədə bazar iqtisadi sisteminə aid olan komponentlər və infrastruktur elementləri yaranmışdır. İqtisadi mühitlə rəqabətə rəvac verilməsi həyata keçirilən islahatın dəyərli nəticəsinə çevrilmişdir.

Yeni iqtisadi münasibətlər və qeyri-müəyyənlik şəraitində işgüzar təşkilatın fəaliyyət göstərməsi, gözlənilən və gözlənilməyən dəyişikliklərə adekvat reaksiya verməsi günün əsas biznes problemi kimi ortaya çıxmışdır. Məsələnin effektli şəkildə həlli menecmentdən və onun çıxardığı qəralardan, strateji, innovasiya, kreativ layihə və əməliyyat menecmentinin tətbiqini və onların keyfiyyətinin yüksəldilməsini tələb edir.

Menecmenti (idarəetməni) – qədim incəsənət və ən yeni elm adlandırırlar. Menecment elminin yaranmasında və inkişaf etdirilməsində "elmi menecment", "insani münasibətlər", "empirik", "sosial sistemləri" və idarəetmənin "yeni" məktəbinin nümayəndələrinin hər birinin inkaredilməz rolu olmuşdur. İşgüzar aləmdə geniş yayılmış "Biznesin təşkili və menecment" əsərlərinin müəllifləri V.Peterson və E.Ploumen menecmentin "Hökumət", "Dövlət menecmenti", "Hərbi menecment", "assosiasiya menecmenti", "biznes menecmenti" və "dövlət mülkiyyətində menecment" növlərini göstərmişlər. P.F.Drukerisə menecmenti yalnız biznesdə idarəetmə məharəti, vasitəsi kimi müəyyən etmişdir. Əgər V.Peterson və E.Ploumen menecmenti makro və mikro (biznes) səviyyəsində öyrənmişdirsə, P.F.Druker onu yalnız mikro (biznes) səviyyəsində öyrənmişdir. Meri Parker Foletə görə "menecment insanlardan istifadə etməklə əmtəə və xidmətlərin alınması məharətidir". Göründüyü kimi, menecment haqqında bir-birindən fərqli fikirlər mövcuddur.

Bunları nəzərə alaraq müasir menecmentin ümumi və xüsusi məsələlərini kompleks şəkildə tədqiq edilməsi zəruriliyi daha da aktuallaşır. Menecmentin fəlsəfi-hüquqi, təşkilati-iqtisadi və sosial-psixoloji tərəflərini həm mikro, həmdə makro səviyyədə öyrənməsi günün müasir məsələsinə çevrilir.

Bazar münasibətlərində baş verən dəyişikliklər iqtisadi sistemin mahiyyətini dəyişdirərək bütövlükdə istehsal və idarəçilik münasibətlərində də köklü dəyişiklər etməyə sövq edir. Məhz bu səbəbdən də sosial-iqtisadi inkişafın vüsətli vəzifələrini uğurla həyata keçirmək üçün ehtiyat mənbələrimiz: təşkilati-iqtisadi və sosial-psixoloji amillər maksimum səfərbərliyə alınmalı, mövcud istehsal potensialından daha yaxşı istifadə edilməli, əməyin motivasiyasının səmərəsi artırılmalı, işçilərin mütəşəkkillik və məsuliyyəti möhkəmləndirilməlidir.

Müasir iqtisadi sistemdə mütəxəssislər hazırlanması işində insanların birgə əmək fəaliyyətinin idarə edilməsini tədqiq edən menecment bu vacib məsələlərin öyrənilməsində mühüm yerlərdən birini tutur.

Menecmentin müasir vəziyyətinin nəzəri və praktiki problemlərinin həllinə istiqamətlənmiş orjiinal konsepsiya verməyi nəzərdə tutur. Bunun üçün ardıcıllıq və elmi məntiqə uyğun olaraq nizamlı şəkildə menecmentin təşəkkülü və inkişafı, menecmentin mərhələləri və elmi məktəbləri, təşkilat menecmentin obyekti kimi, menecmentin təşkilatı formaları, menecmentin təşkilatı quruluşu, menecmentin metodları, menecmentdə planlaşdırma, menecmentdə təşkiletmə, menecmentdə motivasiya, menecmentdə nəzarət, menecmentdə kommunikasiya, idarəetmə qərarları, heyətin idarə edilməsi, idarəetmədə liderlik, rəhbər, menecer, mütəxəssis və müasir idarəetmədə onların rolu, rəhbərlə tabeçilikdə olanların qarşılıqlı münasibətlərinin etik-psixoloji ilkin şərtləri, işgüzar ünsiyyət, menecment sistemində adaptasiya və karyera, strateji idarəetmə, maliyyə menecmenti, innovasiya menecmenti, kreativ menecment, antiböhranlı idarəetmə, biznes və cəmiyyət, təşkilat mədəniyyəti, dövlət və bələdiyyə idarəçiliyi məsələlərini öyrənmək zəruridir.

i.e.d. prof. Şahbazov K.A.
i.e.d. prof. Həsənov H.S.
Dos. Məmmədov M.H.



# Biznesdə insan amili

YER ÜZÜNDƏ BÜTÜN MADDİ VƏ MƏNƏVİ MƏDƏNİYYƏTİN, İCTİMAİ FORMALARIN YARADICISI VƏ MÜƏYYƏN EDİCİSİ İNSANDIR.

ƏGƏR BİZNES İŞ APARMAQ SİSTEMİDİRSƏ VƏ ADAMLARA LAZIM OLAN, MƏHSUL YARATMAQDIRSA, İNSAN ONU HƏRƏKƏTƏ GƏTİRƏN DƏYƏRLİ KAPİTALDIR

# BİZNESİN İDARƏ EDİLMƏSİ

YENİ İQTİSADİ SİSTEMDƏ BİZNES FƏALİYYƏTİNİN ÜSTÜNLÜKLƏRİ DİQQƏTİ CƏLB EDİR. BELƏ Kİ BİZNES – BU, İNSANIN ÖZ BİLİKLƏRİNDƏN, TƏCRÜBƏSİNDƏN, ÖZ KAPİTALINDAN İSTİFADƏNİN KÖMƏYİ İLƏ GƏLİR ƏLDƏ ETMƏYƏ İSTİQAMƏTLƏNMİŞ FƏALİYYƏTDİR.



Nəzərə alsaq ki, biznes subyektləri kimi sahibkarlar, istehlakçılar muzdla tutulmuş işçilər və dövlət strukturları çıxış edirlər, bu baxımdan inzibatçılıq meyillərinin zəifləməsi hiss olunur.

Bazar iqtisadiyyatını dıgər cəmiyyətlərdən fərqləndirən, habelə onun fəaliyyəti üçün zəruri olan şərtlərdən biri cəmiyyətin hər bir üzvünin və hər bir təsərrüfat vahidinin iqtisadi azadlığıdır. Tarixi təcrübə göstərir ki, azadlığın, demokratiyanın və son nəticədə insanın özünün inkişafı daima ictimai tərəqqinin aparıcı meyarlarından olmuşdur.

Göründüyü kimi, bazar iqtisadiyyatının əsas fərqləndirici cəhətlərindən biri azad seçimdir ki, vətəndaş istədiyi peşəni secmək və zəruri təhsil almaq, öz gəlirlərini istədiyi kimi xərcləmək və onların hansı hissəsini istehlaka, hansı hissəsini isə yığıma yönəltmək haqqında müstəqil qərar qəbul etmək, eyni zamanda hansı fəaliyyətlə məşğul olmaq haqqında düşünməkdə azaddır.

Bu bir həqiqətdir ki, yer üzündə bütün maddi və mənəvi mədəniyyətin, ictimai formaların yaradıcısı və müəyyən edicisi insandır. İnsan fiziki və mənəvi, təbii və sosial irsi və həyatda əldə edilənlərin vəhdətindən ibarət olan canlı bir sistemdir. İnsanı istiqamətləndirən, onu iş həyatı və təbii mühit ilə bağlayan onun dünyagörüşü, mənəvi siması və təhsilidir. İnsan həyatının məqsədi və mənası sosial ideyalar və fəaliyyətlərlə sıx əlaqədardır.

Əgər biznes iş aparmaq sistemidirsə və adamlara lazım olan, məhsul yaratmaqdırsa, insan onu hərəkətə gətirən dəyərli kapitaldır.

Biznes istehlakçıları təmin etmək üçün yaradılan istehsal sistemidirsə, insan onun qurucusudur.

Biznes faydalı istehsal fəaliyyəti vasitəsilə məhsul hazırlanması və ya xidmət göstərməsi yolu ilə puldan pul əldə etməkdirsə, insan onun yaradıcısıdır.

Beləliklə, yuxarıda qeyd edilənləri ümumiləşdirərək demək olar ki, biznes pulun natural formadan məhsuldar formaya çevrilməsi, müəssisə və təşkilatlar tərəfindən təbii sərvətlərin istismarı, məhsul istehsalı və satışı, xidmətlərin göstərilməsi, eyni zamanda istehlakçıların tələbatının ödənilməsi və mənfəət alınması məqsədilə təşəbbüskar insanlar arasındakı işgüzar münasibətlərin məcmusudur.

İqtisadiyyatın bütün sferalarında, təkrar istehsalın bütün fazalarında biznes fəaliyyəti həyata keçirilir. Biznes ticarət-istehsal-ticarət sxemi üzrə daima təkrarlanır ki, bu da hazır məhsulun son istehlakçıya çatdırılması ilə əlaqədardır.

Tədqiqatlar göstərir ki, müasir yeni iqtisadiyyatda ÜDM artımının daha böyük payı innovasiya texnologiyalarında insan kapitalının keyfiyyətində, istehsalın və idarəetmənin təşkilində istifadə olunmuş yeni biliklər hesabına təmin edilir.

dos. M.Ə.Əliyev

## >> önəmli

**MÜASİR YENİ İQTİSADİYYATDA ÜDM ARTIMININ DAHA BÖYÜK PAYI İNNOVASİYA TEXNOLOGİYALARINDA İNSAN KAPİTALININ KEYFİYYƏTİNDƏ, İSTEHSALIN VƏ İDARƏETMƏNİN TƏŞKİLİNDƏ İSTİFADƏ OLUNMUŞ YENİ BİLİKLƏR HESABINA TƏMİN EDİLİR.**

## TƏMƏL PRİNSİP

Biznes pulun natural formadan məhsuldar formaya çevrilməsi, müəssisə və təşkilatlar tərəfindən təbii sərvətlərin istismarı, məhsul istehsalı və satışı, xidmətlərin göstərilməsi, eyni zamanda istehlakçıların tələbatının ödənilməsi və mənfəət alınması məqsədilə təşəbbüskar insanlar arasındakı işgüzar münasibətlərin məcmusudur.




# Marketinqin müasir problemləri

Marketinq cəmiyyətin iqtisadi inkişaf prosesində baş verən keyfiyyət dəyişiklikləri ilə bağlı meydana çıxan, "...mübadilə vasitəsilə ehtiyacların və tələbatın ödənilməsinə yönəldilən insan fəaliyyətinin növü", "...alıcıların niyyət və arzularının müəyyənləşdirilməsi və bu tələbin hərtərəfli ödənilməsi məqsədilə mal və xidmət axınlarının həmin istiqamətə yönəldilməsi prosesi", "azad və rəqabətli mübadilə vasitəsilə fərdlərin və təşkilatların tələbatlarının və istəklərinin ödənilməsinə yönəldilən, istehlakçı üçün dəyərlər formalaşdıran sosial proses", "...mübadilə vasitəsilə təşkilatların, adamların, ərazilərin mallara və xidmətlərə olan tələblərini qabaqcadan görmək, idarə və təmin etmək" və s. kimi xarakterizə olunan idarəetmənin bazar konsepsiyası hesab edilir.

Marketinq anlayışının formalaşması bilavasitə cəmiyyətin və iqtisadiyyatın inkişaf mərhələlərindən asılıdır (şəkil 1).

Marketinqin inkişafı ilə bağlı nəzəri konsepsiyalar, əsasən, Rouz P., Mes-kon M., Albert M., Xedouri F., Qreyson Dj., Kotler F., Kuzmin İ.İ., Krasilnikov S.A., Romanov A.N. tərəfindən işlənib hazırlansa da, rəqabət mühitində müəssisələrinin strateji idarəedilməsinə innovativ yanaşmalar məhz Bauer R., Kollar G., Tviss B., Uoterman R., Vixanski O.S., Naumov A.İ., İpatov A.A., Oleynikov E.A. və digər alimlərin əsərlərində geniş təhlil edilmişdir.



Abramişvili Q., Braverman A., Dmitriev O., Lanqe-Prollius X. və digər alimlər isə marketinqə müəssisə səviyyəsində deyil, eyni zamanda cəmiyyət miqyasında (makromarketinq) kimi yanaşmışlar.

Marketinqdə hansı səviyyədə baxılmasından asılı olmayaraq bütün müəlliflər vahid bir fikirdədirlər ki, marketinqin tədqiqat sahəsi məhz bazar vasitəsilə mövcud və potensial müştərilərin tələbatlarının ödənilməsindən ibarətdir. Bu baxımdan müasir marketinqin qarşısında aşağıdakı:

- bazarı, tələbi, istehlakçıların zövq və arzularını müfəssəl və hərtərəfli təhlil etmək;
- istehsalı bu tələblərə uyğunlaşdırmaq, tələbə cavab verə bilən məhsul istehsal etmək;
- firmanın maraqları daxilində bazara və ictimai tələbə təsir etmək;
- bazarla bağlı problemlərin həllinə aktiv təsir göstərməklə digər fəaliyyət növlərindən fərqli olaraq son məqsədə – maksimum həcmdə məhsul satışına xidmət etmək kimi vəzifələr durur.

İstehsalın həcminin artırılması və ya azaldılmasını, məhsulların modernləşdirilməsi və ya istehsaldan çıxarılması haqqında qərarların qəbulunu strateji hədəf seçən müasir marketinqin ölkə iqtisadiyyatında tətbiq imkanlarının təhlili göstərir ki, respublikamızda marketinqin ayrı-ayrı element və alətlərindən istifadə sahəsində təcrübənin az olmasına baxmayaraq məqsədyönlü və sistemli marketinq fəaliyyəti üçün şərait formalaşma mərhələsindədir.

Bazar iqtisadiyyatı yolu ilə inkişaf edən ölkələrin təcrübəsi göstərir ki, müasir marketinqdə mühüm olan təkcə bu və ya digər məhsullar üçün istehlakçılarda alış motivləri yaratmaq, istehlakçıların bu prosesə intensiv cəlb edilməsinin forma və üsullarını axtarmaqda deyil, hər şeydən əvvəl, onlarla münasibətlərin qurulması, qorunub saxlanılması və inkişafı üçün bütün mümkün olanları reallaşdırmaqdır. Bir sözlə, Piters, Uotermen və Ostinanın menecment üzrə xüsusi ədəbiyyatlarda istifadə etdikləri ifadəni – "istehlakçıya yaxın olmaq" fenomenini formalaşdırmaqdan ibarətdir. Deməli, marketinqdə başlıca olan bir-birini qarşılıqlı formada tamamlayan ikili yanaşmanın mövcudluğudur. Bu yanaşma bir tərəfdən bazarın, tələbin, istehlakçıların arzu və istəklərinin hərtərəfli öyrənilməsinə, diferensial üstünlüklərin saxlanmasına (istehlakçının istədiyi və başqa yerdən ala bilmədiyini təklif etmək), buraxılan məhsulun ünvanlı olmasına istiqamətlənibsə, digər tərəfdən tələbin formalaşmasına aktiv təsir göstərməklə istehlakçıların üstün tutulmasını, onlara uyğunlaşma strategiyasının prioritet kəsb etməsini, "məhsulun deyil, müştərilərin sevilməsi" konsepsiyasının başlıca hərəkətverici qüvvəyə çevrilməsini nəzərdə tutur. Bütün bunlara baxma-




**Şəkil 1. Marketinqin inkişaf mərhələləri**



yaraq müasir marketinqin inkişafında bir sıra problemlər mövcuddur.

Müasir şəraitdə marketinqin və ya marketinq fəaliyyətinin birinci problemi istənilən keyfiyyətli məhsulun ixtiyari metod və vasitələrlə bazar həlli tapmasından ibarətdir. Çünki bazar iqtisadiyyatının başlıca məqsədi insan tələbatının ödənilməsindən daha çox mənfəətin əldə edilməsinə istiqamətlənib. Belə bir iqtisadiyyat heç zaman insanların tələbatlarının ödənilməsini prioritet seçmədiyi üçün onun əsas vəzifəsi reklam vasitəsilə satışı maksimum mənfəət gətirə bilən ayrı-ayrı əmtəə və xidmətlərə cəmiyyət üzvlərinin tələbatını formalaşdırmaqdır. Buna görə marketoloqlar istehlakçıların deyil, məhz istehsalçıların (sahibkarların) maraqlarını müdafiə etdiyindən marketinq bilavasitə istehsalçı ilə istehlakçı arasında üzvü əlaqələrin yaradılmasına imkan verən kommersiya fəaliyyətini özündə ehtiva etməlidir.

<< MARKETİNQİN TƏDQİQAT SAHƏSİ BAZAR VASİTƏSİLƏ MÖVCUD VƏ POTENSİAL MÜŞTƏRİLƏRİN TƏLƏBATLARININ ÖDƏNİLMƏSİNDƏN İBARƏTDİR.

Əgər nəzərə alsaq ki, menecment bir sosial idarəetmə institutu kimi insanların idarəedilməsi ilə bağlıdır, onda marketinqi alıcıların və istehlakçıların idarəedilməsinin xüsusi forması hesab etmək olar. Burada insanların istehsaldan kənar, yəni ticarətin üstünlük təşkil etdiyi istehlak sferasında bir alıcı kimi istismarı üçün imkanlar yaranır. Təbii ki, belə bir şəraitdə istimar aləti kimi marketinq konsepsiyaları, bütün mövcud marketinq texnologiyaları və bütün marketinq fəaliyyəti çıxış edir. Bununla əlaqədar olaraq marketoloqun qaşısında böyük və kifayət qədər mürəkkəb problemlər: əhalinin ehtiyac və tələbatlarının, hasiledici və emaledici sənaye sahələrinin potensialının, bazar konyunkturasının, rəqiblərin, inflyasiya proseslərinin, reklamın verilməsi imkanlarının, tədiyyə qabiliyyətli tələbin, ölkənin iqtisadi siyasətinin və bu kimi digər mühüm məsələlərin tədqiqi və öyrənilməsi durur. Aydındır ki, bu tip məsələlərin həll edilməsinə hazır olan marketoloq istənilən keyfiyyətli məhsulun ixtiyari metod və vasitələrlə reallaşdıra bilmək qabiliyyətinə malikdir.

Marketinqin ikinci problemi əmtəələri istehlak predmetinə çevirməkdən ibarətdir. Sosial yönümlü iqtisadiyyatda istehsal bilavasitə real, perspektiv və kütləvi tələbata xidmət etməlidir. Əvvəl qeyd etdiyimiz kimi, marketinq sözün tam mənasında insan tələbatının ödənilməsinə deyil, istənilən formada məhsul (və ya xidmətlərin) satılmasına (göstərilməsinə) yönəlib. Lakin bununla yanaşı, marketinq malik olduğu məhsulları reallaşdırmaq üçün bütün parametrlər üzrə insan tələbatını mütləq öyrənməlidir.

Tələbi müəyyənləşdirən amillərin seçilməsi marketinqin üçüncü problemi hesab edilir. Marketoloq üçün həmişə və hər yerdə mövcud ola billən mütləq, qeyri-real, potensial tələbdən daha çox məhz tədiyyəqabiliyyətli tələbi müəyyənləşdirən amilləri aşkar etmək böyük əhəmiyyət kəsb edir. Belə amillərə əsasən: 1) əhalinin tədiyyə qabiliyyətinin səviyyəsi; 2) sosial tələbatın dinamikası; 3) ekstremal situasiyaların aktuallığı və portensiallığı; 4) əhalinin fəaliyyət sferasının genişlənməsi; 5) servis xidmətinin perspektiv inkişafı; 6) məhsul haqqında reklam və informasiyalar və s. aid edilir.

Dəbin dəyişilməsi ilə əlaqədar olaraq tələbin aşağı düşməsi problemi marketinqin dördüncü problemidir. Təbii ki, dəb marketinqin tərkib mexanizmi hesab edilir. Mahiyyət baxımından dəb müvəqqəti meyil, analoji məhsul üzərində hökmranlıq və kiminsə zövqünə uyğun gəlmə kimi fərqli xüsusiyyətlərə əsaslanır. Dəb yeni məhsulun keyfiyyətindən asılı olaraq üç aydan altı aya qədər dövr ərzində mövcud olan müvəqqəti haldır və formalaşmış ictimai fikir, eləcə də ictimai istehsal vasitəsilə ayrı-ayrı fərdlərin zövqünü diktə edir. Dəbin dəyişilməsi heç bir motivasiya elementinə deyil, əsasən, maliyyə və kommersiya maraqlarına söykənir. Öz təbiyyətinə görə dəb insanların sərbəst pul vəsaitlərini özünə cəlb etmək qabiliyyətinə malik olduğuna görə antihumanist hesab olunur. Bu baxımdan marketinq və dəbin məqsədləri üst-üstə düşür.

Marketinqin növbəti beşinci problemi tələbin formalaşmasında mühüm rol oynayan reklam problemidir. İnsan şüurunda formalaşmış bitkin fikir ondan ibarətdir ki, yalnız

keyfiyyətcə pis olan məhsullar reklam olunur. Daha doğrusu, mental baxımdan əgər məhsul özlyündə yaxşıdırsa, onun reklama bir o qədər ehtiyacı yoxdur. "Reklam ticarətin hərəkətverici qüvvəsidir" loqosu reklam və marketinq arasında qarşılıqlı əlaqə üçün əsas yaradır. Məhz reklam vasitəsilə əlverişli və ya əlverişsiz, ucuz və baha, faydalı və ya faydasız, lazım olan və olmayan nə varsa, satmaq mümkündür. Deməli, buradan əldə edilən nəticə odur ki, reklamın gücü istehlakçıların alış intensivliyinin artırılması və qərarlarının dəyişməməsindən ibarətdir. Bu məqsədlə təsərrüfat subyektləri orta hesabla reklama məhsulun dəyərinin təqribən 60-70%-i həcmində vəsait sərf edirlər.

Marketinqin altıncı problemi məhsulun kvalimertiyası hesab olunur. Bəlli olduğu kimi, dizayn – utilitar və bədii qanunauyğunluqlar nəzərə alınmaqla yaraşıqlı və əlverişli, keyfiyyətli və ucuz, yaxşı və ekoloji cəhətdən təmiz məhsulların sənaye üsulu ilə yaradılması ilə bağlı fəaliyyət sahəsidir. İlk dəfə Almaniyada təşəkkül tapan dizayn XX əsrin əvvəllərində həlli problem hesab edilən bir çox məsələlərə aydınlıq gətirdi: Nə istehsal edilməli və alınmalıdır? Məhsul hansı keyfiyyətə malik olmalıdır ki, onu istehsal etmək və ya satmaq mümkün olsun? və s. Dizayn sahəsində ideyalar istehlakçıdan istehsalçıya doğru yönəlir: istehlakçı faydalı, lazımı, etibarlı əlverişli, ekoloji cəhətdən təmiz, ucuz şeyləri arzuladığından onları yaratmaq lazım gəlir.

Marketinqin növbəti – yeddinci problemi idxal-ixrac problemidir. Bu problem marketinqin dövlət də daxil olmaqla bütün bazar subyektlərinin xarici iqtisadi fəaliyyətini özündə ehtiva etməsi ilə əlaqədar meydana çıxır. Məlum yanaşma ondan ibarətdir ki, müasir dövrdə xarici iqtisadi fəaliyyətlə məşğul olan zaman məhsulların satışı və material axınlarının hərəkətinin idarə edilməsi sahəsində dörd əsas şərtə əməl edilməsi tələb olunur: 1) nə satmaq və ya nə almaq; 2) kimə satmaq və ya kimdən almaq; 3) nə vaxt satmaq və ya nə vaxt almaq; 4) neçəyə satmaq və ya almaq. Təbii ki, idxal-ixrac münasibətləri baxımından hal-hazırda respublikamızda bütün qeyd edilən bu şərtlərlə bağlı təsərrüfat subyektləri kifayət qədər informasiya təminatına malik olmadıqlarından qeyri-müəyyənlik şəraitində fəaliyyət göstərirlər.

Marketinqdə növbəti problem firma və müəssisənin məqsəd bazarını (tələbatlarının topdansatış vasitəçiləri tərəfindən ödənilməsini qərara alan xüsusi istehlakçı qrupu) düzgün seçməsi və orada fəaliyyət prioritetlərini dəqiq müəyyənləşdirməsindən ibarətdir. Məqsəd bazarının düzgün seçilməsində, məhsul çeşidinin, bölüşdürmə və bazara məhsul yeridilişi sisteminin formalaşmasında, eləcə də qiymət siyasətinin düzgün təşkilində məhsul istehsalçıları – satıcıları marketinq strategiyalarından geniş istifadə edirlər. İstehlakçılar satıcıların seçilməsi və alış qərarlarının verilməsi zamanı təklif olunan məhsul və ya məhsullar qrupunun keyfiyyəti, qiymətin rəqabət qabiliyyəti, satıcının yerləşdiyi məkan və ya coğrafi ərazi, hazır məhsul satışının həcmi, məhsul göndərmələrin tezliyi, sifarişlərin verilməsi və qəbuledilməsi əlverişliliyi, qab-laşdırmanın keyfiyyəti, xüsusi anbarlarda saxlanılan ehtiyatların səviyyəsi, xidmətin keyfiyyəti və s. bu kimi faktorları nəzərə almalıdırlar.

Beləliklə, müasir marketinqdə istehsalçılar qarşılarına maksimum bazar mənfəəti əldə edilməsini məqsəd qoyduqlarından "gözlənilən mənfəətin səviyyəsi nə qədər yüksək olarsa, onun əldə edilməsi ilə bağlı kommersiya və təsərrüfat riskləri də bir o qədər böyük olur və əksinə, zəmanətli nəticələrə istiqamətlənmiş kiçik risklər isə sərf edilmiş vəsaitlər müqabilində aşağı səviyyəli mənfəəti təmin edir" qanunauyğunluğunun nəzərə alınması olduqca vacib əhəmiyyət daşıyır. Bu zaman aşağıdakı: uyğun olaraq firma və ya müəssislər bazarın seqmentləşdirilməsinə lazım olan maliyyə məsrəflərini planlaşdıran zaman yuxarıda göstərilən qanunauyğunluğun nəticəsi hesab edilən qeyri-müəyyənlikləri, eləcə də seqmentin sərhədlərinin müəyyənləşdirilməsində səhvlərin əmələ gəlməsi ehtimalını diqqət mərkəzində saxlamalıdırlar.

dos. T.İ.İmanov

## >> önəmli

**İSTEHSALIN HƏCMİNİN ARTIRILMASI VƏ YA AZALDILMASINI, MƏHSULLARIN MODERNLƏŞDİRİLMƏSİ VƏ YA İSTEHSALDAN ÇIXARILMASI HAQQINDA QƏRARLARIN QƏBULUNU STRATEJİ HƏDƏF SEÇƏN MÜASİR MARKETİNQİN ÖLKƏ İQTİSADİYYATINDA TƏTBİQ İMKANLARININ TƏHLİLİ GÖSTƏRİR Kİ, RESPUBLİKAMIZDA MARKETİNQİN AYRI-AYRI ELEMENT VƏ ALƏTLƏRİNDƏN İSTİFADƏ SAHƏSİNDƏ TƏCRÜBƏNİN AZ OLMASINA BAXMAYARAQ MƏQSƏDYÖNLÜ VƏ SİSTEMLİ MARKETİNQ FƏALİYYƏTİ ÜÇÜN ŞƏRAİT FORMALAŞMA MƏRHƏLƏSİNDƏDİR.**



# Dövlət və bələdiyyə idarəetməsi

Dövlət cəmiyyətin siyasi təşkilinin xüsusi forması kimi çıxış edir. Hər bir dövrdə və cəmiyyətdə dövlət idarəçiliyinin əsas vəzifəsi mövcud ictimai rejimi və qaydaları qoruyub saxlamaqdır. Dövlət hakimiyyətindən istifadə edərək şəxsi, kollektiv, dövlət və cəmiyyət maraqlarını uzlaşdırmaq üçün onların fəaliyyətinin, münasibətlərinin tənzimlənməsi və nizamlanması işlərini səmərəli şəkildə görməyə can atır. Dövlət hakimiyyəti müqavimətlərə rəğmən xüsusi iradəni həyata keçirməyə imkan verir.

Dövlət idarəçiliyinin həyata keçirdiyi siyasət ölkədə bərqərar olmuş milli ideologiyaya söykənməlidir. Siyasət dövlətin idarə olunması, milli əhəmiyyətli işlərin aparılması sənətidir. Milli ideologiyadan milli ideyalar yaranmalı və cəmiyyətin inkişaf səviyyəsindən asılı olaraq dəyişməlidir. Dövlət idarəçiliyi siyasəti milli ideyanı vətəndaşlara çatdırmalı və ona nail olmaq üçün yollar göstərməlidir.

Qloballaşma nəticəsində postindustrial tendensiyanın inkişafı və bununla əlaqədar olaraq maddi istehsalın təbiətində baş verən mühüm dəyişikliklər dövlətin ictimai quruluşunda dəyişikliklərin meydana çıxmasına əhəmiyyətli təsir göstərir. Bu dəyişikliklər, eyni

zamanda dövlətlə vətəndaşların, fərdlərin qarşılıqlı münasibətlərində də özünü büruzə verir. Bu proseslər postindustrial dövlətə keçid üçün yeni zəmin yaradılması ilə də əlaqədardır. İndi elə vəziyyət yaranmışdır ki, qloballaşma ayrı-ayrı ölkələri bir-birindən qarşılıqlı şəkildə asılı edir və dövlət bu prosesin təbii gedişinə əngəl törətməməlidir.

Fikrimizcə, müasir dövrdə dövlət qlobal problemlərin həllini reallaşdıran institut olmalıdır. Aydındır ki, qlobal problemlərin həllində beynəlxalq, dövlətlərarası və dövləti məsələlərdə vətəndaş cəmiyyətinin iştirakı həlledici əhəmiyyət kəsb edir. Ümumiyyətlə, qlobal problemlərin həllində aktiv fəaliyyət göstərmək, ixtisaslaşdırılmış institutlarla əməkdaşlıq postindustrial cəmiyyətdə dövlətin mühüm funksiyalarından birinə çevrilmişdir.

tual sferanın inkişafı üçün daha önəmli hesab olunmalıdır. Təhsilə çəkilən xərclər həm elmi industriyanın infrastrukturunun yaradılmasına, həm də iqtisadiyyatın digər sahələri üçün investisiya hesab olunmalıdır.

Cəmiyyətdə baş verən transformasiyalar dövlətin sosial olmasına gətirib çıxarır. Dövlətin sosial yönümlülüyü onun ədalətlilik ideyalarına daha çox cavab verməsini göstərir. Bu tendensiyanın inkişafı ilə xalqa yaxın hakimiyyətin və vətəndaş cəmiyyətinin qurulması dövlət idarəçiliyi ilə yerli özünüidarənin qarşılıqlı münasibətləri sisteminin daima təkmilləşdirilməsini nəzərdə tutur. Ulu öndərimiz Heydər Əliyev və onun davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət artıq Azərbaycanda dövlət idarəçiliyi



## >> önəmli

**İNSANLAR QRUP (İCMA) HALINDA BİRLƏŞƏRƏK BİRGƏ FƏALİYYƏT GÖSTƏRMƏYƏ BAŞLADIĞI DÖVRDƏN ETİBARƏN ONLARIN İŞİNİ TƏŞKİL VƏ KOORDİNASİYA ETMƏK ÜÇÜN İDARƏETMƏYƏ EHTİYAC YARANMIŞDIR. İDARƏETMƏ PƏRAKƏNDƏ HALDA FƏALİYYƏT GÖSTƏRƏN İNSANLARI BİRLƏŞDİRƏRƏK SƏMƏRƏLİVƏ MƏHSULDAR TƏŞKİLATA ÇEVİRİR. DÖVLƏTİN NƏHƏNG TƏŞKİLAT KİMİ YARANMASI VƏ İNDİYƏ QƏDƏR YAŞAMASI DA MƏHZ İDARƏETMƏ SAYƏSİNDƏ MÜMKÜN OLMUŞDUR.**

İndi dövlət həm də ictimai rifahın istehsalçısıdır. Postindustrial cəmiyyətdə dövlət təkcə siyasi orqan kimi deyil, eyni zamanda istehsal agenti kimi də çıxış edir. Bu xüsusiyyət yalnız yüksək texnologiyalara deyil, başqa nemətlərə də aiddir.

Digər tərəfdən dövlət nəhəng investordur. Postindustrial cəmiyyətdə dövlətin ənənəvi funksiyaları əhəmiyyətli dəyişikliklərə məruz qalır. Bu, ilk növbədə, investisiya sferasına aiddir. Dövlətin nəzarəti altında olan ənənəvi sahələrin – elm, təhsil, mədəniyyət, biliklərin qorunması və yayılması və s. – irihəcmli investisiyalara tələbatı kəskin şəkildə artırmışdır. Bu isə dövlətin investisiya fəaliyyətini əhəmiyyətli şəkildə genişləndirir. İnvestisiya prosesində təhsil sisteminə xərclərin artırılması intellek-

ilə yerli özünüidarənin qarşılıqlı münasibətlərinin mütərəqqi sisteminin qurulması ilə nəticələnmişdir.

Dövlət idarəçilyi və yerli özünüidarə həm birlikdə, həm də ayrılıqda elmi araşdırmanın nisbətən yeni və sürətlə inkişaf edən sahəsidir. Peşəkar dövlət və bələdiyyə qulluqçularının hazırlanmasına zəruri tələbin olması, son illərdə ölkəmizdə bu sahədəki tədqiqatlara marağı artırmışdır.

i.e.d. prof. Şahbazov K.A.
i.e.d. prof. Həsənov H.S.
Dos. Məmmədov M.H.

# Tədris prosesində iqtisadiyyat və hüququn inteqrasiyası

MÜASİR DÖVRDƏ ÖLKƏ MİQYASINDA İQTİSADİ MÜNASİBƏTLƏRİN HÜQUQİ TƏNZİMLƏNMƏSİ MƏSƏLƏSİ – İSTƏR ELMİ, İSTƏRSƏ DƏ DÖVLƏTÇİLİK TƏCRÜBƏSİ BAXIMINDAN ƏN MÜHÜM MƏSƏLƏLƏRDƏN BİRİDİR. İQTİSADİYYATIN HÜQUQİ TƏNZİMLƏNMƏSİNİN ZƏRURİLİYİNƏ BELƏ BİR FAKT DƏLALƏT EDİR Kİ, "AZƏRBAYCAN – 2020: GƏLƏCƏYƏ BAXIŞ" İNKİŞAF KONSEPSİYASI KİMİ ƏHƏMİYYƏTLİ PROQRAM SƏNƏDİNDƏ ƏKS ETDİRİLMİŞ BAŞLICA PRİORİTETLƏR SIRASINDA – SƏMƏRƏLİ DÖVLƏT TƏNZİMLƏNMƏSİ ASPEKTİNDƏN QANUNVERİCİLİYİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN ZƏRURİLİYİ DƏ QEYD EDİLMİŞDİR.

Ümumilikdə iqtisadiyyatın hüquqi tənzimlənməsinin mahiyyəti və məzmunu – iqtisadi münasibət subyektlərinin (vətəndaşların, müəssisələrin) fəaliyyətinin ümumi qaydalarının təsbit edilməsindən və dəyişmiş şəraitdən asılı olaraq müvafiq düzəlişlər edilməsindən ibarətdir.

İqtisadiyyatın tənzimlənməsinin hamılıqla qəbul edilmiş hüquqi formaları – qanunlar – normativ aktlardır. İctimai həyatın iqtisadi və digər sferalarının dövlət tənzimlənməsinin təsirli vasitələri sırasında vergi və rüsumlar sistemi, dövlət sifarişi, xidmət tarifləri və s. üsullar da vardır. Həmin üsullar da mütləq qaydada bu və ya digər hüquqi formaya transformasiya edilir.

Dövlət müdaxiləsinin bu vasitələrinin köməyi ilə yalnız dövlət büdcəsinin doldurulması, dövlət proqramlarının maliyyələşdirilməsi, dövlət aparatının, ordunun, polisin və başqa dövlət institutlarının saxlanılması məsələləri deyil, həm də, məsələn, cəmiyyət üçün həyati əhəmiyyət kəsb edən kənd təsərrüfatı məhsullarının istehsalına köməklik, yəni dotasiya edilməsidir.

Dövlətin iqtisadi proseslərin idarə olunması üçün istifadə etdiyi hüquqi tənzimləmə mexanizmlərinin tətbiqi yolu ilə iqtisadi artımın stimullaşdırılması, məşğulluğun tənzimlənməsi, ölkə iqtisadiyyatına xarici kapitalın cəlb edilməsi, yaxud əksinə, kapital axınının məhdudlaşdırılması, iqtisadi qüdrətin bir əldə təmərküzləşməsinin qarşısını alan antiinhisar tədbirlərinin görülməsi, yeni innovasiya texnologiyalarının inkişaf etdirilməsi məsələləri və s. bu kimi məsələlər həll olunur.

Konkret misal göstərək. Cəmiyyətin da-



vamlı inkişafını müəyyən edən əsas amillərdən biri – iqtisadiyyatda investisiya fəallığının səviyyəsidir. İnvestisiya proseslərinin normal axarının təmin edən şəraitin yaradılması dövlətin ən vacib funksiyalarından biridir. Bu funksiyanın reallaşdırılmasının aparıcı formalarından biri – investisiya fəaliyyətinin həyata keçirilməsinin hüquqi əsaslarının yaradılmasıdır.

Dərin iqtisadi islahatlar, respublikamızın beynəlxalq təsərrüfat əlaqələrinə daxil olması, terrorizmlə mübarizə zərurəti və s. bu kimi reallıqlar, post-sosialist Azərbaycanında iqtisadi inkişafın diqqətlə öyrənilməsini və qanunvericilik bazası ilə təminatını, bu sahədə hüquqi strategiyanın işlənib hazırlanmasını tələb edir.

Əminliklə söyləmək olar ki, iqtisadiyyatın hüquqi tənzimlənməsi – dövlətin öz vəzifə və funksiyalarını icra etməsi, o cümlədən milli təhlükəsizliyin təmin edilməsi, sosial siyasətin həyata keçirilməsi üçün zəruri olan resurs bazasının yaradılmasında həlledici amilə çevrilir.

Bütövlükdə respublika iqtisadiyyatının, onun müxtəlif sektorlarının hüquqi tənzimlənməsi sistemi, baş verən ictimai proseslərə uyğun olaraq daim təkmilləşməkdədir. Hüquqi tənzimlənmənin təkmilləşdirilməsinin digər məsələləri sırasında, respublikada bazar münasibətlərinin inkişaf etməsi şəraitində təhsil sisteminin modernləşdirilməsi problemi mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda müşahidə edilən sürətli iqtisadi texnoloji dəyişikliklər, beynəlxalq əmək bazarının tələbləri səviyyəsində iqtisad və hüquq sahəsində fundamental biliklərə və yüksək mədəniyyətə malik mütəxəssislərə olan ehtiyacın artmasını obyektiv olaraq şərtləndirir.

Azərbaycanda hüquqi dövlət quruculuğunun dərinləşməkdə davam etməsi, həm iqtisad və hüquq elmlərinin, həm də təhsilin inkişafına güclü təkan verməkdədir. Bu proses öz növbəsində iqtisadiyyat və hüququn inteqrasiyasını obyektiv zərurətə çevirmişdir. Təsadüfi deyildir ki, Azərbaycan Dövlət İqtisad Unuversitetinin "İqtisadi hüquq" kafedrasında eyni adlı tədris kursu yaranmış və hal-hazırda tələbələrə iqtisadiyyat – hüquq kontekstində müxtəlif istiqamətli nəzəri biliklər aşılanmaqdadır.

Müasir şəraitdə iki aparıcı elm sahəsinin, yəni iqtisad və hüquq elmlərini inteqrasiya olunmuş formada tələbələrə mənimsətmək, hüquqi vasitələrdən istifadə etməklə, iqtisadi təhlili təsərrüfat fəaliyyətinə daha da yaxınlaşdırmaq, onu daha yüksək pilləyə qaldırmaq imkanı yaradır.

Ümumilikdə iqtisadi hüquq və iqtisad-hüquq profilli digər tədris kurslarının öyrənilməsi – tələbələrdə sahibkarlıq fəaliyyəti, əmək, maliyyə, gömrük, bank işi, bələdiyyə idarəçiliyi və s. fəaliyyət sahələrində müstəqil tədqiqat, təhlil, hüquqi informasiyanın istifadəsinə əsaslanma kimi bacarıqların yaranmasını mümkün edir. Bu kimi keyfiyyət göstəriciləri isə ADİU-nun nüfuzunun artmasına, bütövlükdə ona məxsus brendin daha da güclənməsinə, habelə abituriyentlərin və mütəxəssislərin ADİU-ya cəlb edilməsinə rəvac verən müsbət təsir effektinə çevrilir.

prof. F.P. Rəhmanov

**<< önəmli**

**CƏMİYYƏTİN DAVAMLI İNKİŞAFINI MÜƏYYƏN EDƏN ƏSAS AMİLLƏRDƏN BİRİ – İQTİSADİYYATDA İNVESTİSİYA FƏALLIĞININ SƏVİYYƏSİDİR. İNVESTİSİYA PROSESLƏRİNİN NORMAL AXARININ TƏMİN EDƏN ŞƏRAİTİN YARADILMASI – DÖVLƏTİN ƏN VACİB FUNKSİYALARINDAN BİRİDİR.**

# İnsan və ekoloji vəziyyət

DOS.MEHDİYEVA V.Z.

"İNSANIN YAXŞI HƏYATINI TƏMİN EDƏN AMİLLƏRDƏN BİRİDƏ EKOLOJİ VƏZİYYƏT, SAĞLAMLIQ VƏ TƏBİƏTİN, ƏTRAF MÜHİTİN QORUNMASIDIR. İNSANLARIN SAĞLAMLIĞI, EKOLOJİ VƏZİYYƏT, UDDUĞUMUZ HAVA, İÇDİYİMİZ SU - BÜTÜN BUNLARA BİZ ÇOX DİQQƏT GÖSTƏRMƏLİYİK".

İlham Əliyev



## >>Problemlər hədəflər

Artıq iqtisadi proseslərə ekoloji yanaşma məsələləri bizim cəmiyyətdə kəskin hiss olunmaqdadır. Bu baxımdan proseslərin elmi-ekoloji əsaslarının öyrənilməsi insan fəaliyyətinin bütün sahələrinin ekoloji təhlükəsizlik baxımından qiymətləndirilməsində, təbiətlə cəmiyyət arasında harmonik münasibətlərin yaranmasında müsbət rol oynayır. Eləcə də müasir dövrün ən vacib konsepsiyası olan "davamlı inkişaf" konsepsiyası da mühüm əhəmiyyət kəsb edir. Ətraf mühitin davamlı inkişafına necə nail olmaq olar? Burada əsas sayılan amillərdən biri təbiət haqqındakı biliklərin daim artırılmasıdır. Təbiətin dərk olunması insan yaranan vaxtdan başlayıb. Bütün canlılar yaşadıqları təbii mühitə uyğunlaşdığı halda, yalnız insan mühitə uyğunlaşmanın yeni bir üsulunu- mühitin dəyişdirilməsi mədəniyyətini yaratmışdır. Təbiət qanunlarının daha dolğun idrakı insan əməyi ilə birlikdə insanı ətraf mühitə hökmran etdi. Lakin bu, hökmranlıq həmişə müsbət göstəricilərlə müşayiət olunmur. Ətraf mühitin çirklənməsi, təbii sərvətlərin tükənməsi, təbii mühitin dağılması kimi hadisələr məhz insan əməyinin neqativ nəticələrindəndir.

Arxeoloji qazıntılar göstərir ki, ibtidai insan primitiv fəaliyyət növlərindən daha yüksək təsərrüfat formasına neolit dövründə keçmişdir, yeni mənimsəmə iqtisadiyyatından istehsal iqtisadiyyatına keçməklə ətraf mühitə təsir daha da artmışdır. Bu hadisə bəşər tarixinin çox mühüm bir dövrü sayılsa da, sivilizasiyanın inkişafı ilə ekoloji biliklər və ekoloji problemlər yaranmağa başladı. Təbiət üzərində baş verən bu "qələbələr" sivilizasiyaların məhvinə gətirib çıxardı. Xeops piramidasının heroqlif yazılarında deyilir ki, "insanlar təbiət qüvvələrindən düzgün istifadə etməyi və əsl dünyanı dərk etməyi bacarmadıqlarına görə məhv olurlar".

İnsan fəaliyyətinin əsas sahələri ekoloji birliklərin yaranmasını zəruri etdi. Müasir ekologiya təbii və antropogen ekosistemlərin inkişaf qanunlarını öyrənməklə yanaşı, təbiətlə insan cəmiyyətinin qarşılıqlı əlaqəsinin optimal formasını axtarır. İnsanın özünün də ekologiyanın predmeti olması, ekoloji biliklərin sosial rolunu getdikcə artırmaqdadır. Müasir ekologiya artıq bütün elmlərlə qovuşaraq yeni elmlərin yaranmasına səbəb olmuşdur. Bu baxımdan insanla ətraf mühit arasında elə harmonik və balanslaşdırılmış qarşılıqlı əlaqə yaratmaq lazımdır ki, hər iki sistem öz tamlığını qoruya bilsin. Məhz buna görədir ki, ekologiya gələcəyin elmi hesab olunur.

Hazırda bəşəriyyəti daha çox düşündürən ətraf mühit problemlərinə Azərbaycan Respublikasında böyük diqqət yetirilir və onların həlli üçün hərtərəfli tədbirlər görülməkdədir. Azərbaycanda "Ətraf mühitin mühafizəsi haqqında" Qanun 1999-cu ildə qəbul edilmişdir. Qanunun IX fəsli ətraf mühitin mühafizəsi sahəsində təhsil, maarifləndirmə, elmi tədqiqatlar, statistika və informasiya məsələlərinə həsr edilmişdir. Əhalinin ekoloji təhsil və maarifləndirilməsi məsələsi isə ayrıca qanunla tənzimlənir. Bu faktlar ekoloji təhsilin cəmiyyətimiz üçün nə dərəcədə vacib olduğunun bariz nümunəsidir. Araşdırmalardan məlum olur ki, ətraf təbii mühitin mühafizəsi və təbiətdən istifadə problemlərinin həlli sahəsində ən mühüm işlər 1969-1982 və 1993-2003-cü illərdə Ümummilli lider Heydər Əliyevin bilavasitə təşəbbüsü və qayğısı ilə həyata keçirilmişdir. O zaman dövlət əhəmiyyətli bir çox sənədlər imzalanmış və qərarlar qəbul edilmişdir.

Azərbaycanın inkişafına və modernləşməsinə hədəflənmiş səmərəli dövlətçilik siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Heydər Əliyevin sosial-iqtisadi siyasətini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev öz fəaliyyətində ölkəmizin ekoloji durumuna xüsusi diqqət və qayğı göstərir. Məhz onun təşəbbüsü ilə 2010-cu il ölkəmizdə "Ekologiya ili" elan olunmuşdur. Azərbaycanda davamlı inkişaf konsepsiyasının müddəalarına uyğun olaraq iqtisadi inkişafın ekoloji tarazlıqla vəhdət təşkil etməsi,üstünlüyün ətraf mühitin qorunmasına verilməsi, ekoloji problemlərin təxirə salınmadan həll olunması ön xəttə çəkilmişdir.

Xatırladaq ki, son yüzillikdə iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafı insan fəaliyyətinin ətraf mühitə mənfi təsirinin artması və təbii sərvətlərdən həddindən artıq istifadəsi ilə nəticələnmişdir.

Azərbaycan Respublikasında yürüdülən ekoloji siyasətin əsas məqsədi indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi naminə ekoloji sistemlərin, iqtisadi potensialın qorunması və təbii ehtiyatlardan səmərəli istifadə edilməsi ilə davamlı inkişafın təmin edilməsindən ibarətdir. Beləliklə, ekoloji vəziyyətin sağlamlaşdırılması istiqamətində mühüm problemlərin həlli məqsədəuyğundur.

**>>**

**SON YÜZİLLİKDƏ İQTİSADİYYATIN BÜTÜN SAHƏLƏRİNİN SÜRƏTLİ İNKİŞAFI İNSAN FƏALİYYƏTİNİN ƏTRAF MÜHİTƏ MƏNFİ TƏSİRİNİN ARTMASI VƏ TƏBİİ SƏRVƏTLƏRDƏN HƏDDİNDƏN ARTIQ İSTİFADƏSİ İLƏ NƏTİCƏLƏNMİŞDİR.**

# BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ "DÜŞMƏN VƏ QƏHRƏMAN" OBRAZLARI İLƏ OYUNLAR

YAXUD

# NİYƏ HƏRDƏN TİMSAHLAR UÇA BİLİR

"Əvvəl biz düşməni yaradırıq. Obraz silahdan əvvəl yaranır. Təbliğat texnologiyanı qabaqlayır".

Yazıçı və publisist
Sem Kin

Biz hər gün bu və digər dərəcədə real, yaxud xəyali düşmənlər və qəhrəmanların mini-obrazlarını yaradırıq. Ətrafımızda baş verənləri tam dərk etməyin mümkünsüzlüyü, aldığımız informasiyanı ümumiləşdirmək, sadələşdirmək meyli reallığı, hadisələri, insanları və s. qütbləşdirməyimizə səbəb olur. Məişət səviyyəsində bu tam təbiidir və insanı sürətlə dəyişən və fərdin təfəkkürünə təzyiqini günbəgün artıran dünyada ağlını, sağlam şüurunu qorumağa imkan verir. Bir qayda olaraq, bu cür düşmənlər və qəhrəmanlar obrazları qısa müddət ərzində hafizədən silinir, "həyatlarını" davam etdirmə resurslarına malik olmadıqları üçün funksiyalarını icra etdikdən sonra "məhv olurlar".

Lakin müasir ikili (bəzi hallarda daha da çox) standartlar dünyasında, əsrimizin bəzən "informasiya əsri" adlandırıldığı bir dövrdə, beynəlxalq münaqişələrdə informasiya rəqabəti və mübarizəsinin rolunun kəskin surətdə artması şəraitində beynəlxalq güclərin, superdövlətlərin təbliğat rıçaqları (KİV, təhsil və s.) bu cür obrazlarla manipulyasiya etmək, onların kütlələrin təfəkkürünə təsirini gücləndirmək üçün müvafiq resurslara malikdirlər: maddi, insani, inzibati və s. Rəsmilik və nüfuzluluq statusuna malik olaraq, bu cür qüvvələr verdikləri informasiyanın, qəhrəman və düşmən "damğa"larının obyektiv və yeganə düzgün, alternativsiz olduğunu bəyan edərək, beynəlxalq ictimaiyyəti çaşdırmaq, istədikləri səmtdə yönəltməyə çalışırlar.

Belə bir şəraitdə beynəlxalq münasibətlərin tədrisi, beynəlxalq münasibətlərin yaxın keçmiş və müasir tarixinin öyrənilməsi və yeni nəslə, gənclərə, bütövlükdə ictimaiyyətə təqdim edilməsində elmi obyektivliyi qorumaq məsələsi aktuallaşmaqdadır. Yaxın

Şərqdə, Ukraynada, Balkanlarda, doğma Qafqazımızda baş vermiş və baş verənləri özümüz də "düşmən və qəhrəman" obrazları ilə oyunlara aludə olmadan necə tədris etmək olar, dərsliklər yazılarkən informasiya mübarizəsinin bir alətinə çevrilmək təhlükəsindən sığortalanmaq mümkünmü kimi suallar obyektivliyini qorumağa çalışan beynəlxalq münasibətlər üzrə mütəxəssisləri düşündürməkdədirlər.

Beynəlxalq münasibətlərin tədrisini üç rakursdan nəzərdən keçirmək olar: 1) beynəlxalq münasibətlərin, onların inkişaf qanunauyğunluqlarını, problemləri və perspektivlərini öyrənən bir elm kimi; 2) keçmişin ümumiləşdirilmiş təcrübəsini yeni nəslə ötürməyə xidmət edən bir alət, vasitə kimi; 3) auditoriyada dünyada baş verənlərə dair bir münasibət, dəyərlər sistemi formalaşdıran təbliğat kimi. Onların bir-birinə qarşı nisbəti məsələsində demokratiyanın əsas prinsiplərindən birini – hakimiyyətin üç qola bölgüsü prinsipini yada salmaq yerinə düşər. Yəni tədrisin bu üç rakursu bir tərəfdən müəyyən mənada müstəqil olmalıdırlar, digər tərəfdən bir harmoniya, vəhdət təşkil etməlidirlər. Hərçənd analoji olaraq, bu üçlükdə ideal faiz nisbəti mövcud deyil, maksimal olaraq tərəflər və təsirlər balansına riayət etmək lazımdır.Təəssüflər olsun ki, müasir beynəlxalq münasibətlərin tədrisində (xüsusən də postsovet məkanında) üçbucağın elm və təcrübə ötürücüsü bucaqları unudularaq, təbliğat tərəfinə yıxılma prosesi güclənməkdədir. Və bir çox hallarda təbliğatın özü də hansısa obyektiv məqamlara, gələcək nəsillərə deyil, bu günün ayrı-ayrı gücləri və şəxslərin konyuktur maraqlarına hesablanıb ki, nəticədə dərsliklər, tədris materialları, informasiya sürətlə öz əhəmiyyətlərini itirirlər.

Bu cür yanaşmanın gücü və təhlükəlini görməməzlikdən gəlmək olmaz. Müasir beynəlxalq və regional informasiya mübarizəsində kiçik insanlar qrupları, ayrı-ayrı supergüclər kütlələrin təbii reaksiyaları, dərkemə mexanizmlərini öz "oyunlarının" alətlərinə çevirir, lakin məişətdəki obrazlarımızdan fərqli olaraq, öz dəyərlər yanaşması, "düşmən" və "qəhrəmanları"nın mütləqləşdirilməsi və universallaşmasına çalışır, iddia edirlər.

Məlumdur ki, istənilən ideya, ən xeyirxaq hesab edilən dəyər belə mütləqləşdirmə və universallaşmaya iddia etdiyi halda, öz elmi və obyektivlik əsaslarını itirir, son nəticədə bəyan etdiklərinin əksinə xidmət etməyə başlayır. Məsələn, multikulturallıq "Ağca və yeddi cırtdan" nağılını balacaboylu insanları təhqir etdiyi, yaxud Berrouzun "Tarzan" haqqında hekayələrini aparteidi təbliğ etdiyi iddiası ilə qadağan etmək fikrinə gəlirsə, o özü bir fobiyaya, manipulyasiya alətinə çevrilir.

Amerikalı yazıçı və publisist Sem Kin qeyd edir: "Əvvəl biz düşməni yaradırıq. Obraz silahdan əvvəl yaranır. Təbliğat texnologiyanı qabaqlayır". Bu mənada, respublikamızın beynəlxalq münasibətlər tədrisi sahəsində, nüfuzlu tədqiqat mərkəzlərində çalışanların üzərinə böyük məsuliyyət düşür: Azərbaycan reallıqlarını dünya ictimaiyyətinə və əksinə, dünyada baş verənləri bizim auditoriyaya çatdırarkən, universallıq iddialarından qaçmaq, tədrisin elmilik və obyektivlik prinsiplərini təbliğatın xeyrinə qurban verməmək. Dünyadakı yerimizi, rolumuzu, dünyada baş verən prosesləri adekvat şəkildə dəyərləndirməməyimiz halında milli maraqlarımız və milli kimliyimizi effektiv şəkildə qorumaq mümkün olmayacaq.

Anar Eyyubov



# Şuşa və onun ətrafının ən qədim arxeoloji abidələri haqqında

Azərbaycanın əzəli və ayrılmaz tərkib hissəsi olan Qarabağın zəngin təbii sərvəti, əlverişli iqlim şəraiti buranın ən qədim dövrlərdən məskunlaşmasına şərait yaratmışdır. Zaman keçdikcə burada insan məskənləri də çoxalmış, əhali artmış, ictimai-iqtisadi həyat qaynamış və bunun nəticəsidir ki, Qarabağda hər addımbaşı tarixi keçmişin bu və ya digər mərhələsi ilə bağlı abidə və ya abidələr qrupuna təsadüf olunur.

Heç kəs üçün sirr deyil ki, bütövlükdə Qarabağın tacı, döyünən ürəyi Şuşadır. Qarabağın başqa bölgələri ilə yanaşı Şuşa və onun ətrafında qədim insanların hələ Paleolit dövründən məskən salması təkzibedilməz faktlarla sübut olunmuşdur. Azərbaycanda paleolit dövrünün (ən qədim daş dövrü) əsasını qoymuş professor Məmmədəli Hüseynov bütün dünyada məşhur olan Azıx, Tağlar və başqa mağara düşərgələrilə yanaşı Şuşa paleolit mağarasında aşkar etmiş, tədqiqatlar apararaq elmi ictimaiyyətə çatdırmışdır (Джафаров А.К. Разведочные работы в Шушинской пещере. ИПАЭИА за 1972 г., Баку, 1973).

Bununla yanaşı, Şuşa və onun ətrafında, habelə Şuşakənd, Daşaltı, Mehtikənd və s. yaşayış məntəqələrində xüsusilə son tunc və ilk dəmir dövrünə aid çoxsaylı daş qutu qəbirləri, kurqanlar mövcuddur. Bütün bunlar Şuşa və onun ətrafında ən qədim dövrlərdən Azərbaycanın qədim sakinləri tərəfindən məskunlaşmasını göstərir.

Xatırladaq ki, Şuşa şəhəri və onun tarixi abidələri haqqında ilkin məlumatlar əcnəbi səyyah və tədqiqatçılar tərəfindən verilmişdir.

1834-cü ildə İsveçrə səyyahı Diyuba de Monpero [1, s. 61-63, 66 və s.] Qafqazı gəzərkən Naxçıvandan keçib Şuşaya gəlmiş, bir neçə gün burada qalmış, Şuşanın təbii-coğrafi şəraiti ilə yanaşı, şəhərin özü ilə, habelə tarixi abidələri ilə tanış olmuşdur .

Şuşa və onun ətrafındakı arxeoloji abidələr haqqında nisbətən dolğun məlumatları vaxtilə Şuşada alman dili müəllimi işləmiş alman əsilli Emil Reslər vermişdir. E.Reslər təkcə Şuşada deyil, Qarabağın başqa yerlərində də müntəzəm axtarışlar aparmış, qədim arxeoloji abidələri qeydə almış, bu abidələrin bəzilərində qazıntılar aparmış və nəticələrini nəşr etdirmişdir.

Şuşada yaşayan və işləyən E.Reslər, təbii ki, ilkin axtarışlarını Şuşada və onun ətrafında aparmışdır. O, 1891-ci ildə Şuşanın yaxınlığındakı Şuşakənddəki nekropolda üç daş qutu qəbri (N 1,2,3) açmışdı [2, Vərəqlər 10-26; 3,səh 566-568; 4,səh 6, 72]. Daş qutu qəbirlərdən tuncdan əsa başlığı, düymə, bıçaq, kündəvari umbon falar, habelə dəvəgözündən hazırlanmış oraq dişləri və qəlpələr tapılmışdır. Şuşa ətrafında qazıntıları 1893-cü ildə davam etdirən E.Resler burada bir neçə kurqan da qazmışdır. Kurqanaltı qəbirlər hər kurqanda bir qəbir olmaqla daş qutulardan ibarət olmuşdur.

Bütövlükdə aşkar edilmiş səkkiz daş qutu qəbirləri içərisində 5 saylıda daha çox artefakta təsadüf olunmuşdur. Bu materiallar tunc qolbaqdan, arxası borulu, yarpaqvari tiyəli tunc nizə ucundan, spiralvarı burulmuş tunc məftildən hazırlanmış üzükdən, müxtəlif ölçülü tunc düymələrdən, tunc maqqaş, tunc zəncir, qaban dişindən olan amuletdən, yastı daş baltadan, dəvəgözü daşından badamvari quruluşu ox ucluqlardan ibarət olmuşdur.




Azərbaycan qədim abidələrlə zəngindir. Məmmədəli Hüseynov, xarici tədqiqatçı və səyyahlar Qarabağda, Şuşada tədqiqat işləri apararaq bunu elmi ictimaiyyətə çatdırmışlar. Habelə Şuşakənd, Daşaltı, Mehtikənd və s. yaşayış məntəqələrində, xüsusilə Son Tunc və İlk Dəmir dövrünə aid çoxsaylı daş qutu qəbirləri, kurqanlar mövcuddur. Aşkar edilmiş səkkiz daş qutu qəbirləri, kurqanlar mövcuddur. Aşkar edilmiş səkkiz daş qutu qəbirləri içərisində 5 saylıda daha çox artefakta təsadüf olunmuşdur. Xarici müəlliflər tərəfindən əldə edilmiş məlumatlar müxtəlif ölkə məcmuələrində nəşr olunmuşdur.

Bunlardan başqa, qəbir avadanlığı içərisində səthi qabarıq, paralel, çərtmə naxışlı, tək qulp keramika fraqmentlərinə də təsadüf edilmişdir [ 5, səh – 214-217, şəkil 2, 3, 4; şəkil 5, a, b, c, e, d; 4, səh. 72].

1893-cü ildə qazılmış başqa qəbir abidələrində materiala ya təsadüf olunmamış (N 6, 7, 8, 9 saylı), ya da çox az miqdar tapılmışdır (N 4,10,11 saylı). 10 və 11 saylı kurqanlarda yalnız dəvəgözü daşından arxası oymalı, badamvarı quruluşu, kənarı gizli ox ucluqları əldə olunmuşdur [5, səh. 218-219; 4, səh. 72].

Şuşa nekropolunda tədqiq olunmuş daş qutu qəbirlərdən və kurqanaltı qəbirlərdən tapılan arxeoloji materiallar Azərbaycanda geniş yayılmış və əsaslı tədqiq edilmiş Xocalı-Gədəbəy mədəniyyətinin ikinci inkişaf mərhələsi üçün xarakterik əlamətləri özündə əks etdirir və e.ə. XII-XI əsrlərə aid olunur.

E.Reslerin 1895 [6, vərəq 48; 7, səh. 5], 1896 [8, vərəq 44-45; 9, səh. 109] və 1897 [10, vərəq 41-47, 57-58; 11, səh. 99, 180] araşdırmaları elə də uğurlu olmasa da, hər halda o, Qarabağın Xocalı, Dovşanlı, Axmaxı, Sırxavənd, Gülablı və s. abidələri ilə yanaşı, Şuşaətrafı ərazidə axtarışlarını davam etdirmişdir.

E.Resler əldə olan materialları S.Peterburq şəhərinə, İmperator Arxeoloji Komissiyasına göndərmişdir. O, qazıntılar haqqında ətraflı hesabat yazmış, bu hesabatlar indiki Rusiya EA S.Peterburq Maddi-Mədəniyyət İnstitutunun arxivində (köhnə adda ЛОИА) saxlanılır. Qazıntılar haqqında məlumatlar həmçinin Berlində alman dilində nəşr olunan ZEVGAEU məcmuəsində, habelə İmperator Arxeoloji Komissiyasının Xəbərlərində nəşr olunmuşdur. Bu materiallar Azərbaycan arxeoloqlarının müxtəlif nəsil nümayəndələri tərəfindən (İ.Nərimanov, H.Cəfərov və b.) diqqətlə öyrənilmiş və elmi dövriyyəyə daxil edilmişdir. E.Resler peşəkar arxeoloq olmamışdır. Onun qazıntıları son dərəcə bəsitliyi, elmi dayaqlara söykənmədən aparılmışdır. Lakin onun əlyazmaları, cizgilər, çəkdiyi planlar, apardığı qeydlər, hesabatlar göstərir ki, bu insan öz işinə dövrünə görə məsuliyyətlə yanaşmış, materialları şəxsi əmlakına çevirməmiş, lazımi elmi ünvanlara çatdırmış və imkanı daxilində şərh etmişdir. Azərbaycan arxeoloqları onun işini bu baxımdan qiymətləndirmişlər.

Şuşanın ən qədim arxeoloji abidələrini fərdi qaydada deyil, ümumi Qarabağ və bütövlükdə Azərbaycan kontekstində, kompleks halında öyrənmək lazımdır. Azərbaycan arxeoloqları işlərini bu istiqamətdə yerinə yetirirlər.

Şuşanın ən qədim dövrlərdən bütöv Qarabağla birlikdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olması arxeoloq alimlərimiz tərəfindən mütəmadi olaraq dünya ictimaiyyətinə çatdırılır.

t.e.d. prof. Hidayət Cəfərov

# İnsan Resurslarının

## İdarəedilməsində İş analizi

İstənilən işin və ya fəaliyyətin nəaliyyət əldə etməsinin, uğur qazanmasının əsas şərtlərindən biri, bəlkə də, birincisi onun təməllərinin sağlam atılması, təməllərin analizlərə və təhlillərə əsaslanmasıdır. İRİE-nin də təməlləri, əsası onun başlanğıc funksiyası olan iş analizində atılmaqdadır. Bu təməllərin sağlam atılmaması, iş analizinin düzgün şəkildə həyata keçirilməməsi və ya ümumiyyətlə, tətbiq edilməməsi İRİE-nin sonrakı funksiyalarının da düzgün və səmərəli şəkildə həyata keçirilməsinə imkan verməyəcəkdir.

İstənilən mövzu ilə əlaqədar hər hansı bır tədqiqat aparmadan, hər hansı bir məqalə yazmaqdan əvvəl o sahə üzrə var olan problemlərin düzgün müəyyən edilməsinə çox böyük ehtiyac vardır. İş analizinin müəssisələrdə düzgün şəkildə həyata keçirilməməsi nəticəsində İRİE sahəsində olan problemləri aşağıdakı kimi ümumiləşdirmək mümkündür.

İstər yeni alınan, istərsə də müəssisədə işləməkdə olan işçilər nə iş görməli olduqlarını bilmirlər. Görülən işlərin müəssisənin məqsəd və strategiyaları ilə əlaqələri təmin oluna bilmir.

İRİE-nin digər funksiyaları üçün əsas təşkil edəcək kriteriyalar müəyyən edilə bilmir (İşçi seçimi, təlim, performans qiymətləndirmə, əmək haqqı və s.).

Yazının bundan sonrakı hissəsində iş analizi nədir? Müəssisəyə nə kimi faydası ola bilər? İş analizini kim və necə həyata keçirməlidir? İş analizi nəticəsində nə əldə edəcəyik və əldə olunan nəticələr necə istifadə olunacaq kimi suallara cavab verilməyə çalışılacaqdır.

İş analizi, müəssisədə görüləcək hər bir işin ümumi xarakteristikası və xüsusiyyətləri, işin həyata keçiriləcəyi iş şəraiti, işi həyata keçirəcək işçi, tələb olunan bilik və bacarıqları, qvalifikasiyalar və s. haqqında məlumatların toplanması, toplanan məlumatların sistematik şəkildə təhlil edilməsi, qiymətləndirilməsi və əldə edilən nəticələrə bağlı məlumatların yazılı hala gətirildiyi bir prosesdir.

Yuxarıda verilən təriflərdən də aydın olduğu kimi, iş analizi hər bir işin ən xırda detallarına qədər analiz edilib, işin və onu həyata keçirəcək şəxsin bütün xüsusiyyətlərinin müəyyən edilməsidir. Amma bəzi müəssisələr tərəfindən vahid tarif ixtisas sorğu kitabçası və ya International Labor Organization (ILO) standartları olduğu kimi qəbul edilib istifadə edilməkdədir. Əlbəttə, bu sənədlər bizə bizim işimizin stantartlarını verməyəcəkdir. Onlar ixtisaslar ilə əlaqədar minimum, umumiləşdirilmiş standartlar haqqında məlumat təqdim edə bilərlər. Amma hər bir müəssisədəki hər bir iş özü analiz edilməlidir, spesifik xüsusiyyətləri müəyyən edilməldir.

İş analizinin müəssisəyə nə kimi faydları ola bilər sualına gəlincə isə aşağıdakı faydaları qeyd edə bilərik: bütün işçilər nə iş görməli olduqlarını, vəzifə və səlahiyyətlərinin nələr olduğunu biləcəklər; görülən işlər pərakəndə xarekter daşımayıb, müəssisənin məqsəd və strategiyalarına xidmət edəcəkdir; işçi seçimi, təlim və inkişaf, performans qiymətləndirmə, əmək haqqının ödənilməsi və s. İRİE funksiyalarının düzgün və səmərəli şəkildə həyata keçirilməsinə əsas təşkil edəcəkdir. Ümumiləşdirərək qeyd edə bilərik ki, iş analizləri nəticəsində əldə edilən məlumatlar yalnız İRİE'də deyil, eyni zamanda istehsal, marketinq və maliyyə kimi təməl müəssisə funksiyalarına bağlı planlaşdırma, təşkilatlanma, icra və nəzarət əməliyyatlarının əsas dayağını təşkil edir.

İş analizi prosesində cavablandırılması vacib suallardan biri də iş analizini kim və necə həyata keçirəcəkdir sualıdır. Burada bir çox yanaşmadan istifadə etmək mümkündür. İş analizi, təşkilat içərisində formalaşdırılacaq bir qrup mütəxəssis tərəfindən yerinə yetirilə bilər və yaxud da təşkilat xaricindən dəvət edilən bir mütəxəssis qrupu tərəfindən də həyata keçirilə bilər. İş analizi prosesi davamlı olmayan bir proses isə, müəyyən bir müddətdən bir təkrarlanırsa, təşkilat xaricindən yox, əgər davamlı bir proses isə, təşkilatın mütəxəssisləri tərəfindən bu prosesin aparılması məqsədəuyğundur. İş analizi prosesinin xarici mütəxəssislərlə və ya təşkilat içərisindəki mütəxəssislərlə aparılmasının müsbət və mənfi xüsusiyyətləri var. Ən ideal yanaşma isə təşkilat xarici mütəxəssis qrupu ilə əməkdaşlıq edərək bu prosesin təşkilat içərisindəki mütəxəssislərlə kordinasiyali bir şəkildə həyata keçirilməsini təmin etməkdir.

İş analizinin kim tərəfindən həyata keçiriləcəyi müəyyən edildikdən sonra onun necə həyata keçiriləcəyi sualı ortaya çıxır. İş analizinin necə həyata keçiriləcəyi sualını cavablandırmaq üçün iş analizi prosesinin hər bir mərhələsini bilmək və müəssisədə tətbiq etmək lazımdır. İş analizi prosesinin hazırlıq, məlumatların toplanılması və tətbiqi mərhələlərindən ibarət üç mərhələsi vardır.

**Hazırlıq mərhələsi**

İş analizinə başlamazdan əvvəl müəssisənin rəhbərlik anlayışı və fəlsəfəsi, işçilərin təhsil səviyyəsi, müəssisənin fəaliyyət göstərdiyi iş qolu, işlətməyiətəsir daxili və xarici mühit şəraiti və bənzər mövzularda da məlumat sahibi olmaq lazımdır. Digər tərəfdən daha əvvəlki iş analiz işləri ilə əlaqədar hesabat və təcrübələrdən də faydalanılmalıdır.

**İş analizi ilə əlaqədar məlumatların toplanılması mərhələsi**

İş analizi prosesinin ən çətin mərhələsi məlumatların toplanılması mərhələsidir. İşçi sayı az olan şirkətlərdə bu mərhələni reallaşdırmaq asan ola bilər, amma beş min və ya daha çox əməkdaşı olan müəssisələrdə bu prosesi mərhələli şəkildə, şöbə və ya departament əsaslı həyata keçirilməsi daha məqsədəuyğundur. Çünki bu mərhələdə müəssisədə olan hər bir işlə əlaqədar işin vəzifə öhdəlikləri nələrdir? İşçi nə iş görür? Bu işi necə görür? İşin səmərəli bir şəkildə həyata keçirilməsi üçün hansı vasitələrə ehtiyac var? İşin müəssisənin məqsədlərinə xidmət edən nəticələri nələrdir? Kimi bir çox suallar cavablandırılmalıdır. Məlumatların toplanılmasında ən əsas qərarlardan biri də bu prosesdə hansı metodun istifadə olunacağıdır. Burada istifadə olunan metodlardan ən çox istifadə edilənləri anket, müsahibə və müşahidə metodlarıdır. Bu metodların hər birinin özünəməxsus üstünlük və çatışmazlıqları var. Amma iş analizini detallı şəkildə həyata keçirmək istəyən müəssisələrə günlük hesabatlar metodunu tövsiyə edə bilərik. Bu metodla hər bir şöbədə, mərkəzdə və ya departamentdə olan işlərin bir aylıq, lazım gələrsə, daha çox müddətə günlük hesabatı alınır və işin ümumi xüsusiyyətləri müəyyən edilərək yerli və beynəlxalq standartlar da nəzərə alınaraq ümumi xarakteristikası ortaya qoyulur.

**İş analizi ilə əlaqədar məlumatların tətbiqi**

Bu mərhələ bir mənada iş analizi nəticəsində nə əldə edəcəyik və əldə olunan nəticələr necə istifadə olunacaq, sualına da cavab vermiş olur. İş analizi nəticəsində müəssisədə olan hər bir iş və bu işi həyata keçirəcək işçi ilə əlaqədar bütün spesifik xüsusiyyətləri özündə əks etdirən vəzifə təlimatları əldə olunmalıdır. Vəzifə təlimatlarına nümunə olaraq, aşağıda baş mütəxəssisin vəzifə təlimatını sizə təqdim edirik.

Sonda onu qeyd etməliyik ki, vəzifə təlimatlarının müəssisənin məqsəd və strategiyaları istiqamətində daim yenilənməsi və təlimatlarda göstərilən işlərin icrası ilə əlaqədar daim konkret tapşırıqlar müəyyən edilib icrası təmin edilməlidir.

i.ü.f.d. Raqif Qasımov

unec

Azərbaycan Dövlət
İqtisad Universiteti

## UNEC İnnovativ Biznes-İnkubatorun STARTAPLARI

- ECO travel
- Miml
- Professional Accounting Center
- WHATTO
- SOSMART
  Keep your phone sound smart
- UNIWEB
- PERFECT PICTURES
- LINGVOMONDO
  Tərcümə Mərkəzi


**Əlaqə:**

AZ 1001, İstiqlaliyyət 6, ADİU, otaq 1

Tel/Fax: (+99412) 492 31 21

Mob: (+99450) 856 02 01

E-mail: ibi.aseu@gmail.com

Web: www. ibi.az

www.facebook.com/ibi.aseu.az